Xalqın qəzeti!

# Xalq qəzeti

№ 189 (30305) 3 sentyabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq.**

## Laçın yolu suverenlik tələbləri müstəvisində



**Vətən müharibəsindən sonra Ermənistanla sərhəddə, Laçın–Xankəndi yolunda Azərbaycan tərəfindən nəzarət-buraxılış məntəqəsinin yaradılması dövlətimizin Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən ardıcıl və məqsədyönlü siyasətinin məntiqi nəticəsi kimi yüksək dəyərləndirilir, əldə olunan növbəti uğur hesab edilir. Bu, eyni zamanda, savaş bitdikdən sonra Azərbaycanın qarşıya qoyduğu əsas vəzifələrdən biri sayılır.**

Bu məqamda bir məsələni də xatırlatmaq yerinə düşərdi. İkinci Qarabağ müharibəsində işğalçı Ermənistan acı məğlubiyyətlə barışsa da, müəyyən iddialarından yenə əl çəkmirdi. Azərbaycan, Rusiya və Ermənistan arasında aparılan danışıqlar zamanı qəsbkar ölkə Rusiya sülhməramlılarının nəzarəti altında saxlanılacağı Laçın yolunun 20 kilometr enində, eyni zamanda, Ermənistanın öz nəzarətində olmasına cəhd göstərirdi. Lakin bu istəyinə də nail ola bilmədi, düşmən dövlətin belə bir təşəbbüslə çıxışı Prezident İlham Əliyev tərəfindən qətiyyətlə rədd edildi. Dövlətimizin başçısı sərt və barışmaz mövqe ifadə edərək yolun 5 kilometr müəyyənləşdirilməsi, 3 il müddətində yeni yolun istifadəyə verilməsi və Laçın rayon mərkəzinin Azərbaycana qaytarılması ilə bağlı prinsipial müddəaların üçtərəfli Bəyanatda əksini tapmasına nail oldu.

Azərbaycan qarşısına qoyduğu məqsədi qısa müddətdə gerçəkləşdirdi, yeni yolun inşasını il yarıma başa çatdırdı, Ermənistan isə öz öhdəsinə düşən 7 kilometrlik yolun çəkilməsini bilərəkdən gecikdirdi, hətta 2022-ci ilin avqustunda bu ləngiməni ört-basdır etmək üçün təxribatlar törətməyə üstünlük verdi. Lakin bu çirkin niyyətlərini də reallaşdıra bilmədi və işğalçının Laçın rayon mərkəzinin Azərbaycanın nəzarətinə keçməsinin qarşısını almaq cəhdləri iflasa uğradı. Beləliklə, Laçının mərkəzi 2022-ci ilin sentyabrında heç bir qurban verilmədən Azərbaycanın tam nəzarətinə keçdi. Prezident İlham Əliyev sentyabrın 21-də Laçına səfər etdi və şəhərin mərkəzində Azərbaycan bayrağını ucaltdı.

*(ardı 6-cı səhifədə)*

## Vyetnam Sosialist Respublikasının Prezidenti Zati-aliləri cənab Vo Van Txıonqa

**Hörmətli cənab Prezident,**

Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda dost Vyetnam xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Vyetnam arasında dostluq və əməkdaşlıq münasibətlərinin hər keçən il daha da inkişaf etməsi və dərinləşməsi məmnunluq doğurur. Biz ikitərəfli əlaqələrimizin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, mədəni-humanitar, təhsil və digər sahələrdə inkişafına böyük əhəmiyyət veririk. Vyetnamla beynəlxalq təsisatlar, xüsusilə də Qoşulmama Hərəkatı və BMT çərçivəsində səmərəli əməkdaşlığımızı vurğulamaq istərdim.

Hesab edirəm ki, ölkələrimiz arasında əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi üçün yaxşı imkanlar vardır. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində hazırda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərində Vyetnam şirkətlərinin də iştirakını görməkdən məmnun olardıq.

İnanıram ki, Azərbaycan–Vyetnam ənənəvi dostluq əlaqələrinin mövcud potensialından tam bəhrələnmək, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı fəaliyyətimizi genişləndirmək yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Vyetnam xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 avqust 2023-cü il**

## Ərizənizi verin, vətəndaşımız olun

**Azərbaycanın Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmayan hissəsində başıpozuqluq və xaos hökm sürür. Qondarma “dqr”-in qondarma başçısı istefa verib, onun “postuna” müvəqqəti olaraq bir başqa separatçı “təyin edilib”. Batmaqda olan gəmini xatırladan Xankəndidəki daşnak-xunta rejimi min bir oyundan çıxsa da, son aqibətlərini dəyişə bilməyəcək. Bakının onlara təklif etdiyi yeganə alternativ yol tərksilah olunmaq, “səlahiyyətlərini dondurmaq”, oyuncaq atributlarını zibil qutusuna atmaqdır. Bundan sonra orada qalanlar Azərbaycanın şərtlərini qəbul etməli, vətəndaşımız olmalı, bayrağımızın altından keçməlidirlər. Bu qədər sadə.**




*(ardı 3-cü səhifədə)*

## Asiya İnfrastruktur İnvestisiya Bankı ölkəmizlə əməkdaşlığı genişləndirir

**İqtisadiyyat naziri Mikayıl Cabbarov “X” (“Twitter”) sosial şəbəkəsində Asiya İnfrastruktur İnvestisiya Bankının (AİİB) prezidenti və Direktorlar Şurasının sədri Cin Liçün ilə bankın maliyyə dəstəyi ilə ölkəmizdə layihələrin həyata keçirilməsi imkanlarını müzakirə etdiyini yazıb.**



Nazir görüşdə AİİB-lə Azərbaycanın əməkdaşlıq istiqamətləri, birgə fəaliyyətin prioritetləri barədə fikir mübadiləsi aparıldığını qeyd edib.

Xatırladaq ki, həmin görüşdə AİİB ilə reallaşdırılan birgə layihələr etibarlı enerji təminatçısı olan Azərbaycanın regional haba çevrilməsinə mühüm töhfə verdiyi vurğulanıb.

(ardı 7-ci səhifədə)

## Erməni avantürasının “bic uşağı”nın 32 ili



**Dünən qondarma “Dağlıq Qarabağ Respublikası”nın yaradılmasından 32 il ötdü. Bunu yada salmağımızda məqsəd isə sadədir – hazırda saxta qurum sanki süni nəfəs aparatına qoşulub. Ermənistanda ölkənin Azərbaycana qarşı ərazi iddiasının nəticəsi olan bu avantüraya nəfəs vermək istəyən kəsim var. Həmin kəsimin nümayəndələri dünən bir-birini təbrik etdilər, bəziləri mətbuata çıxıb ağzına gələni danışdı, bəziləri isə isterik hala düşdü.**

*(ardı 3-cü səhifədə)*

## Ermənistan hökumətindən növbəti anti-Rusiya addımı




**Hərb meydanında olduğu kimi, siyasi-diplomatik cəbhədə də Azərbaycana məğlub olan rəsmi İrəvan bu uğursuzluğunu ört-basdır etmək üçün yeni təxribata əl atıb. Belə ki, Ermənistan hökuməti Haaqada yerləşən Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunu ratifikasiya üçün ölkə parlamentinə təqdim edib. Ermənistanın media subyektləri bu barədə baş nazir aparatının informasiya və ictimaiyyətlə əlaqələr şöbəsinə istinadən məlumat yayıblar.**

*(ardı 4-cü səhifədə)*

## Qeyri-neft bölməsinin ixracda payı yüksəlir

**Cari ilin yanvar-iyul ayları ərzində Azərbaycanın ümumi ixracı 20,8 milyard ABŞ dolları təşkil edib. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi “İxrac icmalı”nın avqust sayında ətraflı məlumat verilib.**



Nəşrin məlumatına görə, bu ilin 7 ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixrac 2 milyard dollar təşkil edib. İxracın strukturunda qeyri-neft məhsullarının xüsusi çəkisinin artması isə, heç şübhəsiz, son illər ölkəmizdə iqtisadiyyatın dekarbonlaşdırılması ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir. Müqayisə üçün qeyd edək ki, 2010-cu ildə ölkəmizin qeyri-neft sektorunda 18,4 milyon manatlıq məhsul istehsal olunduğu halda, 2022-ci ildə bu göstərici 69,8 milyard manat təşkil edib.

*(ardı 7-ci səhifədə)*

## Paşinyanın Qarabağı Azərbaycan kimi tanıması niyə Ermənistana xeyir imiş?

Səhifə ⇨ 4

## İranda “pantürkizm təhlükəsi” uydurması

Səhifə ⇨ 8

# Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Telekommunikasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 709; 2006, № 5, maddə 404, № 11, maddə 947; 2007, № 6, maddə 601; 2009, № 4, maddə 226; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 3, maddələr 374, 382, № 6, maddələr 1066, 1095, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2322; 2018, № 6, maddə 1237; 2019, № 7, maddə 1215; 2020, № 8, maddə 1033; 2022, № 5, maddə 471, № 8, maddələr 840, 894; 2023, № 1, maddə 93, № 2, maddə 230, № 4, maddə 479) 2.10-cu bəndi aşağıdakı redaksiyada verilsin:

“2.10. həmin Qanunun 10.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;”.

**2.** “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 583 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 465) 2-ci hissəsindən “və “Telekommunikasiya haqqında” Azərbaycan Respublikası Qanununun 10.1-ci maddəsində” sözləri çıxarılsın.

**3.** “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 161 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 474; 2015, № 9, maddə 990; 2020, № 1, maddə 10, № 3, maddə 236; 2021, № 8, maddə 909) 3.6-cı bəndində “Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası” sözləri “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi” sözləri ilə əvəz edilsin.

**4.** “Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 655 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1127; 2016, № 6, maddə 1033, № 8, maddə 1384; 2018, № 8, maddə 1677; 2019, № 5, maddə 828; 2021, № 8, maddə 905; 2022, № 5, maddə 473) aşağıdakı dəyişikliklər edilsin:

4.1. preambulanın dördüncü abzasından “vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi,” sözləri çıxarılsın;

4.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası haqqında Əsasnamə” üzrə:

4.2.1. 1.2-ci bənddə “xidmətləri göstərilməsinə görə tariflərin dövlət tənzimlənməsini həyata keçirir, bu sahədə” sözləri “xidmətlərinin göstərilməsi sahəsində” sözləri ilə əvəz edilsin;

4.2.2. 1.2-1-ci bənddə “bu Əsasnamənin 2.0.1-ci yarımbəndinin 1–3-cü abzaslarında göstərilən” sözləri “dəmir yolu və dəniz nəqliyyatı ilə tranzit yüklərin daşınması xidmətləri, habelə tranzit yüklərlə bağlı liman qurğularının istismarı, dəniz terminalları tərəfindən yükaşırma və dəniz limanında göstərilən digər” sözləri ilə əvəz edilsin;

4.2.3. 2.0.1-ci yarımbənd ləğv edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 iyun tarixli 936 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1032; 2021, № 8, maddə 904) ilə təsdiq edilmiş “Dəmir yolları və dəniz nəqliyyatı ilə tranzit yükdaşıma xidmətlərinin, habelə tranzit yüklərlə bağlı dəniz limanında göstərilən xidmətlərin tariflərinin və həmin tariflər üzrə güzəştlərin müəyyən edilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.1-ci bənddə “Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası (bundan sonra – Koordinasiya Şurası)” sözləri “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra – Nazirlik)” sözləri ilə əvəz edilsin;

5.2. 1.4-cü bənddə “Koordinasiya Şurasının” sözləri “Azərbaycan Respublikası Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının (bundan sonra – Koordinasiya Şurası)” sözləri ilə əvəz edilsin;

5.3. 2.1-ci, 2.4-cü, 2.5-ci, 2.6-cı (hər iki halda), 2.8-ci və 2.12-ci bəndlərdə ismin müvafiq hallarında “Koordinasiya Şurası” sözləri ismin müvafiq hallarında “Nazirlik” sözü ilə əvəz edilsin;

5.4. 2.11-ci bənd ləğv edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41; 2019, № 1, maddə 95, № 6, maddə 1027, № 11, maddə 1702, № 12, maddə 1929; 2020, № 3, maddə 231, № 4, maddə 407, № 8, maddə 1044; 2021, № 6 (I kitab), maddə 593, № 12, maddələr 1356, 1430; 2022, № 5, maddə 459, № 11, maddə 1264; 2023, № 3, maddə 368, № 4, maddələr 474, 499) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

6.1. aşağıdakı məzmunda 2.0.2-1-ci yarımbənd əlavə edilsin:

“2.0.2-1. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, müvafiq sahəyə aid məsələlərə dair tarif siyasətini həyata keçirir;”;

6.2. 3.0.7-ci yarımbənddə “müvafiq sahəyə aid olan məsələlərə dair tarif siyasətinin formalaşdırılmasında iştirak etmək, bu sahədə dövlət tərəfindən tənzimlənən tariflər barədə təkliflər vermək,” sözləri “müvafiq sahədə qanunla müəyyən edilmiş hallarda tarifləri və xidmət haqlarını, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısında nəzərdə tutulan tarifləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla təsdiq etmək,” sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 dekabr tarixli 1492 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1357) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası haqqında Əsasnamə”nin 3.1.9-cu yarımbəndinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 3.1.10-cu yarımbəndi ləğv edilsin.

**8.** “Media haqqında” Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 1589 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 100) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.2.3-cü yarımbənd ləğv edilsin;

8.2. 2.3-cü bənddən “29.4-cü, 33.5-ci maddələrində,” sözləri çıxarılsın;

8.3. aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

“2.5-1. həmin Qanunun 29.4-cü və 33.5-ci maddələrində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;”.

**9.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmanın 1 – 8-ci hissələrində nəzərdə tutulan tarifləri və xidmət haqlarını, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**10.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən yeni tariflər və xidmət haqları təsdiq edilənədək mövcud tariflər və xidmət haqları öz hüquqi qüvvəsini saxlasın.

**11.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 sentyabr 2023-cü il**



# Azərbaycanın təşəbbüsü ilə İstanbulda görüş

**Sentyabrın 2-də İstanbulda Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dövlət başçılarının xarici siyasət məsələləri üzrə köməkçilərinin (müşavirlərinin) qeyri-rəsmi görüşü keçirilib.**

Görüşdə üzv dövlətlər arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın daha da inkişafının vacibliyi vurğulanaraq, Təşkilatın fəaliyyətinin genişləndirilməsinin önəmi qeyd olunub.

İştirakçılar Qazaxıstanın ev sahibliyi ilə keçiriləcək TDT-nin 10-cu Zirvə Toplantısının təşkilinə dair məsələləri də müzakirə ediblər. Zirvə Toplantısı çərçivəsində imzalanacaq sənədlərin Türk Dünyasında əlaqələrin inkişaf etdirilməsi və ortaq hədəflərə nail olunması baxımından əhəmiyyəti vurğulanıb. Görüşdə, həmçinin beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın dərinləşdirilməsi məsələsi də müzakirə edilib.



Toplantı “Türk Dünyasına Baxış-2040” və “TDT 2022-2026 Strategiyası” çərçivəsində Türk Dövlətləri Təşkilatının inkişaf edən qlobal mühitdə türk dövlətləri arasında daha dərin əməkdaşlığın təşviq olunması öhdəliyinə uyğun olaraq, konstruktiv dialoq və strateji planlaşdırma baxımından platforma rolunu oynayıb.

Xatırladaq ki, görüşdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də iştirak edib.

TDT ölkələri prezidentlərinin köməkçiləri və diplomatik müşavirləri yeni dialoq mexanizmini işə salıblar.

Bu barədə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “X” sosial şəbəkəsindəki hesabında yazıb.

“Türk Dövlətləri Təşkilatı çərçivəsində TDT sammitlərinin baxış və strateji məqsədlərinə çatmaq üçün biz prezidentlərin köməkçiləri və diplomatik müşavirləri səviyyəsində yeni dialoq və məsləhətləşmələr mexanizmini işə saldıq”, – H.Hacıyev qeyd edib.

***

Türkiyənin İstanbul şəhərində Türk Dövlətləri Təşkilatı (TDT) Katibliyinin binasında TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.

Görüş zamanı baş katib və Azərbaycan Prezidentinin köməkçisi TDT-nin gündəliyində duran məsələləri və təşkilatın qarşıdakı tədbirlərinə hazırlıq işlərini müzakirə ediblər. Tərəflər həmçinin türk dünyasında baş verən son hadisələrlə bağlı fikir mübadiləsi aparıblar.

***XQ***

# Müdafiə Nazirliyinin məlumatı

**Sentyabrın 2-də səhər saatlarında Azərbaycan Ordusunun Şahbuz və Kəlbəcər rayonları istiqamətində yerləşən mövqeləri üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatlarının (PUA) səyyar yerüstü idarəetmə stansiyası məhv edilib.**



Qeyd edək ki, bu stansiyadan Ordumuzun müxtəlif istiqamətlərdəki mövqeləri üzərində kəşfiyyat aparan və zərbə endirən PUA-ların idarə olunması üçün istifadə olunurdu.

***

Sentyabrın 2-si saat 11:00 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini 60 və 82 millimetrlik minaatanlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə bildiriblər ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

***

Həmin gün saat 12:58-də Ermənistan silahlı qüvvələrinin bölmələri Qafan rayonu istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Culfa rayonu istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub. Cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

***

Azərbaycanın hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən xarici aviaşirkətlərin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən növbəti dəfə radiomaneələr tətbiq edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə bildirilib ki, sentyabrın 1-i Paris-Pekin marşrutu üzrə uçuş yerinə yetirən ABŞ Hava Yollarının B-77L tipli sərnişin təyyarəsinə saat 11:15-dən 11:36-dək, Təl-Əviv-Bakı marşrutu üzrə uçuş yerinə yetirən İsrail Hava Yollarının C-650 tipli sərnişin təyyarəsinə saat 13:30-dan 13:58-dək radiomaneələrin tətbiqi nəticəsində GPS peyk naviqasiya sistemlərində fasilə yaranıb.

Qeyd olunan faktlar barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı məlumatlandırılıb.

***

Həmin gün günorta saatlarında Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətində yerləşən bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinə məxsus zərbə pilotsuz uçuş aparatı aşkar edilib.

Bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar edilən PUA xüsusi vasitələrin tətbiqi ilə hədəfə çatmadan zərərsizləşdirilərək ələ keçirilib.

***

Saat 16:00-dan 16:10-dək Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Ermənistan silahlı qüvvələri bölmələrinin Əzizli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinin atəşə tutulması barədə qarşı tərəfin yaydığı məlumat tamamilə yalandır.

“Ermənistan müdafiə nazirliyinin yaydığı bu məlumatı qəti surətdə təkzib edirik”, – deyə nazirlikdən XQ-yə bildirilib.

***XQ***

# Zakir Həsənovun Türkiyəyə işgüzar səfəri başa çatıb



**Türkiyəyə işgüzar səfəri çərçivəsində Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov Eskişəhərdə 1-ci Aviasiya bazasının komandiri general-mayor Ertan Uzun ilə görüşüb.**

Görüşdə hərbi, hərbi təhsil sahələrində əməkdaşlıq və qarşılıqlı maraq doğuran bir çox məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra general-polkovnik Z.Həsənov Türkiyə Respublikasının Milli Müdafiə naziri Yaşar Güler ilə birgə 2023–2024-cü uçuş təlim ilinin açılış mərasimində iştirak edib. Uçuş əmri verildikdən sonra qonaqlar qardaş ölkənin hərbi aviasiya vasitələrinin uçuşlarını izləyiblər.

Daha sonra general-polkovnik Z.Həsənov Ankaraya gəlib. Burada Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürakla görüşüb. Görüşdə iki qardaş ölkənin orduları arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub. Sonra hər iki qardaş ölkənin müdafiə nazirləri Ankarada keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya festivalında iştirak ediblər.

***XQ***

# Ərizənizi verin, vətəndaşımız olun

## *Hikmət Hacıyevin açıqlaması Qarabağ ermənilərinə şans yaradır*

*(əvvəli 1-ci səhifədə)*

İndi Qarabağın erməni icmasının başında duranlar Bakı ilə dialoqdan və Ağdam–Xankəndi yolunu açmaqdan, humanitar yadımın qəbulundan imtina edirlər. Bu isə ona aparır ki, Azərbaycan Ordusunun suveren ərazimiz sayılan bölgədə qayda-qanun yaratmaqdan savayı seçimi qalmayacaq. Əgər İrəvan hakimiyyətinin azca sağlam məntiqi və diplomatik intuisiyası qalıbsa, Xankəndidəki separatçılara Azərbaycanın şərtlərini qəbul etməyi məsləhət görməlidir. Lakin aşkar görünən odur ki, Hayastan hakimiyyəti son günlər şərti sərhəddə silahlı təxribatlara əl atmaqla bölgədə onsuz da gərgin olan vəziyyəti daha da qızışdırmaq yolunu tutub. Bəlkə İrəvanda belə güman edirlər ki, sərhəddə törətdikləri təxribatlarla Azərbaycanı Qarabağda öz qayda-qanununu yaratmaqdan yayındıra biləcəklər? Xeyr, bu "diplomatik arthazırlıqlar" daha işə yaramır, heç bir "erməni hiyləsi"nin də faydası olmayacaq. Müzəffər Azərbaycan Ordusunun gücü şərti sərhəddə mövcud üstünlüyümüzü bundan sonra da davam etdirməyə, eləcə də doğma Qarabağımızda daşnak separatizminin kökünü kəsməyə yetərlidir. Bu həqiqəti hazırda İrəvan və Xənkəndidə tikan üstündə oturanlar da yaxşı bilirlər.

* * *

Qarabağ erməniləri seçim etməlidirlər. Onlar ya Azərbaycan torpağında yerli qanunlarla yaşamağı qəbul etməli, ya da ərazimizdən rədd olub getməlidirlər. İrəvan və onun kənar dəstəkçiləri bu prosesi "etnik təmizləmə" kimi qələmə verməyə çalışmaqla kökündən yanılırlar. Məgər həmin ermənipərəst Fransada və ya ABŞ-ın Kaliforniya ştatında kimsə yerindən qalxıb desə ki, "yaşadığım ölkənin qanunlarını tanımıram və onun pasportunu da daşımaq istəmirəm", o adamı dərhal ölkədən deportasiya edərlər, ya yox? Əlbəttə, qeyd-şərtsiz edərlər. Elə eyni hüquqi prosedur Azərbaycanda da keçərlidir.

"Qarabağın erməni sakinləri Azərbaycan vətəndaşlığı üçün ərizə ilə müraciət etməlidirlər". Bu sözləri Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "TRT World"ə müsahibəsində deyib. Onun sözlərinə görə, Qarabağın erməni sakinləri Azərbaycan vətəndaşı kimi qəbul olunmaq üçün müvafiq ərizə ilə müraciət etməlidirlər. Bu, həm də o deməkdir ki, onlar Azərbaycan vətəndaşlığını qəbul etməklə Bakının suverenliyini və qanunlarını da tanıyırlar.

Hüquqi baxımdan, Qarabağ bölgəsində doğulmuş ermənilər Azərbaycan vətəndaşlarıdır. İntəhası, Qarabağ bölgəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalından sonra İrəvan burada anneksiya siyasəti aparıb və regionun, erməni sakinlərinin, demək olar ki, hamısına qeyri-qanuni şəkildə öz pasportlarını paylayıb. İndi Xankəndidəki xunta rejimindən bezmiş sıravi ermənilərə unikal şans verilir. Evində oturub müraciət-ərizələrini doldurub internet üzərindən onlayn formada Bakıya göndərə bilərlər. Əminik ki, çox qısa müddətdən sonra belə müraciətlərin sayı yüzlərlə deyil, minlərlə olacaq. Və o zaman daşnak-separatçı qaragüruh dinc sakinlərə nəzarət etmək iqtidarında olmayacaq.



Prezidentin köməkçisi onu da diqqətə çatdırıb ki, Azərbaycan Qarabağ ermənilərinin dil, mədəni, dini və bələdiyyə hüquqlarını təmin edəcək. H.Hacıyev vurğulayıb ki, Azərbaycan müxtəlif beynəlxalq konvensiyaların, o cümlədən Avropa Şurasının Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyasının (FCNM) üzvüdür: "Belə konvensiyalar çərçivəsində biz Qarabağ bölgəsinin erməni sakinlərinin fərdi hüquqlarını təmin etməyə hazırıq".

O, həmçinin İrəvanın başbilənlərinə, onların Fransa kimi dəstəkçilərinə xəbərdarlıq edərək bildirib ki, Azərbaycan Rusiya sülhməramlılarının yerləşdiyi Qarabağ iqtisadi rayonunun "boz sahə"yə çevrilməsinə heç vaxt imkan verməyəcək.

"Əsl həll yolu yerdədir. Azərbaycan irəli getmək, reinteqrasiya prosesini təmin etmək və yolları açmaq prinsipini rəhbər tutaraq Qarabağ ermənilərini sosial, siyasi və bir sıra digər məsələləri müzakirə və gündəliyi müəyyən etmək üçün birbaşa təmasda olmağa dəvət edib", – Hikmət Hacıyev vurğulayıb.

* * *

ARAYIŞ: Erməni separatçıları 1991-ci il sentyabrın 2-də DQMV və Azərbaycan SSR-in Şaumyan (kənd) rayonu hüdudlarında qondarma "Dağlıq Qarabağ Respublikası" ("DQR") elan ediblər. Dekabrın 10-da isə DQMV-da "referendum" keçirilib. Elə o vaxt aydın görünürdü ki, İrəvan SSRİ-nin dağılmaqda olmasını nəzərə alaraq, özünü münaqişə tərəfi kimi göstərməməklə beynəlxalq rəyi çaşdırmağa, separatçılıq fəaliyyətini xüsusi plan üzrə reallaşdırmağa çalışır. Buna cavab tədbiri kimi 1991-ci il noyabrın 23-də Azərbaycan Respublikasının Ali Soveti Dağlıq Qarabağın muxtariyyət statusunu ləğv etdi. Məhz bu tarixdən etibarən açıq şəkildə ərazi iddiaları səsləndirən Ermənistan Azərbaycana qarşı müharibə elan etmədən hərbi əməliyyatlara başladı. Bununla da, münaqişə özünün silahlı qarşıdurma mərhələsinə keçdi.

"Qırmızı imperiya" adı verilmiş SSRİ dönəmində DQMV-yə aid 4388 kvadrat kilometrlik ərazidən az qala iki dəfədən də çox Azərbaycan torpağını işğal edən Ermənistan 32 il bundan əvvəl Konstitusiyasına "Dağlıq Qarabağ"ın Ermənistanın tərkib hissəsi olduğunu göstərən maddə daxil edib. Həmin maddə hələ də hayların "ali qanunu"nda durmaqdadır.

Bəli, Qarabağ erməniləri ciblərində Ermənistan pasportu daşıyırlar. İndi onlara suveren ərazisində yaşadıqları dövlətin vətəndaşı olmaq şansı verilir. Rəsmi Bakı baş verənlərin fərqindədir. Hələlik, "acından ölməkdə olan" Qarabağ sakinlərinə humanitar yardımını təklif edib. Seçim etmək öz əllərindədir. Amma unutmasınlar ki, onlar undan imtina etməklə Bakını "xüsusi humanitar əməliyyata" sövq edə bilərlər. Çünki Azərbaycan rəhbərliyi, xalqı və ordusu nə torpağımızda ikinci "erməni dövləti"nin yaradılmasına imkan vermək, nə də qəsdən və yersiz uzadılan bu münaqişəni gələcək nəsillərə saxlamaq fikrində deyil.

**İmran BƏDİRXANLI,**
**XQ**

### Ekspert rəyi

**Tofiq ABBASOV,**
**siyasi şərhçi:**



Bu, bir qədər mürəkkəb məsələdir. Qarabağda yaşayan ermənilər üç kateqoriyaya bölünür. Onların bir qismi Azərbaycan vətəndaşlığını çoxdan qəbul etməyə hazırdır. Bir qismi bölgədən getməyə meyillidir. Digər qismi isə ümumiyyətlə, dünyaya çıxmağa hazırlaşır. Yəni, bu kəsim Qafqazdan uzaqlaşmaq istəyir. Əlbəttə, şəxsi işləridir, özləri bilər. Amma bu məsələdə çətinliklər, problemlər onunla bağlıdır ki, Qarabağ ermənilərinin xüsusilə kişi əhalisinin içində şovinist, xəstə, qaniçən cinayətkarlar da var. Belələri düşünür ki, əgər bu və ya digər formada özlərinə bəraət qazandıra bilsələr, hər şey qaydasına düşəcək. Fəqət sənədləşdirmə zamanı onların hamısı milli qanunvericiliyimizin süzgəcindən keçməlidir. Misal üçün, bu yaxınlarda Vaqif Xaçaturyanın saxlanılması nə ilə bağlı idi? Bu adam azərbaycanlılara qarşı soyqırımı aktlarında iştirak edib.

Orada vaqifəbənzərlərin sayı həddən artıq çoxdur. Həmin sakinlər hər yolla özlərinin cinayətkar keçmişini ört-basdır etməyə çalışacaqlar. Hətta, inkarçılıqla məşğul olacaqlar. Bütün bunlara baxmayaraq, Azərbaycan prinsipial mövqedən çıxış etməlidir. Bəli, prosedurlar hamıya bəllidir. Müraciət edin, işinizə baxılsın. Axı hər müraciət edənin əlimizdə dosyesi var. Adam kimdir, harada doğulub, müharibədə iştirak edibmi? Qarabağa qətiyyən aidiyyatı olmayan fırıldaqçılar da üzə çıxacaq. Orada daimi məskunlaşmaq, torpaq tutmaq istəyənlər var. Sonradan əllərinə silah alıb Azərbaycanın daxilində separatizmlə, sabitliyi pozmaqla məşğul olsunlar? Onların işləri diqqətlə yoxlanılmalıdır. O sakinlər ki, həqiqətən də Qarabağda doğulublar, təmizdirlər, dosyelərində şübhəli, cinayətkar əməllər yoxdur, qətllərdə iştirak etməyiblər, əlbəttə ki, onlara müsbət cavab veriləcək.

Yenə deyirəm, bu, kifayət qədər ağrılı prosesdir. Bizim hüquq-mühafizə, təhlükəsizlik orqanlarımız bu işlərdə yetərincə təcrübəyə malikdirlər. Bu səbəbdən heç bir təsadüf ola bilməz. Ən əsası isə Xankəndidə, Xocalıda, Ağdərədə, Malıbəylidə, Daşaltıda doğulmuş Azərbaycan vətəndaşları doğma yurdlarına, əzəli torpaqlarımıza qayıtsınlar. Onlar hələ də məcbur köçkün kimi yaşayırlar. Yəni soydaşlarımızın da pozulmuş hüquqları bərpa edilməlidir.

KÖŞƏ YAZISI

# Erməni avantürasının "bic uşağı"nın 32 ili

## *Süni nəfəs aparatına qoşulmuş "DQR"i Azərbaycanın "cərəyandan ayıracağı" gün uzaqda deyil*

*(əvvəli 1-ci səhifədə)*

Bəli, rəsmi İrəvan və erməni siyasi dairələri "Artsax" sarsaqlığını nə qədər "Qarabağ xalqı"nın milli davası kimi təqdim etməyə çalışsalar da, bütün dünya yaxşı anlayır ki, söhbət Ermənistanın Azərbaycana qarşı ərazi iddiasından gedir. Bunu sübuta yetirməyin ən müxtəlif üsulları var. Ən başlıca sübut isə Ermənistan Respublikasının istiqlal bəyannaməsidir. O bəyannamə ki, ölkənin 5 iyul 1995-ci ildə qəbul edilmiş konstitusiyasının məhz ondan qaynaqlandığı məlumdur.

Ermənistanın istiqlal bəyannaməsində bildirilir ki, sənəd 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Sovetinin və Artsax Milli Şurasının birgə qəbul etdiyi "Ermənistan SSR və Dağlıq Qarabağ Vilayətinin birləşməsi" haqqında ortaq qərara əsaslanır. Ermənistan konstitusiyasında isə ölkənin 23 avqust 1990-cı ildə qəbul edilmiş istiqlal bəyannaməsində yer almış ümummilli dəyərlərin əsas hədəf götürüldüyü bildirilir. Bəyannamə dövlətin adından qəbul edilmiş ali hüquqi dəyərə malik akt kimi, həm qonşu Türkiyənin şərq əyalətlərini "Qərbi Ermənistan" adlandırır, həm də beynəlxalq birlik tərəfindən dövlət olaraq tanınmayan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan ilə birləşməsi haqqında ortaq qərara əsaslanır.

Deməli, hər şey aydındır. Qeyd etdiklərimiz bir daha göstərir ki, hazırda Qarabağ müstəvisində meydana çıxan avantürist fikirlərin yekun məqsədi Qarabağı Ermənistana birləşdirməkdir. Heç bir halda "Qarabağ xalqı" və onun öz müqəddəratını təyin etməsi kimi məsələ yoxdur, bu, yalnız işğalçılığa hesablanmış cəfəngiyyatdır.

Digər tərəfdən, bu gün Ermənistan rəhbərliyi, Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını bəyan edən baş nazir Nikol Paşinyan administrasiyası bölgə ermənilərinin hüquq və azadlığı məsələsini qabardır. Üstəlik, hüquq və azadlıqlar üçün beynəlxalq təminat amili üzərində dayanır. Bunlar nəyə görədir? Şübhəsiz ki, həmin beynəlxalq təminatın mövcudluğundan "yararlanıb", "Dağlıq Qarabağ Respublikası"nın dünyada tanınmasında tutacaq yer formalaşdırmaq məramı güdülür. Əlbəttə, bu gedişin son hədəfi də var – Ermənistana birləşmək.

Bəli, görünür, elə məhz buna görə Ermənistan Respublikası "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyini heç zaman tanımayıb və indi də tanımır. Çünki ölkə onu öz ərazisi kimi görür. Hesab edir ki, əgər tanınma baş versə, gələcəyə hesablanmış plan alınmayacaq. Yeri gəlmişkən, onu da deyək ki, Ermənistanın Paşinyana qədərki iqtidarının zamanında ölkədə hazırlanmış müxtəlif xəritələrdə Qarabağ Ermənistan ərazisi kimi göstərilirdi. Təsəvvür edin, bir tərəfdən Azərbaycanla Qarabağ mövzusunda danışıqlar aparan sabiq prezidentlər Robert Koçaryan və Serj Sarkisyan, digər yandan öz başbilənlərinə sözügedən xəritələri ölkənin hər yerinə, o cümlədən, təhsil müəssisələrinə yaymaq göstərişi verir, ikiüzlülük edirdilər. Çalışırdılar ki, mənfur plan beyinlərə yeridilsin.



Ancaq onlardan fərqli olaraq, N.Paşinyan, belə demək mümkünsə, daha səmimi davrandı. O, bütün "oyunları" kənara qoyaraq, təbiidir ki, eyni zamanda, Azərbaycan–Ermənistan danışıqlarının həmin vaxtadək olan axarını pozaraq, birbaşa bildirdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Ardınca Şuşada – Cıdır düzündə nümayişkəranə rəqs etmə, içib sərxoş olma və sair. Nikolun hərəkətinin Ermənistana nəyin bahasına başa gəldiyi də məlumdur...

Bir daha bildirək ki, dünən 32-ci ildönümü qeyd edilmiş "Dağlıq Qarabağ Respublikası" Ermənistanın Azərbaycana qarşı ərazi iddiasından başqa bir şey deyil. Obrazlı desək, bu iddia kimsənin sahiblənmək istəmədiyi "bic uşaqdır". Üstəlik, bu "vələdüzina" əvvəllərdə olduğu kimi, yenə süni nəfəs aparatına qoşulu vəziyyətdədir.

Qarabağ əbədi və əzəli Azərbaycan torpağıdır. Azərbaycan isə heç bir halda öz ərazisində separatçılıq yuvasının mövcudluğuna razılıq verməyəcək. Həm də ona görə ki, torpaqdan pay olmaz! Tarixdə Qarabağdakı erməni avantürizminin qol-qanad açmasına rəvac verən paylarımız olub. Bu gün güclü Azərbaycan dövləti sələflərinin yol verdikləri səhvləri bir-bir düzəldir. Düzəldir, həmçinin qətiyyətlə və əminliklə bəyan edir ki, Ermənistanın paytaxtı İrəvan əzəli və əbədi Azərbaycan torpağıdır, qədim türk yurdudur və bu, heç bir halda ərazi iddiası deyil, böyük haqdır. Ölkəmiz bütün haqlarına qovuşacaq!

**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

# Qarabağ erməniləri heç nədən korluq çəkmirlər

## *Onların ehtiyat taxılı da var, turşusu da, tut arağı da*



**"Ağdama çatdırdığımız humanitar yükü məlum səbəblərdən Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərə hələ təhvil verə bilməmişik".**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin vitse-prezidenti Qafar Rüstəmzadənin qəzetimizə verdiyi məlumata görə, altı gündür 40 ton un rus sülhməramlılarının postunda gözləməkdədir.

Q.Rüstəmzadə 40 ton unun Qarabağ iqtisadi zonasında yaşayan erməni sakinlərə mütləq çatdırılacağını söylədi. Hazırda cəmiyyətin əməkdaşlarının və könüllülərin qurduqları çadırlarda qaldıqlarını diqqətə çatdıran vitse-prezident ərazidən bir addım belə geri çəkilməyəcəklərini dedi: "Bölgədə müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin rəhbərliyi ilə danışıqlar aparıldı, amma hələlik konkret nəticə yoxdur. Yəni o tərəfdən bizə nə "hə" deyiblər, nə də "yox".

Vitse-prezident Qafar Rüstəmzadə onu da əlavə etdi ki, Qarabağ ermənilərinin aclıqdan əziyyət çəkdikləri barədə deyilənlər kökündən yalan və dezinformasiyadır: "Təkcə Ağdərə rayonunun məhsuldar torpağında yetişdirilən taxıl, kartof, tərəvəz məhsulları onlara illərlə bəs edər. Ermənilərin özlərinə yaylıq, qışlıq ehtiyat azuqə toplamaqda nə qədər usta oldurlarını isə hamımız çox yaxşı bilirik. Onların hər mövsüm üçün ehtiyat taxılı da, tərəvəzi də, turşusu da yetərincədir. Sadəcə "humanitar böhran", "aclıq" kimi ideoloji şoulardan Azərbaycana siyasi təzyiq forması kimi istifadə etməyə çalışırlar. Amma bunların hamısı boş cəhdlərdir".



Xatırladaq ki, avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Qarabağda yaşayan erməni əsilli sakinlər üçün 40 ton un göndərilib. Yük maşınları Rusiya sülhməramlılarının nəzarət etdiyi Ağdam–Xankəndi yolundakı postunda gözləyir. Yardımın Xankəndiyə çatdırılmasına şərait yaradılması üçün Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə cəmiyyətin yetkililəri arasında razılıq əldə olunsa da, erməni separatçıları Əskəran yolunda barrikada quraraq buna imkan vermirlər.

**İ.HƏSƏNQALA,**
**XQ**

# Paşinyanın Qarabağı Azərbaycan kimi tanıması niyə Ermənistana xeyir imiş?

## *Yaxud erməniпərəstliyin Aleksandrov sərsəmliyindəki "incəliklər"*

**Azərbaycan və Ermənistan arasındakı hazırkı durum beynəlxalq ictimaiyyətin, o cümlədən, Rusiyanın siyasi dairələrinin diqqət mərkəzindədir. Əlbəttə, bu dairələrdən söz düşəndə, bir qayda olaraq, yadımıza ermənipərəstlər düşür. Hərçənd, ölkədə Bakı–İrəvan qarşıdurmasına münasibətdə ədalətli mövqe tutanların da mövcudluğunu yaddan çıxarmamalıyıq.**

Ancaq səsi daha çox çıxan ikincilərdir. Yazımızda onlardan birinin son dərəcə hiyləgər motivli fikirlərini diqqətə çatdıracağıq. Belələrinin söylədiklərinə həm də ona görə fikir verməliyik ki, onların cəfəng ritorikası, sonradan Ermənistan dövləti üçün siyasi manevr vasitəsinə çevrilir. İrəvan məkrli planlar qurarkən, beyin qıcqırması keçirənlərdən mütləq nələrisə ya bütövlükdə, ya da qismən "əxz edir".

***

Beləliklə, ermənipərəst mövqeyi ilə seçilən rusiyalı daha bir politoloqu tanıyın – Mixail Aleksandrov. M.Aleksandrov bildirib ki, Azərbaycan Ermənistadan güzəştlər qoparmaq üçün təzyiqləri gücləndirir. Onun düşüncəsinə görə, hazırda İrəvanın istəyi Qarabağ münaqişəsini Ermənistanla Azərbaycanın deyil, Azərbaycanın və Qarabağ ermənilərinin problemi kimi təqdim etməyə hesablanıb.

Əlbəttə, politoloqa, müəyyən mənada, haqq qazandırmaq mümkündür. Ancaq Ermənistanın ictimai rəyi, eləcə də siyasi istableşmenti məsələyə heç də tam şəkildə mövcud prizmadan yanaşmır. Xəstə erməni cəmiyyəti "Qarabağ varsa, Ermənistan var, Qarabağ yoxdursa, Ermənistan yoxdur" devizi ilə hərəkət edir və rəsmi İrəvan bu duruma reaksiyasız qala bilməz. Əslində, heç qalmır da.

Ermənistan Qarabağ ermənilərinin humanitar durumu adlı məsələni BMT Təhlükəsizlik Şurası müstəvisinə çıxarırsa, deməli, hər bir halda tərəfdir. Bakının bunu sübuta yetirmək üçün əlavə tədbirlərə ehtiyacı yoxdur. Yəni, politoloq Aleksandrovun dili ilə söyləsək, ölkəmizin sırf mövcud xüsusda İrəvana təzyiq ritorikasını işə salması istisnadır. Əlbəttə, ümumən Azərbaycan Ermənistana təzyiq göstərməlidir və göstərir də. 44 günlük müharibədən sonrakı proseslər İrəvanın xoşluqla yola gəlmədiyini, güc dilindən başqa nəyisə anlamadığını söyləməyə əsas yaradır...

Ancaq gəlin, bir anlıq düşünək ki, M.Aleksandrovun dedikləri doğrudur və Bakı İrəvana sırf onun dediyi mövzu ilə əlaqədar təzyiq göstərir. Politoloqun sözlərinə görə, Azərbaycan Ermənistan ərazilərini atəşə tutur ki, ikinci özünün Qarabağ müstəvisindəki canfəşanlığından geri addım atsın. Birincisi, atəş açan və təxribat törədən biz deyilik, qarşı tərəfdir. Digər yandan, çox güman ki, Ermənistanın hakim siyasi dairələri elə Aleksandrov ağıldadırlar. Yəni, onlar şərti sərhəddə təxribat törətməklə, ölkəmizi əks addımlara məcbur etməklə, dünyaya göstərirlər ki, Azərbaycan təzyiq yolu tutur və bu təzyiq Qarabağa görədir. Əlbəttə, yalnız Qarabağa görə yox. Ümumən, erməni iqtidarının iddiası budur ki, Bakının güddüyü işğalçılıq niyyətidir.

M.Aleksandrov, həmçinin bu qənaətdədir ki, Azərbaycan, guya, diplomatik cəhətdən uduzur və dünya birliyi Bakını Qarabağı blokadaya aldığına görə günahkar sayır. Həm də ona görə günahkar sayır ki, Bakı, guya, bölgədə etnik təmizləmə və soyqırımı reallaşdırmaq istəyir. Əlbəttə, Azərbaycanın belə bir niyyəti yoxdur, məqsədi öz ərazisindəki separatçılıq yuvasını dağıtmaqdır.

***

M.Aleksandrovun söylədiklərində bir təzadlı məqam var. O bildirir ki, rəsmi Bakı ziddiyyətləri Azərbaycan–Ermənistan münaqişəsi formatına – əvvəlki axara qaytarmaq istəyir. Ancaq məsələnin qoyuluşu bu cür ola bilməz. Çünki Azərbaycan beynəlxalq ictimaiyyətin onu soyqırımı və etnik təmizləmə həyata keçirən ölkə kimi tanıması ehtimalını düşünür, düşünməməsi mümkünsüzdür. Ölkəmizi vandal obrazında göstərməyə çalışan isə Ermənistan iqtidarıdır. Deməli, sadə məntiq deyir ki, danışıqların axarını dəyişmək istəyən də İrəvandır, Bakı yox.

Eyni zamanda, onu da vurğulamalıyıq ki, hazırda Ermənistan, daha doğrusu, baş nazir Nikol Paşinyan administrasiyası, faktiki olaraq, M.Aleksandrovun dediklərini gerçəkləşdirməklə məşğuldur. "Məşğuliyyət" də danışıqlar prosesindən yayınmağı hədəfləyir. O prosesdən ki, onun ana xəttində Ermənistanın Azərbaycanın, Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü tanıması dayanır. Sülh müqaviləsi də mövcud bazada imzalanmalıdır. İndi sırf Qarabağ müstəvisində qaldırılmış erməni şousu isə ona hesablanıb ki, Paşinyanın ölkəmizin suveren ərazilərini tanımasına dair fikirləri tamamilə gündəmdən düşsün. Nəticədə Bakı–İrəvan yekun razılaşması təxirə salınsın. Yəni, söhbət politoloq Aleksandrovun dediyi kimi, Azərbaycanın diplomatik müstəvidə uduzmasından yox, Ermənistanın əvvəl hərbi, sonra siyasi məğlubiyyətdən yaranmış reallığı dəyişdirmək yönümlü uğursuz cəhdindən gedir.

***

Politoloq M.Aleksandrov erməni mediasına müsahibəsində keçmişə ekskurs etməyi də yaddan çıxarmır. O deyir ki, vaxtilə erməni diplomatiyasının axmaqlığı ucbatından Qarabağ danışıqlar prosesindən çıxarılıb. "O zamankı vasitəçi Vladimir Kazimirov sonradan yazmışdı ki, təcrübəsiz erməni diplomatiyası atəşkəs sazişini imzalamağa razılaşdı. Azərbaycan isə dərhal "Qarabağ xalqı"nın öz müqəddəratını təyinetmə hüququ kimi ortaya çıxan münaqişəni Ermənistan–Azərbaycan ərazi münaqişəsi qismində təqdim etdi. Bundan sonra hər şey sıradan çıxdı və beynəlxalq ictimaiyyət Bakını dəstəklədi", – deyən Aleksandrovun fikrincə, 1994-cü ildə Ermənistan atəşkəs imzalamalı deyildi. Onun qənaətinə görə, indi isə demək lazım deyil ki, Qarabağ Azərbaycanın tərkib hissəsi deyil. Paşinyan bunu bildirsə, münaqişə yenidən Ermənistanla Azərbaycan arasında ərazi davası xarakteri alacaq və bu, Bakıya lazımdır.

Bəli, Aleksandrov belə fikirlərdir ki, Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanımaqla diplomatik manevr edib. Bu zaman öz reputasiyasını zərbə altına qoysa da, düzgün mövqe tutub. Çünki onun yanaşması münaqişəni Azərbaycan və Qarabağ prizmasında saxlayır: "Paşinyan susur, amma reallıqda belə çıxır ki, Bakı Stepanakertlə danışıqlar aparmalı və statusu razılaşdırmalıdır".

***

Göründüyü kimi, M.Aleksandrovun timsalında Rusiyanın ictimai-siyasi rəyi, eləcə də analitik mərkəzləri son dərəcə hiyləgər, məkirli siyasi texnologiyaya əl





atıblar. Dəqiq desək, hiyləgər düşüncələrini işə salaraq, Ermənistana kömək göstərməyə çalışırlar. Əlbəttə, demək olmaz ki, İrəvanda onların ortaya atdıqlarını əvvəldən düşünməyiblər. Bir sıra ermənipərəst qüvvələrin Qarabağ ətrafında hay-küy qaldırdığı bir dövrdə rahat şəkildə Ermənistanın müxtəlif yerlərində dolaşması, əhali ilə görüşlər keçirməsi, deyib-gülməsi onu deməyə əsas verir ki, Paşinyan da təxminən Alekandrovun dediyi kimi davranır. Yəni, elə fon yaradır ki, guya, ölkəsi Qarabağ müstəvisindəki proseslərə qarışmır.

Ancaq Nikolun bu rolu axıradək oynaya bilməsi mümkünsüzdür. Çünki xəstə erməni cəmiyyəti vay-şivən qoparıb onu fəaliyyətsizlikdə ittiham edər və edir də. Mövcud situasiya rəsmi İrəvanı, hər bir halda, tərəfə çevirir. Daha dəqiq desək, onun özünü münaqişə tərəfi olmayan qismində göstərməsi tamamilə mümkünsüzdür. Elə isə keçək rusiyalı politoloqun düşüncəsinin mücərrəd guşəsində bəslədiyi digər məqama.

M.Aleksandrov bildirir ki, Azərbaycan Qarabağa qarşı güc tətbiq etsə, o zaman, birincisi, Rusiya sülhməramlıları ilə toqquşacaq, ikincisi, sülhməramlılar getsə belə, güc tətbiqi millətin öz müqəddəratını təyinetmə hüququnun boğulması kimi görünəcək. Belə olan halda, guya, Ermənistanın öz soydaşlarını qorumaq üçün münaqişəyə müdaxilə etmək hüququ yaranacaq. Politoloqun fikrincə, indi Paşinyan həm də buna görə Qarabağın Azərbaycan ərazisində yerləşməsi prinsipindən əl çəkməməlidir.

Göründüyü kimi, xəstə təfəkkürlü M.Aleksandrov necə deyərlər, nala-mıxa vurur. O deyir ki, Ermənistan qarışmamalıdır, həm də qarışmaq üçün "əsas" formalaşdırmalıdır. Belədə sual yaranır: Qarabağ Azərbaycan ərazisidirsə və bu, beynəlxalq birlik tərəfindən qəbul edilirsə, o zaman rəsmi Bakı öz ərazisindəki separatçılıq meyilini aradan qaldırmaq üçün niyə mübarizə aparmamalıdır? Kim deyə bilər ki, bu mübarizə ölkəmizin suveren hüququ deyil? Darmadağın olmuş Ermənistanmı, yoxsa Prezident Putinin dili ilə 44 günlük müharibəni Azərbaycanın haqlı mübarizəsi kimi gördüyünü dilə gətirən Rusiya?

***

Sonda onu da bildirək ki, ermənipərəstlər var gücləri ilə Azərbaycanı haqlı davasında haqsız çıxarmağa, ölkəmizin beynəlxalq nüfuzunu zədələməyə girişiblər. Bu istiqamətdə "can qoyanlardan" biri də manipulyativ, qərəzli və təzadlı fikirlərini diqqətə çatdırdığımız rusiyalı politoloq Mixail Aleksandrovdur. Heç şübhəsiz, Rusiyada aleksandrovlar çoxdur. Amma onların say çoxluğu heç bir əhəmiyyət daşımır.

Azərbaycan dövləti öz prinsipial xəttinə sadiqdir və heç bir halda mövqeyindən geri çəkilməyəcəkdir. Ermənistan isə aleksandrovların, conların, kolonnaların və digərlərinin avantürist baxışlarının doğurduğu illüziya girdabında boğulmağa məhkumdur. Nəzərə alaq ki, bu illüziya ölkəni, Ermənistanın qurama dövlətçiliyini tamamilə məhvə sürüklənmək təhlükəsi yaradır və ölkənin havadarlarının, "təəssübkeşlərinin" məqsədləri budursa, buyurub cəfəngiyyatlarını sıralasınlar.

**Ə.CAHANGİROĞLU,**
**XQ**

# Ermənistan hökumətindən növbəti anti-Rusiya addımı

## *İrəvanın bu təxribatı Azərbaycanla əlaqələndirmək cəhdi uğursuz olacaq*

*(əvvəli 1-ci səhifədə)*

Qeyd edək ki, Ermənistan hökuməti bu məsələ ilə bağlı 2022-ci ildə konstitusiya məhkəməsinə müraciət etmişdi. Konstitusiya məhkəməsi cari ilin martın 24-də Beynəlxalq Cinayət Məhkəməsinin 1998-ci il iyulun 17-də imzalanmış Roma statutunda təsbit edilmiş öhdəliklərin konstitusiyaya uyğunluğunu tanıyan qərar qəbul etmişdi. Bu qərarın qəbulu, necə deyərlər, aydın səmada şimşək kimi çaxmışdı. Məsələ onda idi ki, bundan cəmi bir neçə gün əvvəl – martın 17-də Beynəlxalq Cinayət Məhkəməsi Rusiya Prezidenti Vladimir Putinin və Rusiya Prezidenti yanında Uşaq Hüquqları üzrə Müvəkkil Mariya Lvova-Belovanın həbsinə order vermişdi. Yeri gəlmişkən, qeyd edək ki, adları çəkilən şəxslər Rusiya–Ukrayna müharibəsinin gedişi zamanı ukraynalı uşaqların Ukrayna ərazisindən Rusiyaya aparılmasında ittiham olunurdular. "Reuters" agentliyi həmin vaxt qeyd edirdi ki, orderin verilməsindən sonra V.Putin və M.Lvova-Belova Roma statutunu ratifikasiya etmiş 123 ölkənin hansısa birində həbs olunaraq Beynəlxalq Cinayət Məhkəməsinə verilə bilər.

Ermənistan Rusiyanın ən yaxın strateji müttəfiqlərindən biri olduğu üçün konstitusiya məhkəməsinin qərarı böyük müzakirələrə yol açmış və hər iki ölkədə suallar doğurmuşdu. Bundan sonra Nikol Paşinyan hökuməti geri addım ataraq layihəni təsdiq üçün parlamentə göndərməyi təxirə salmışdı.

İndi isə Ermənistan hökuməti yenidən Roma statutunun tanınması məsələsinə qayıdıb. Onlar bunu onunla əsaslandırmağa çalışırlar ki, guya, ratifikasiyanı Azərbaycanı məsuliyyətə cəlb etmək üçün (?) imkan kimi görürlər. Əslində isə qeyd etdiyimiz kimi, burada hayların məqsədi hərbi və siyasi-diplomatik cəbhədə üzləşdikləri uğursuzluğu ört-basdır etməkdir.

Beləliklə, aydın olur ki, bu, Ermənistan hökumətinin növbəti avantürasıdır. N.Paşinyan başda olmaqla, Ermənistan hökuməti onsuz da avantürist, macəraçı şəxslərdən təşkil olunub. Ümumiyyətlə, müstəqillik əldə etdikdən sonra Ermənistanın iqtidar sarıdan bəxti gətirməyib desək, yəqin ki, səhv etmərik. Bu ölkəyə gah talançılar, xalqın, dövlətin vəsaitlərini havaya sovuranlar, gah da Paşinyan kimi macəraçılar rəhbərlik edirlər. Halbuki, 2018-ci ilin mayında Paşinyan iqtidara gəldikdən sonra Ermənistan–Azərbaycan münasibətlərinin sülh yolu ilə nizamlanmasına ümidlər yaranmışdı. Həmin ilin mayında ordumuzun keçirdiyi uğurlu Günnüt əməliyyatı Paşinyana Azərbaycanın öz torpaqlarını işğaldan azad edə biləcəyinin siqnalı olmalı idi. Ancaq Paşinyan başqa yol tutdu. 2019-cu ilin avqustunda Xankəndi şəhərinə növbəti qanunsuz səfəri zamanı mərkəzi meydanda çıxışı zamanı bədnam "Qarabağ Ermənistandır və nöqtə" fikrini söylədi. Bu sözü həmin ilin sentyabrında Qarakilsə (ermənilər Vanadzor deyir-S.H.) şəhərində keçirdiyi mətbuat konfransında da təkrarladı. Bütün bunların nəticəsi göz önündədir: Paşinyanın macəraçılığı, təhriki ilə başlayan İkinci Qarabağ müharibəsi onun biabırçı məğlubiyyəti ilə yekunlaşdı.

***

Burada Ermənistan hökumətinin riyakarlığı da diqqətdən kənarda qalmamalıdır. Başqa sözlə desək, sənədi parlamentə göndərməkdə Paşinyanın digər məqsədi də var. Ehtimal etmək olar ki, Qərbin dəstəyi ilə hakimiyyət kürsüsünə yiyələnmiş Nikol Vovayeviç Azərbaycanın adını hallandırmaqla növbəti anti-Rusiya addımını pərdələyir. Yəni, Qərbpərəstlərdən təşkil olunmuş Ermənistan hökuməti Rusiyanın qəzəbinə tuş gələ biləcəyini təxmin etdiyi üçün bu məsələdə Azərbaycanın adını hallandırır.

Ancaq Rusiyada da Ermənistanda kimlərin hakimiyyətə yiyələndiyini, ümumiyyətlə hayların xislətini yaxşı bilirlər. Moskva Ermənistanın dəfələrlə anti-Rusiya addımları atdığını unutmayıb. Son vaxtlar Moskvadan İrəvanın ünvanına xoş olmayan sözlərin deyilməsi bundan xəbər verir. Elə bugünlərdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya




Zaxarova bildirib ki, Laçın yolundakı vəziyyət Ermənistan baş nazirinin Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasının nəticəsidir. Xanım Zaxarova mətbuat konfransında ona ünvanlanan suala cavab olaraq deyib: "Bu, Avropa İttifaqının təşəbbüsü ilə iki ölkə liderinin 2022-ci ilin oktyabrında və 2023-cü ilin mayında keçirilən sammitdə qeydə alınıb. Məsələ Rusiya Xarici İşlər Nazirliyinin iyulun 15-də Qarabağ ətrafında yaranmış vəziyyətlə bağlı bəyanatında açıq şəkildə qeyd olunub. Bu kontekstdə hesab edirəm ki, məsuliyyətin Rusiya sülhməramlı kontingentinin üzərinə qoyulması yersizdir, düzgün deyil və əsassızdır". Ermənistan XİN-in mətbuat katibi Ani Badalyan isə M.Zaxarovaya uydurma ilə məşğul olmamağı və bununla da vəziyyəti daha da mürəkkəbləşdirməməyi tövsiyə etdi.

Hətta, bugünlərdə qatı ermənipərəst "Regnum" agentliyinin direktoru Modest Kolerov da Paşinyanın addımlarını tənqid edib. Qeyd edib ki, Ermənistanın mövqeyi nəticəsində nəinki rus sülhməramlıları bölgədə qalmayacaq, hətta Gümrüdəki 102 saylı Rusiya hərbi bazasının varlığı problemə çevriləcək. Eyni zamanda, o qeyd edib ki, Rusiya Federal Təhlükəsizlik Xidmətinin Ermənistanın sərhədlərini qoruması sual altına düşəcək. Onun sözlərindən belə çıxdı ki, Rusiya hərbçiləri ümumiyyətlə, Ermənistanı tərk edə bilər. Görünür, bu addımların baş tutması üçün Qərb İrəvandan Roma statutunu parlamentdə təsdiqləməyi tələb edir. Bununla da Rusiya dövlət başçısı Ermənistana gəlib-gedə bilməyəcək.

***

Qırx dörd günlük Vətən müharibəsindən ötən 3 ilə yaxın dövr ərzində baş verən istər hərbi toqquşmalar, istərsə də Ermənistanın müxtəlif beynəlxalq təşkilatlardakı təxribatçı addımları onun üçün yeni məğlubiyyət aktı demək olub. Hətta, Ermənistanın ən yaxın müttəfiqi, BMT Təhlükəsizlik Şurasının üzvü Fransanın belə ölkəmiz əleyhinə bütün təşəbbüsləri uğursuz olub. Bu baxımdan Roma statutunun ratifikasiyası ilə bağlı Ermənistan hökumətinin təşəbbüsünün də səmərəsiz olacağını güman etmək mümkündür.

Bundan əlavə, İrəvanın Roma statutunun ratifikasiyasını Azərbaycanın məsuliyyətə cəlb edilməsi ilə əlaqələndirməsi absurddur. Ona görə ki, ölkəmiz Roma statutunu imzalamayıb və bununla da Beynəlxalq Cinayət Məhkəməsinə qoşulmayıb. Yəni, bu hüquqi proseslərdə heç bir iştirakı yoxdur. Ümumiyyətlə, istər Ermənistanın, istərsə də hansısa üçüncü ölkənin Azərbaycanın iştirak etmədiyi, qoşulmadığı sənədlə bağlı onu ittiham etməyə çalışması mümkün deyil. Ölkəmiz yalnız soyqırımı, insanlıq əleyhinə, müharibə və işğal cinayəti haqqında hüquqi məsuliyyəti öz milli qanunvericiliyinə daxil edib və Roma statutunun müsbət təcrübəsindən yararlanır. Bu mənada Ermənistan hakimiyyəti Azərbaycanı "məsuliyyətə" cəlb etməklə bağlı nə qədər istəyirsə, yalan danışa bilər. Ancaq onun yalanlarına yalnız daxili auditoriyada müəyyən qrup insanların inanması mümkündür.

**Səxavət HƏMİD,**
**XQ**

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**siyasi şərhçi**

– Ermənistan hökuməti Roma statutunu ratifikasiya etmək məsələsini mart ayından indiyədək uzadır. Həmin vaxtdan Paşinyan Qərbdən aldığı təlimat üzrə Rusiyadan qırılmaq cəhdlərini sistemli plana çevirdi. Demək olar ki, artıq ortada konkret plan var. Həmin dövrdə istər Paşinyanın, istərsə də onun hökumətinin yüksək vəzifəli şəxslərinin çıxışlarında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının ümidləri doğrultmaması, ona etimadsızlıq göstərilməsi ilə bağlı fikirlər səsləndirilirdi. Ermənistanda Roma statutu ilə müzakirələr də məhz həmin dövrdə başlandı. Yəqin ki, Ermənistanın Rusiyadan tam qırılması anı yetişib. Görünür, İrəvan öz seçimini edib. Baş verənləri belə dəyərləndirmək olar.

Son günlərdə Paşinyanın və onun yaxın ətrafının çıxışlarından bəlli olur ki, Ermənistan anti-Rusiya addımında qətiyyətlidir. Nəticə etibarilə həm Rusiyanın, həm Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Ermənistanda rolu get-gedə azalacaq. Eyni zamanda, biz buna cavab olaraq Rusiya rəsmilərinin də İrəvanın ünvanına yönələn müxtəlif açıqlamalarının şahidiyik.

# Heydər Əliyev dərsləri



(əvvəli XQ-nin ötən saylarında)

## "İslahatınızın qurum genel başqanı erməni olmuşdur"

***İhsan Doğramacının abidəsinin açılışı mərasimində çıxış edən ulu öndər türk ləhcələrinin müfəssəl təhlilini vermiş, eyni zamanda, vaxtilə Türkiyədə dil islahatı aparılarkən yol verilmiş bir qüsuru diqqətə çatdırmışdı:***

– İhsan Doğramacının çox böyük xüsusiyyətləri var. Məsələn, Azərbaycanda ləhcələr var – Bakı ləhcəsi, Naxçıvan ləhcəsi, Gəncə ləhcəsi, başqa yerin ləhcəsi! Bu ləhcələrin hamısını bilir. Bizim adamların çoxu bunu bilmir. Mən sizə deyim, mən dilçi deyiləm, linqvist deyiləm. Ancaq mən də hər halda, bilgili adamam. Amma bunları mən də onun qədər bilmirəm. Bizim dilimiz birdir. Axı, türk dili, Azərbaycan dili – eyni dildir. Yaqin ki, siz məni tam anlayırsınız. Elədirmi? Azərbaycanda biz keçmişdə türk dilini çox sevdiyimizə görə, amma türklərə bir təmasımız, yəni danışığımız olmadığına görə, insanlar hansısa bir türklə görüşəndə onunla bir neçə kəlmə türk dilində danışmaq istəyirlər. Məsələn, biz "gəlirəm" deyirik, türklər isə "gəliyorum", "gediyorum" deyirlər. Biz Türkiyə ilə yenidən tanış olanda mən də bir-iki belə kəlmə işlətdim ki, hiss etsinlər, mən türk dilini də bilirəm.

O mənə dedi ki, belə deyil, bunu Naxçıvanda bu cür deyirlər, Bakıda belə deyirlər, Gəncədə belə deyirlər. Anadolu Türkiyəsində belə deyirlər, Türkiyənin doğusunda belə deyirlər, batıda – İstanbulda belə deyirlər. Dedim bəli, doğudakı dil çox aydındır, amma İstanbuldakı ləhcəni siz bir az korlamısınız, o qədər yaxşı deyil. Mən bir dəfə söhbət edirdim. Dedim ki, məsələn, biz, mənim kimi yaşlı adamlar İhsan Doğramacı ilə, başqa yaşlı adamlarla danışanda bir-birimizi yüz faiz başa düşürük. Türk dilində, Azərbaycan dilində bu sözlər dəyişilməyibdir. Amma türk dilində bir-iki islahatlar keçirilibdir, ona görə də bəzi sözlər dəyişilibdir, daha çox Avropa sözləri götürülübdür. Məsələn, "siyasət" sözü var, onu "politika" etmisiniz. "Siyasət" yaxşı bir sözdür. Nə fərqi var, "siyasət" ərəb sözüdür, "politika" Avropa sözüdür. Bu, öz işimizdir. Amma bir dəfə zarafat edəndə dedim ki, bilirsənmi nə üçün belə olubdur? Dedi ki, nə üçün? Dedim, çünki sizdə dil islahatı keçirilləndə islahatınızın qurum genel başqanı erməni olmuşdur – Akop Dilaçar. Onu tanıyırsınızmı? Görürəm tanımırsınız. Amma o tanıyır. Erməni Akop, özünü türk kimi qələmə vermək üçün də deyibdir ki, Akop Dilaçar. O, islahat keçiribdir.

## "Molla Nəsrəddin" jurnalına çox möhtacıq"

***Ümummilli lider Cəlil Məmmədquluzadəni görkəmli yazıçı, onun "Ölülər" əsərini isə dünya ədəbiyyatının nadir incisi hesab edirdi. Ulu öndər böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr edilmiş yubiley gecəsindəki çıxışında demişdir:***

– "Molla Nəsrəddin" jurnalını yaradan Cəlil Məmmədquluzadə oldu. Əvvəl Tiflisdə, sonra Təbrizdə, daha sonra Bakıda nəşr edilən bu jurnal, təəssüflər olsun ki, Mirzə Cəlil dünyasını dəyişəndən sonra öz fəaliyyətini dayandırdı. Doğrudur, sonrakı dövrlərdə və xüsusən 50-ci illərdə Azərbaycanda "Molla Nəsrəddin" məktəbini davam etdirməyə çalışdıq. Ancaq bu gün etiraf etməliyəm ki, buna nail ola bilmədik. "Kirpi" jurnalı onun davamçısı olmalı idi. Bu gün "Kirpi" jurnalının həyatımızda oynadığı rola lazımi qiymət verərək, eyni zamanda, qeyd etmək istəyirəm ki, o heç də "Molla Nəsrəddin" jurnalının səviyyəsinə çata bilmədi, onun tam davamçısı ola bilmədi, cəmiyyətimizdə onun yerini tuta bilmədi. Ancaq buna o illərdə də ehtiyac çox idi, bu gün də ehtiyac çoxdur və bugünkü şəraitimizdə biz yenə də "Molla Nəsrəddin" jurnalına çox möhtacıq.

"Ölülər" əsəri haqqında. Mən tam cəsarətlə deyə bilərəm ki, dünya ədəbiyyatında buna bərabər, buna bənzər ikinci əsər tapmaq mümkün deyildir. Bu əsər Cəlil Məmmədquluzadənin həm nə qədər böyük filosof, psixoloq olduğunu göstərir, həm də onun yalnız özünəməxsus yaradıcılığını, özünəməxsus fitri istedadını əks etdirir. "Ölülər" əsəri ölməz əsərdir. O, yazıldığı vaxtda da lazım idi, o, bizə bu gün də lazımdır.

"Ölülər" əsərindən uzun müddət din əleyhinə təbliğatda istifadə edilib və çox hallarda o, din əleyhinə yazılan bir əsər kimi qəbul olunubdur. Təəssüf ki, o dövrdə bəlkə bu belə idi. Çünki bizim həyatımızda ateist tərbiyəsi hökm sürürdü, din inkar olunurdu və bu əsər bəlkə də bu baxımdan, həmin istiqamətdə xidmət göstərirdi. Ancaq Mirzə Cəlil bu əsəri yaradarkən heç də dinə müxalif çıxmayıbdır, əksinə, bu əsərlə İslam dininin xalqımız üçün nə qədər böyük mənəvi dəyər olduğunu sübut etməyə çalışıbdır. Eyni zamanda, o, dini təhrif edənləri, dindən istifadə edib fırıldaqçılıqla məşğul olanları ifşa edib, tənqid atəşinə tutubdur. Biz indi öz dinimizə qayıtmışıq. Din mənəvi mənbələrimizdən biridir. İslam dininin, Quranı-Kərimin Azərbaycan xalqı üçün açdığı yol davam edəcək və biz get-gedə dinimizin hər yerdə özünə layiq yer tutmasına imkan yaradacağıq. Ancaq biz Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindən bu gün də bəhrələnməliyik. Çünki bu gün də dini təhrif edənlər, dindən öz məqsədləri üçün istifadə edənlər, dindən istifadə edərək xalqımızı cəhalətə uğratmağa çalışanlar az deyil. Mirzə Cəlil isə bələləri ilə o vaxt mübarizə aparıbdır və "Ölülər" əsəri ilə bizə bu vəsiyyəti edibdir. Biz də onun vəsiyyətini yerinə yetirməliyik.

## "Məsələnin dərinliyinə getdim"

***Mehdi Hüseynzadənin bəraət alaraq Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsində Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur. İllər keçdikdən sonra bu xidmətin nədən ibarət olduğunu, o, belə xatırlamışdı:***

– Mehdi Hüseynzadənin "kəşf olunmasında" mənim şəxsi xidmətim var. O vaxt mən DTK-da işləyirdim, 50-ci illərin əvvəlləri idi. Müharibə vaxtı kimin faşistlərə xidmət etməsi, kimin onlara satılması, kimin qəhrəman olması məsələləri ilə çox məşğul idik. Düzünü deyim, ümumiyyətlə, o zaman bizim sistemin istiqaməti də bundan ibarət idi ki, düşmənlərimizə kimin kömək etdiyini axtarıb tapaq. Bu işlər gedirdi. Bunlarla məşğul olarkən təsadüfən Mehdi Hüseynzadə haqqında materiallara rast gəldim. Öncə onu belə təqdim etdilər ki, başqaları kimi əsir düşübdür, faşistlərə xidmət edibdir.

İlkin məlumatlardan Mehdi Hüseynzadə haqqında belə bir təsəvvür yarandı və bu cür materiallar da hazırlandı. Ancaq xoşbəxtlik orasındadır ki, biz bunun dərinliyinə getdik. Ola bilər, bunu ilk dəfədir deyirəm, şəxsən mən özüm məsələnin dərinliyinə getdim. Baxdıq gördük ki, doğrudan da, o, əsir düşübdür, faşistlərin yanında xidmət edibdir. Ancaq bunun xidməti nədən ibarətdir? Bu materialları qaldırdıq. Xatirimdədir, təxminən 1956–1957-ci illər idi, bunları qəbul etmək istəmirdilər. Yenə deyirəm, istiqamət ondan ibarət idi ki, düşmənləri tapaq – kim gedib legionda qulluq edib, kim faşistlərə qulluq edib. Orada kim qəhrəmanlıq göstərib – onları axtaran yox idi. Özü də düşmən arxasındakı qəhrəmanlar sonradan meydana çıxdı. Həmin o "Baharın on yeddi anı" və başqa filmlər nə vaxt çəkildi? Amma "Uzaq sahillərdə"ni biz nə vaxt çəkdik? Görürsünüz, o vaxt biz bu materialları qaldırdıq, verdik.

Olan olub, keçən keçib, bu materiallar meydana çıxanda bizim özümüzdə fikir doğdu ki, bu barədə bir oçerk yaradaq. Materialları iki-üç işçimizə verdik ki, onlar yazsınlar. Onlar bunu yazmağa başladılar, ancaq peşəkar deyildilər və bir şey alınmadı. Ona görə müraciət elədik Kommunist Partiyasının Mərkəzi Komitəsinə, Mehdi Hüseynzadə haqqında böyük bir material verdik. Müraciət etdik ki, bizə kömək etsinlər, bunu bir əsər kimi yaradaq. Mehdi Hüseynzadənin Sovet İttifaqı Qəhrəmanı adı alması da uzun çəkdi. Bunu etmək istəmirdilər, Moskvada buna inanmırdılar.

Biz bu barədə çox əziyyət çəkdik. O vaxt mən DTK-da işləyirdim. Bu materialı sonra komsomola təqdim etdik. Rəhmətlik İmran Qasımov və Həsən Seyidbəyli bu sahədə işləyən gənc adamlar idilər və materialı tez götürdülər. Biz də onlara kömək etdik, nə vardı – hamısını verdik. Onlar bunu yazdılar, sonra da film çəkildi. Tarixdən sizə bir balaca məlumat verdim. Film çəkiləndən sonra böyük çətinliklə Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Bu ad veriləndən sonra da axırı mənə qismət oldu ki, Mehdi Hüseynzadənin xatirəsinə böyük abidə yaratdıq.

## Hansı dövrdə hansı şair yaşadığı dövrü tərənnüm etməyibdir?

***Uzun zaman cəmiyyətdə Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm və digər şairlərə təzadlı münasibət göstərilmişdi. Heydər Əliyev isə onların şəxsiyyətinə və yaradıcılığına ədalətli və obyektiv qiymət vermişdir. Ulu öndər çıxışlarının birində bu barədə demişdir:***

– Bilirsiniz, mən bunu keçmişdə də demişəm, bu gün də təkrar etməyim yerinə düşərdi: Hansı dövrdə hansı şair padşahları vəsf etməyibdir? Hansı dövrdə hansı şair, hansı yazıçı yaşadığı dövrü tərənnüm etməyibdir? Bələlərini tapmaq mümkün deyil. Əgər bəziləri varsa, onları bayraq edib, bütün qalanlarına qara yaxılması düzgün deyildir. Bəli, xüsusən 1920-1930-cu illər ağır repressiya illəri olubdur. Xalqımız çox itkilər veribdir. Biz bu repressiya illərini ürək ağrısı ilə xatırlayırıq, itirmişik, ancaq şükür etməliyik ki, qalanlar, bu xatadan qurtaranlar, repressiyalardan xilas olanlar bizim həyatımızı, mədəniyyətimizi, ədəbiyyatımızı, təhsilimizi, həyatımızın başqa sahələrini yaradıblar.

Bəli, biz Hüseyn Cavidin, Mikayıl Müşfiqin və bizim başqa görkəmli şəxslərin repressiya qurbanları olması haqqında on illərdir ki, böyük ürək ağrısı ilə danışırıq. Onlar əlimizdən getdi. Əgər hamısı getsəydi, onda bizim bu ədəbiyyatımızı, elmimizi, mədəniyyətimizi kim yaradacaqdı? İndi kimsə hesab edir ki, o vaxtlar gərək Səməd Vurğunu da həbs edib öldürəydilər, Rəsul Rzanı, Süleyman Rüstəmi də öldürəydilər. Onda deyərdilər ki, bunlar qəhrəman idi və biz oturub onları da on illərlə ağlayacaqdıq. Yenə də deyirəm, biz Allaha şükür etməliyik ki, belə insanlar o ağır dövrdə o xatalardan qurtara bildilər. Əgər 30-cu illərdə o itirdiklərimizlə yanaşı, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm və bizim o nəsildən olan görkəmli başqa şairlərimiz olmasaydı, onlar yazıb-yaratmasaydılar, o əsərlərimiz olmasaydı, indi bizim o dövr tariximizin ədəbiyyatı, mənəviyyatı, mədəniyyətimiz nədən ibarət olardı? Mən bizim ədəbiyyatımızı Səməd Vurğunsuz da, Rəsul Rzasız da, Süleyman Rüstəmsiz də təsəvvür edə bilmirəm.

***Təqdim etdi:***
***Faiq SADIQOV,***
***Əməkdar jurnalist***

# Ümummilli liderin uşaqlara sonsuz məhəbbəti



**Naxçıvanda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində uşaqlar üçün "Zəfər düşərgəsi" təşkil edilib. Ağbulaq İstirahət Mərkəzində keçirilən iki günlük toplantıda 40-dək şəhid övladı iştirak edib.**

Düşərgədə iştirakçılarla görüşən Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Nicat Babayev balacalara ulu öndər Heydər Əliyevin uşaqların müstəqil ölkənin gələcək qurucuları kimi böyüməsi ilə bağlı gördüyü çoxsaylı tədbirlər barədə ətraflı məlumat verib. O qeyd edib ki, yeni nəslə sonsuz sevgi bəsləyən böyük rəhbər onların sağlam, savadlı, tərbiyəli və qayğısız böyüməsi üçün tələb olunan şəraitin çağdaş əsaslarını yaradıb.

Bildirilib ki, müharibədən zərər çəkmiş insanlara, xüsusən də şəhid ailələrinə, qazilərə hərtərəfli qayğı göstərilməsi ölkəmizdə ulu öndərin müəyyən etdiyi sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu sahədə muxtar respublikada sistemli və ardıcıl tədbirlər həyata keçirilir. İndiki düşərgə də bunlardan biridir. Naxçıvan Muxtar Respublikasında Azərbaycan ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralananlara və şəhid olanların ailələrinə "Dəstək" Fondu və onun Himayəçilik Şurası da davamlı diqqət və qayğı göstərir.

Düşərgədə uşaqlarla psixoloji seans aparılıb, onlarda şən əhval yaradılıb. Müxtəlif əyləncəli oyunlar, idman yarışı, "İstedadını göstər" adlı yaradıcılıq müsabiqəsi təşkil edilib. Uşaqlara yeni dərs ili ərəfəsində məktəb ləvazimatları hədiyyə edilib.

***Səbuhi HƏSƏNOV,***
***XQ***

**Naxçıvan**

# Tiranada Ulu öndərin 100 illiyinə həsr olunmuş sərgi

**Azərbaycan həftəsi çərçivəsində Tirananın Milli Tarix Muzeyində Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş sərgi açılıb. Sərgi ümummilli liderin həyat və irsini, Azərbaycan mədəniyyətini tərəqqiyə doğru aparan yolu ifadə edib.**



Tiranaın Milli Tarix Muzeyində "Tərəqqinin memarı" adlı sərgi, eyni zamanda, Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından görkəmli rəssamlar Maral Rəhmanzadə, Tofiq Cavadov, Böyükağa Mirzəzadə, Nadir Əbdürrəhmanov, Mikayıl Abdullayev və Hüseyn Əliyevin əsərləri, Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından Kamil Əliyevin müəllifi olduğu xalçalar və digər arxiv fotoşəkillər nümayiş olunub.

Azərbaycanın mədəniyyət nazirinin müavini Fərid Cəfərov qeyd edib ki, iki ölkə arasında bir çox sahələrdə əlaqələr uğurla inkişaf edir və Albaniyada Azərbaycan mədəniyyət həftəsinin keçirilməsi qarşılıqlı mədəni münasibətlərin əlamətdar hadisədir.

***XQ***

# Laçın yolu suverenlik tələbləri müstəvisində

*Bu dəhlizə nəzarət ölkəmizin qanunları əsasında gerçəkləşir*

(əvvəli 1-ci səhifədə)

Onu da vurğulayaq ki, 44 günlük Vətən müharibəsində acı məğlubiyyəti Ermənistana dərs olmadı. Savaşdan iki il yarım keçsə də, işğalçı təxribatlarından yenə də əl çəkmir, Laçın yolu ilə Qarabağa silah-sursat daşınmasını, burada işğalçı hərbi kontingentin qalıqlarının gücləndirilməsinə cəhd göstərməsini, eyni zamanda, bu bölgəmizdəki təbii sərvətlərin talanaraq Laçın yolu ilə Ermənistana daşınmasını davam etdirir.

Əlbəttə, bütün bu quldurluq, qaçaqmalçılıq bu gün də gizli, xəlvəti yollarla həyata keçirilir. Azərbaycan bununla bağlı işğalçı dövlətə dəfələrlə xəbərdarlıq edib, təxribatların, ara yollarla Qarabağa silah-sursat və hərbi texnika daşınmasının ona heç bir fayda gətirməyəcəyini bildirib. Lakin qəsbkar dövlət xislətindən əl çəkmir, Xankəndi–Xəlfəli–Turşsu və Xankəndi–Kosalar–Mirzələr–Turşsu yolları ilə gizli daşımaları həyata keçirir, qeyri–qanuni erməni silahlı dəstələrinin döyüş mövqelərinin təminat və təchizatını getdikcə intensivləşdirir.

Azərbaycan Ermənistanın bu çirkin məqsədlərini məhdudlaşdırmaq üçün, nəhayət, yeni bir qətiyyətli addım atdı, bu il aprelin 23-də Laçın–Xankəndi yolunun başlanğıcında, Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratdı. Dövlətimiz belə bir əhəmiyyətli infrastruktur yaratmaqla, eyni zamanda, ölkəmizin ərazi bütövlüyünü tam gerçəkləşdirdiyini bütün dünyaya nümayiş etdirdi. Müstəqil dövlətin belə bir addımı isə işğalçı ölkəni heç cür qane edə bilməzdi. Ona görə də sərhəddə nəzarət-buraxılış məntəqəsinin fəaliyyətə başladığı ilk günlərdən bəzi dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən işğal dövründə olduğu kimi, yenə də ədalətsizlik, tərəfkeşlik nümayiş etdirildi.

Həmin dövlətlər sırasında Fransa canfəşanlığı ilə xüsusilə fərqlənir, Azərbaycana qarşı çirkin kampaniyaların təşkilində, təzyiqlər göstərilməsində daha çox diqqət çəkir.

Lakin Ermənistana havadarlıq edən Fransa və digərləri unudurlar ki, heç bir təzyiq, heç bir kampaniya Azərbaycanı, onun Prezidentini qətiyyətli mövqeyindən geri döndərə bilməz. Azərbaycan öz haqqını indiyədək olduğu kimi, bundan sonra da davam etdirəcək, BMT-nin üzvü olaraq öz sərhədlərini beynəlxalq qanun–qaydalar çərçivəsində quracaq. Ölkəmiz öz suveren və qəbul edilən ərazisində beynəlxalq qanunları qətiyyətlə tətbiq edəcək.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) tərəfindən Qarabağda yaşayan erməni əsilli sakinlər üçün avqustun 29-da göndərilən 40 ton unun qəbul edilməməsi də, əslində, Qarabağdakı qondarma separatçı rejimin əsl niyyətini üzə çıxardı. Bu, bir daha Qarabağda yaşayan ermənilərin "humanitar fəlakətlə" üzləşmələri haqda mifin uydurma olduğunu təsdiqlədi.

Ermənilərin məqsəd-niyyəti aydındır: Bir tərəfdən Laçın yolu ilə Qarabağa silah-sursat daşımaqla burada işğalçı hərbi kontingentin qalıqlarını gücləndirmək, digər tərəfdən isə bu bölgəmizdəki təbii sərvətləri talayaraq Ermənistana daşımaq, böyük məbləğdə sərvət toplamaqdır.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında vurğuladığı kimi, Ermənistan 30 il ərzində işğal və təcavüz faktının tərkib hissəsi olaraq, respublikamızın gömrük rejimini pozaraq və özü idxal prosesini həyata keçirərək, məhsullara gömrük rüsumları tətbiq edərək, bu yolla böyük həcmdə maliyyə qazanıb. Bununla da Azərbaycan büdcəsinə ciddi şəkildə zərər vurub. Bu məhsulların Azərbaycan ərazisinə idxalı nəticəsində əldə olunan qazancın qiymətləndirilməsi və ölkəmizə təzminat kimi ödənilməsi, başqa sözlə, məsələnin hüquqi müstəvidə həll edilməsi nəzərdə tutulub.

Bəli, Laçın yolundan 30 illik qanunsuz istifadə və bu vasitə ilə gəlir əldəetmə dövrü sona çatıb. Bu yolun səmərəli fəaliyyətində Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi faktoru çox vacibdir. Yol açılacağı təqdirdə onun istismarı Azərbaycanın sərhəd təhlükəsizliyi və sərhəd nəzarəti, eləcə də, gömrük rejimi qaydalarına uyğun həyata keçirilməlidir. Azərbaycanın digər gömrük-keçid infrastrukturlarında olduğu kimi, Laçın gömrük-keçid məntəqəsində də eyni qaydalar tətbiq olunmalıdır və olunacaq da.

Prezidentinin köməkçisinin bildirdiyi kimi, bütün gömrük sənədləşməsi Azərbaycan qanunvericiliyinə uyğun hazırlanmalıdır: "Bu, nə deməkdir? Məsələn, sənədlərdə ermənilərin 30 illik işğal dövründə Azərbaycanın torpaqlarını adlandırdıqları qondarma adlar yazılacaqsa, həmin mallar sənədlərdə müvafiq düzəlişlər edilməyənədək buraxılmamalıdır. Yəni Ermənistan və ona dəstək verən havadarları ilk öncə Azərbaycan ərazilərinin əsl adlarını əzbərləməlidirlər Yaşayış məntəqələrinin adları Azərbaycan qanunvericiliyinə uyğun yazılmalıdır.

Başqa bir məqam göndərilən malları hansı hüquqi şəxsin qəbul edəcəyidir. Həmin şəxslərin Azərbaycan Respublikasının Dövlət Vergi Xidməti reyestrində müvafiq nömrəsi mövcuddurmu? Bu və ya digər ortaya çıxan suallar cavablandırılmalıdır. Əks təqdirdə, gömrük nəzarəti həyata keçirilməyəcək və bunun nəticəsi olaraq Laçın yolu Ermənistandan gələn kommersiya yükləri üçün bağlı olaraq qalacaq".

Bunların həll edilməsi üçün isə, ilk növbədə, Azərbaycan mərkəzi hakimiyyəti və Qarabağın erməni sakinləri arasında dialoq başlanmalıdır. Reinteqrasiya prosesində irəliləyiş olmalı, Ağdam–Xankəndi yolu istifadəyə verilmədir. Sözügedən danışıqlar nəticəsində Laçın yolunun kommersiya məqsədləri üçün istifadəsi üzrə yol xəritəsinin hazırlanması da məqsədəuyğundur.

Bir sözlə, istənilən yükün daşınması üçün Laçın yolundan istifadə yalnız Qarabağın erməni əhalisinin nümayəndələri ilə birbaşa dialoqa başlandıqdan və bir sıra texniki tədbirlər görüldükdən sonra mümkündür. Bu səbəbdən ermənilər tərəfindən reinteqrasiya və dialoqa mane olan "humanitar böhran" oyunu başa çatdırılmalıdır.

**V.BİNYATOĞLU,**
**XQ**

### Ekspert rəyi

**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**



Ermənistan uzun illər idi ki, İrəvan–Laçın marşrutundan öz çirkin hərbi-siyasi niyyətləri üçün istifadə edirdi. Nəhayət, respublikamız qəsbkarın qanunsuz əməllərinə qarşı haqlı olaraq daha ciddi tədbirlər görməyə məcbur oldu, qətiyyətli addım ataraq, peşəkarlıqla həyata keçirilən əməliyyat nəticəsində aprelin 23-də Laçın–Xankəndi yolunun başlanğıcında, Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratdı.

Beləliklə, dövlət təhlükəsizliyinin pozulmasına yönələn təhdidlərə qarşı suveren ərazimizdə sərhəd-buraxılış məntəqəsinin yaradılması beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olmasına baxmayaraq, Ermənistan, separatçı rejim, işğalçıları himayə edən dairələr, guya, rəsmi Bakının Qarabağda yaşayan erməniləri "humanitar böhran" vəziyyətinə salması ilə bağlı əsassız hay-küy salmağa, beynəlxalq təşkilatlara müraciət etməyə başladılar. Bu məsələdə Ermənistanın ən böyük himayədarı Fransa siyasi təxribatlardan bu gün də əl çəkmir, sülh və normallaşma prosesinə maneələr yaradır.

Bu, göstərir ki, Ermənistan, Xankəndidə olan cinayətkar rejim, o cümlədən, onların havadarları Azərbaycanın Qarabağ bölgəsinin ölkəmizin əsas hissəsinə inteqrasiyasında, Ağdam–Xankəndi yolunun açılmasında maraqlı deyillər.

Digər tərəfdən, sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması sülh danışıqlarında əsas istiqamət olan ölkələrin ərazi bütövlüyü və suverenliyi prinsipinə uyğundur. Qarabağ Azərbaycanın ayrılmaz hissəsi və iqtisadi rayonlarından biridir. Bu baxımdan, Azərbaycanın bu ərazisi ilə Ermənistan arasındakı əlaqələr suverenlik prinsiplərinə uyğun olaraq əmtəə və insanların hərəkətinin nəzarət-buraxılış məntəqələrində qeydiyyatı ilə reallaşmalıdır.

Qeyd etmək lazımdır ki, Ermənistan Azərbaycanın gömrük rüsumundan yayınaraq 30 illik işğal dövründə qanunsuz yükdaşımalarla milyardlarla dollar həcmində Azərbaycan iqtisadiyyatına ziyan vurub. Bu baxımdan, hazırda Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan bölgədə Azərbaycan Dövlət Gömrük Komitəsinin gömrük postlarının qurulması labüddür. Beynəlxalq hüquq da Azərbaycanın bütün suveren ərazisində gömrük nəzarətinin təşkilini dəstəkləyir.

Baş verən hadisə bir daha göstərdi ki, sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması birbaşa bölgədə sülh və stabilliyin əldə edilməsi baxımından vacibdir. Dayanıqlı sülh yalnız qarşılıqlı olaraq ölkələrin ərazi bütövlüyü və suverenliyinin tanınması halında mümkündür.

**Ermənistanın baş naziri Nikol Paşinyanın sentyabrın 2-də Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddialarını növbəti dəfə sübut edən və Azərbaycanın Qarabağ bölgəsində separatçılığın təşviq olunmasına xidmət edən bəyanatını qətiyyətlə pisləyir və rədd edirik.**

# Azərbaycan XİN: Ermənistanın destruktiv davranışı səfalətə aparır

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Nikol Paşinyanın sözügedən bəyanatına dair şərhində bildirilib.

Qeyd olunub ki, Ermənistanın baş nazirinin bu açıqlaması bir müddət əvvəl səsləndirdiyi Qarabağ bölgəsi daxil, Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi barədə bəyanatı ilə ziddiyyət təşkil edir və hazırda aparılan sülh prosesinə ciddi zərbə vurur.

Azərbaycanın tarixi və beynəlxalq hüquqi çərçivədə mövcud olan ərazilərinə qarşı əsassız iddialarından, tarixin saxtalaşdırılmasından əl çəkməyən, beynəlxalq hüququn prinsiplərini kobudcasına pozan, yürütdüyü təcavüz siyasəti səbəbindən düşdüyü acınacaqlı vəziyyətdən nəticə çıxarmayan bir ölkənin heç bir çərçivəyə sığmayan bu davranışının qarşısı alınmalıdır.

Məlumdur ki, Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağın birtərəfli qaydada ayrılması kimi qələmə verilən avantüra sovet qanunlarına zidd idi və bu, hələ o zaman ali konstitusiya səviyyəsində təsdiqlənmişdi. Öz müqəddəratını müəyyən etmək hüququna istinad edən Ermənistan rəsmiləri, 1991-ci il dekabrın 10-da Qarabağda separatçıların keçirdiyi saxta "müstəqillik referendumunun" muxtar vilayətin hüquqi baxımdan tərkib hissəsini təşkil etdiyi Azərbaycanın razılığı olmadan və bu bölgənin azərbaycanlı əhalisinin iştirakı olmadan keçirildiyi hər kəsə məlumdur.

"Dağlıq Qarabağ"ın "müstəqilliyi"nin əldə edilməsi ilə bağlı Ermənistanın iddialarının beynəlxalq hüquqda qəbul edilmiş "uti possidetis" prinsipinə də zidd olduğu bəllidir və bu səbəbdən beynəlxalq hüquq çərçivəsində tamamilə əsassızdır.

"Azərbaycanın Qarabağ bölgəsinin Ermənistan silahlı qüvvələri tərəfindən 30 ilə yaxın hərbi işğal altında saxlanıldığı, bir milyonadək azərbaycanlının fundamental hüquqlarının pozulduğu, azərbaycanlılara qarşı soyqırımı və kütləvi qırğınlar həyata keçirildiyi faktları üzərindən Ermənistan tərəfinin susqunluqla keçməsi bu ölkənin tarixdən dərs çıxarmadığını göstərir.

Bu və digər faktlar, Ermənistanın əsassız və destruktiv mövqeyi, beynəlxalq təşkilatların qərarları uzun illər ərzində dəfələrlə Ermənistanın təcavüzkar siyasətini təsdiqləyib. Azərbaycan onilliklər ərzində münaqişəni danışıqlar yolu ilə həll etmək üçün strateji səbir nümayiş etdirsə də, Ermənistan Azərbaycanın münaqişəni sülh yolu ilə həll etmək üçün göstərdiyi xoş niyyətə daim qarşı çıxıb.

Təcavüz siyasətindən əl çəkməyən Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq başlanılan 44 günlük Vətən müharibəsi nəticəsində beynəlxalq ədaləti və Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bölgədə yaranmış yeni reallıqlar fonunda Ermənistanın sərgilədiyi destruktiv davranışın nəinki heç bir perspektivi yoxdur, əksinə bu mövqe Ermənistanı səfalətə sürükləyir. Azərbaycan ərazilərinə qarşı hər hansı iddialarla çıxış etmək və ərazilərimizdə aqressiv separatçı meyilləri qızışdırmaq cəhdlərinin qarşısı tərəfimizdən qətiyyətlə alınacaq və lazımi şəkildə cavablandırılacaq", – deyə XİN-in şərhində vurğulanıb.

**XQ**

# Saxlanılan ermənilər öz əməllərindən peşman olublar

**Azərbaycanda saxlanılan üç erməni gələcəkdə müxtəlif iddialar səsləndirə bilər. Bunun qarşısının alınması məqsədilə dərhal onlarla görüşdük. Onlar da Azərbaycan Hökumətinə təşəkkürlərini bildirdilər və təbii ki, öz əməllərindən peşman olduqlarını ifadə etdilər.**

Bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva söyləyib.

"Dediklərinə əsasən, bu əməli törətməkdə onları, necə deyərlər, böyükləri məcbur edib. Bu cür addımı atacaqlarından əvvəlcədən xəbərləri olmayıb", – deyə ombudsman vurğulayıb.

Ermənilər tərəfindən azərbaycanlılara qarşı əsrlər boyu etnik təmizləmə, soyqırımı siyasəti həyata keçirildiyini diqqətə çatdıran Səbinə Əliyeva əlavə edib: "Ermənistanda həbsdə olan vətəndaşlarımızla bağlı işlər davam etdirilir. Mütəmadi olaraq həmin şəxslərin ailələri, eləcə də Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə əlaqə saxlanılır. Məsələ daim diqqətimizdədir"

**XQ**

# Moldova Azərbaycanlıları Konqresinin beynəlxalq ictimaiyyətə müraciəti

**Moldovada fəaliyyət göstərən Azərbaycan icması ölkəmizin sülh səylərinin dəstəklənməsi ilə bağlı bəyanatla çıxış edib.**



MOLDOVADAKI AZƏRBAYCANLILAR KONQRESI | CONGRESUL AZERILOR DIN MOLDOVA

№86_16.08.2023

*Preşedintelui Republicii Moldova*
*Doamnei Maia Sandu*

UN APEL LA RECUNOAŞTERE ŞI SPRIJIN PENTRU PACE ÎN AZERBAIDJAN

Vă scriu pentru a Vă aduce la cunoştinţă preocupările actuale şi presante legate de situaţia dintre Azerbaidjan şi Armenia, care s-a desfăşurat în 2020.
În urma încetării ostilităţilor în 2020, Azerbaidjanul a întins o ramură de măslin şi a propus o agendă paşnică menită să promoveze stabilitatea şi cooperarea regională. Naţiunea noastră şi-a reafirmat în mod constant dorinţa sinceră de a stabili o pace durabilă şi armonie între ţările noastre. O dovadă a angajamentului Azerbaidjanului faţă de cooperarea regională este prietenia şi cooperarea noastră puternică cu vecinul nostru Georgia. Astfel de parteneriate subliniază potenţialul unei cooperări fructuoase în regiunea noastră.

Cu toate acestea, în ciuda eforturilor noastre sincere, anumite sentimente revanşarde par să prevaleze în Armenia, făcând din căutarea unei păci durabile o provocare. Este demn de remarcat influenţa semnificativă a diasporei armeneşti din întreaga lume, care, din păcate, pare să fie un obstacol în calea procesului de pace. În perioada actuală de diseminare rapidă a informaţiilor, devine din ce în ce mai dificil să separe realitatea de ficţiune. Deşi vocile cele mai puternice atrag adesea cea mai mare atenţie, volumul nu este echivalent cu veridicitatea.
O preocupare serioasă care, din păcate, a fost umbrită în forumurile globale este pericolul cu care se confruntă mulţi civili şi militari din regiunea Karabah. Minele plantate de forţele armate armene au transformat întreaga regiune într-un vast câmp minat. În mod tragic, acest lucru a dus deja la pierderea şi rănirea a peste 300 de vieţi nevinovate.
Mai mult, în ciuda eforturilor noastre consistente din ultimii trei ani, ne-am confruntat cu dificultăţi în atragerea atenţiei organismelor internaţionale relevante asupra dezastrului ecologic care se desfăşoară în regiunea Karabah. Suprafeţe vaste de pădure au fost tăiate, râurile noastre sunt poluate, iar flora şi fauna noastră diversă şi unică sunt ameninţate cu dispariţia. Aşezările umane, inclusiv oraşele şi satele, au suferit, de asemenea, distrugeri pe scară largă.

Această degradare a mediului ameninţă nu numai ecosistemele naturale ale regiunii, ci şi mijloacele de trai şi patrimoniul cultural al locuitorilor săi. Astfel de acte au potenţialul de a provoca daune ireversibile, ale căror efecte ar fi resimţite pentru generaţiile următoare.
Contrar afirmaţiilor armenilor, toate liniile de comunicare cu Karabakh rămân deschise. Cu toate acestea, singura cerere a Azerbaidjanului este de a-şi menţine suveranitatea asupra propriilor teritorii, una dintre acestea incluzând liniile de comunicare.

Moldova Azərbaycanlıları Konqresi adından Moldova Prezidenti xanım Maya Sanduya, parlamentin spikeri İqor Qrosuya və Birləşmiş Millətlər Təşkilatının Moldovadakı rezident-əlaqələndiricisi Saymon Springettə ünvanlanan bəyanatda bildirilib ki, Azərbaycan əsilli moldovalılar Ermənistanda mövcud revanşist əhval-ruhiyyəli qüvvələrin və erməni diasporunun yolverilməz əməlləri nəticəsində Cənubi Qafqaz regionunda yaranmış mövcud vəziyyətdən dərin narahatlıq hissi keçirirlər.

Moldova Azərbaycanlıları Konqresi bu kritik və önəmli mərhələdə beynəlxalq təşkilatları erməni uydurmalarına inanmamağa çağırıb. İşğaldan azad edilmiş Qarabağda irimiqyaslı bərpa-yenidənqurma layihələri həyata keçirmək məqsədilə bölgəyə böyük sərmayə yatıran Azərbaycanın sülhsevər mövqeyini əməli şəkildə dəstəkləməyə və tərəflər arasında konstruktiv dialoqun təşviqinə yardım göstərməyə dəvət edib.

**XQ**

# İslam Əməkdaşlıq Təşkilatı Komissiyasının üzvləri Bakıda

**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın dəvəti əsasında İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının nümayəndə heyəti ölkəmizdə səfərdədir.**



Səfərin əsas məqsədi Ermənistan tərəfindən dini-mədəni abidələrimizin və azərbaycanlılara məxsus qəbiristanlıqların dağıdıldığı yerlərdə və İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın hərbi hücumlarına məruz qalmış, mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrində faktaraşdırıcı missiya həyata keçirməkdir.

Dünən qonaqlar Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda həlak olmuş şəhidlərin ruhu ehtiramla yad edilib, məzarları üzərinə çiçəklər qoyulub.

**XQ**

# Asiya İnfrastruktur İnvestisiya Bankı ölkəmizlə əməkdaşlığı genişləndirir

## *TANAP layihəsinə 600 milyon, pandemiya tədbirlərinə isə 100 milyon dollar vəsait ayrılıb*

**(əvvəli 1-ci səhifədə)**

Söhbət zamanı Azərbaycanın 2016-cı ildən bankla uğurlu əməkdaşlıq etdiyi bildirilib. Maliyyə qurumunun "yaşıl" və dayanıqlı gələcəyin təmin olunması istiqamətində fəaliyyəti, həmçinin üzv ölkələrə güclü iqtisadiyyat qurmaqda dəstəyinin əhəmiyyəti də diqqətə çatdırılıb. Görüşdə, həmçinin AİİB ilə Cənub Qaz Dəhlizi layihəsi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, dəmir yol infrastrukturu, gəmiqayırma və digər nəqliyyat-tranzit və logistika layihələri, eyni zamanda, Orta Dəhlizin Azərbaycan seqmenti üzrə mümkün əməkdaşlığa dair fikir mübadiləsi aparılıb. Söhbətdə potensial əməkdaşlığın əsas istiqamətləri, AİİB-in Azərbaycanda gələcək fəaliyyət prioritetləri, o cümlədən "yaşıl enerji" və infrastrukturun inkişafı üzrə perspektiv layihələr də müzakirə olunub.




Yeri gəlmişkən, Çin Xalq Respublikasının Pekin şəhərində yerləşən və nizamnamə kapitalı 100 milyard dollar olan AİİB 2014-cü il oktyabrın 24-də təsis edilib. Həmin gün Asiya qitəsinin 21 ölkəsi bu nəhəng investisiya bankının yaradılması məqsədilə memorandum imzalayıb. Ötən müddətdə bankın dünyanın 106 ölkəsində fəaliyyət göstərən səhmdarları tərəfindən yüksək göstəricilər əldə olunub.

Bankın əməkdaşlıq etdiyi ölkələr sırasında respublikamız həmişə diqqət çəkib. Azərbaycanın dəmir yolu, gəmiçilik və digər infrastruktur sektorları bu maliyyə qurumunun maraq dairəsində olub. AİİB-in investisiya əməliyyatları üzrə vitse-prezidenti Konstantin Limitovski mediaya müsahibəsində bununla bağlı deyib: "Bank bu gün Trans-Anadolu qaz kəmərinin (TANAP) genişləndirilməsi, Azərbaycanda dəmir yolunun müasirləşdirilməsi, gəmiçilik sənayesinin, müxtəlif infrastruktur sahələrinin inkişaf etdirilməsi kimi layihələri əməkdaşlığın gücləndirilməsində prioritet istiqamətlər kimi diqqətdə saxlayır".

K.Limitovskinin sözlərinə görə, Azərbaycan 2016-cı ildən AİİB ilə əməkdaşlıq edir, eyni zamanda, bankın təsisçi üzvləri və müştəriləri arasında nüfuzu ilə fərqlənir. Bu, təsadüfi deyil. Çünki adı çəkilən bank etibarlı investisiyalar üçün uzunmüddətli maliyyələşdirmənin təqdim olunması, eləcə də əsasən Asiya regionunda həyat şəraitinin yaxşılaşdırılması və iqtisadi inkişafın təmin edilməsi kimi məsələlərin həllini hər zaman diqqətdə saxlayıb. Yerləşdiyi coğrafiyada iqtisadi artımın stimullaşdırılması və infrastrukturla bağlı layihələri maliyyələşdirən AİİB ötən müddətdə, həmçinin regionda kənd təsərrüfatının və infrastrukturun inkişafı, enerji təchizatı, ətraf mühitin mühafizəsi, nəqliyyat və telekommunikasiya, su təchizatı və kanalizasiya, şəhərsalma və logistik mərkəzlərin yaradılmasında da xüsusi fəallıq göstərib.

Azərbaycanla AİİB arasında ilk birgə layihə Cənub Qaz Dəhlizinin (CQD) mühüm seqmentlərindən sayılan Trans-Anadolu Qaz Boru Kəməri ilə (TANAP) bağlı olub. 2016-cı ilin dekabr ayında bank bu kəmərin çəkilişi üçün Azərbaycana 600 milyon dollar məbləğində kredit ayırıb. Həmçinin AİİB koronavirus pandemiyası dövründə respublika iqtisadiyyatının bərpasına və pandemiyanın fəsadlarının yumşaldılmasında kömək etmək üçün 100 milyon ABŞ dolları məbləğində dəstək göstərib.

Bankın əməliyyat portfeli fəaliyyət göstərdiyi 7 il ərzində 35 milyard dollara çatıb və bank ötən müddətdə öz missiyasına uyğun olaraq Asiya ölkələrinin infrastruktur baxımdan inkişafını dəstəkləməkdə davam edib.

Hazırda bankın bütün regionlar üzrə portfeli suveren kreditlərin və investisiyaların təxminən 75-80 faizini təşkil edir, özəl sektorun payı isə cəmi 20-25 faizdir. Məqsəd 2030-cu ilə qədər sərmayənin yarısının özəl sektora və qeyri-suveren layihələrə sahib olmasıdır.

AİİB hazırda müxtəlif ölkələrdə günəş və külək elektrik stansiyalarının tikintisi üzrə layihələri fəal şəkildə maliyyələşdirir, çünki bərpa olunan enerji mənbələrinə investisiya yatırmaq özəl sektorda bu maliyyə qurumu üçün əsas sahələrdən biridir. Belə ilk layihələrdən biri Qazaxıstanın Janatas külək stansiyasıdır. AİİB, həmçinin "Waste-to-Energy" (tullantılardan enerji) ilə bağlı layihələrə də diqqət yetirir.

Onu da xatırladaq ki, bank indiyədək Türkiyədə enerjiyə qənaət edən qurğuların, həmçinin Özbəkistanın Sırdərya vilayətində 1500 meqavat gücündə qazla işləyən elektrik stansiyasının layihəsini hazırlayıb.

AİİB-in fəaliyyətində əsas prinsip ölkənin karbonsuzlaşdırılmasına, regionda əməkdaşlığın inkişafına və müasir texnologiyaların istifadəsinə töhfə verən layihələrə yönəldilməsidir. Bir sözlə, bank uzunmüddətli perspektivdə davamlı olacaq, özəl sektor investisiyalarını cəlb edəcək layihələrdə iştiraka həssaslıqla yanaşır və bununla da dayanıqlı infrastrukturun maliyyələşdirilməsi yolu ilə Asiya regionunda inkişafı stimullaşdırmağı qarşıya mühüm vəzifə kimi qoyur.

***Vaqif BAYRAMOV, XQ***

### Ekspert rəyi

**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**



Azərbaycanın Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) ilə investisiya əməkdaşlığı xüsusi diqqət çəkir. Ölkəmiz AİİB-lə dəmir yolu, habelə müxtəlif infrastruktur sektorlarında, gəmiçilik sənayesində müxtəlif maraqlı layihələr portfeli müəyyənləşdirib. Azərmaycan bu maliyyə qurumu ilə, həmçinin Trans-Anadolu qaz kəmərinin genişləndirilməsi çərçivəsində müəyyən layihələrin icrası barədə müzakirələr aparıb.

Ümumiyyətlə, Cənubi Qafqaz AİİB üçün mühüm regiondur. Bank fəaliyyətində bu məqama xüsusi önəm verir, çünki adıçəkilən region Avropa ilə Asiya, eləcə də Avropa ilə Yaxın Şərq arasında birləşdirici körpüdür. AİİB Cənubi Qafqazın həm regional, həm də qlobal logistikada getdikcə daha mühüm rol oynayacağına əminliyini hər zaman ifadə edib.

Bank davamlı və perspektivli layihələri maliyyələşdirməklə Asiya regionunda inkişafı təşviq etməyə çalışır. Eyni zamanda, infrastruktur investisiyalarına özəl sektorun kapitalının cəlb edilməsinin vacibliyini bildirir.

Hazırda bankın bütün regionlar üzrə portfeli suveren kreditlərin və investisiyaların təxminən 75-80 faizini təşkil edir, özəl sektorun payı isə cəmi 20-25 faizdir. AİİB-in əsas məqsədi 2030-cu ilə qədər sərmayəsinin yarısının özəl sektora və qeyri-suveren layihələrə sahib olmasıdır.

Yeri gəlmişkən, sözügedən maliyyə qurumunun fəaliyyətində müxtəlif ölkələrdə enerji layihələrinin maliyyələşdirilməsi önəmli yer tutur. Başqa sözlə, bank tərəfindən günəş və külək elektrik stansiyalarının tikintisi üzrə layihələr fəal şəkildə maliyyələşdirilir. Bu isə AİİB-in özəl sektorda bərpaolunan enerji mənbələrinə investisiya yatırmaq istəyindən xəbər verir. Belə layihələrə misal olaraq ölkədə ilklərdən biri olan Qazaxıstanın Janatas külək stansiyasını göstərmək olar. Bank "Waste-to-Energy" (tullantılardan enerji) ilə bağlı layihələrə də diqqət yetirir. Türkiyədə isə bərpaolunan enerjiyə qənaət edən qurğular, həmçinin Özbəkistanın Sırdərya vilayətində 1500 meqavat gücündə qazla işləyən elektrik stansiyasının layihəsi hazırlanıb.

Göründüyü kimi, bank əsas məqsədi ölkənin karbonsizləşdirilməsinə, regionda əməkdaşlığın inkişafına və müasir texnologiyaların istifadəsinə töhfə verən layihələrə yönəltmək, özəl sektor investisiyalarını cəlb edəcək layihələrdə iştirak etməkdir.

Beləliklə, AİİB-in fəaliyyəti haqqında yayılan məlumatda bildirilir ki, hər hansı bir ölkənin bu qurumdan maliyyə alması üçün onun təqdim etdiyi layihə bankın missiyasına və mandatına uyğun olmalıdır. Başqa sözlə, bank "yaşıl infrastruktur", rəqəmsal, enerji, həmçinin əhalinin kritik ehtiyaclarını dəstəkləyən infrastruktur layihələri ilə maraqlanır və həmin təşəbbüsləri fəal şəkildə nəzərdən keçirir. Həm də bu zaman özəl sektorun kapitalını birgə investisiya fəaliyyətlərinə cəlb etməyə xüsusi önəm verir. Çünki belə halda hər bir layihə ölkəyə və investorlara iqtisadi fayda gətirir, iqtisadi cəhətdən səmərəli və maliyyə baxımından dayanıqlı olması ilə diqqət çəkir.



# Qeyri-neft bölməsinin ixracda payı yüksəlir

## *7 ayda xaricə 2 milyard dollarlıq məhsul satılıb*

***(əvvəli 1-ci səhifədə)***

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının uzunmüddətli inkişaf planının bir hissəsi kimi karbohidrogenlərdən asılılığın mərhələli şəkildə azaldılması ixracın strukturunun şaxələndirilməsinə və coğrafiyasının getdikcə genişləndirilməsinə imkan yaradır. Bir sözlə, ölkədə qeyri-neft sahələrinin inkişaf etdirilməsinin uğurlu nəticələri ixracda da özünü qabarıq şəkildə büruzə verir. "İxrac icmalı"nın məlumatına əsasən, 2023-cü ilin yanvar-iyul aylarında qeyri-neft sektoru üzrə ixrac əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 17,8 faiz artıb.

Hesabat dövrü ərzində ixracda spirtli və spirtsiz içkilərin payı 4,4 dəfə, elektrik enerjisi 5,5 dəfə, şəkər 46,6 faiz, meyvə-tərəvəz isə 6,1 faiz artıb. Bundan əlavə, yanvar-iyul aylarında Azərbaycandan xaricə 520 milyon dollar dəyərində yeyinti məhsulları ixrac olunub.

2023-cü ilin 7 ayı ərzində aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,6 faiz artaraq 540,2 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 41,3 faiz artaraq 119,4 milyon ABŞ dolları təşkil edib.

Cari ilin yanvar-iyul aylarında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında birinci yeri 314,5 milyon ABŞ dolları olmaqla elektrik enerjisi tutur. Hesabat dövründə ölkəmizdən xaricə 124,2 milyon dollar dəyərində pomidor (tomat) göndərilib. Siyahıda ilk üçlüyü isə 79,4 milyon dollar olmaqla pambıq mahlıcı tamamlayır.

"İxrac icmalı" sözügedən dövrdə Azərbaycanın ən çox qeyri-neft məhsulları ixrac etdiyi ölkələrin siyahısını da açıqlayıb. Belə ki, yanvar-iyul ayları ərzində ölkəmizdən Rusiya Federasiyasına 641,9 milyon dollar, Türkiyəyə 555,1 milyon dollar, Gürcüstana 198,7 milyon dollar, İsveçrə Konfederasiyasına 81,8 milyon dollar, Qazaxıstana isə 66,5 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mallar ixrac olunub.

Nəşrin məlumatında cari ilin iyul ayının qeyri-neft ixracı üzrə göstəriciləri barədə də ayrıca məlumat verilir. Bildirilir ki, iyul ayında Azərbaycandan dünya bazarlarına 233,2 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz artım deməkdir. Ay ərzində ölkəmizdən xaricə göndərilən qeyri-neft mallarının 60,1 milyon dolları yeyinti məhsullarının payına düşüb. Hesabat ayında ixrac olunmuş qeyri-yeyinti məhsulları 1,5 faiz artaraq 173,2 milyon ABŞ dollarına bərabər olub.

İyul ayında Azərbaycanın qeyri-neft sektoruna aid olan ən çox mal ixrac etdiyi ölkələrin siyahısında birinci yeri 89,6 milyon ABŞ dolları olmaqla Rusiya Federasiyası tutub. Siyahıda Türkiyə (42,6 milyon ABŞ dolları) ikinci və Gürcüstan (18,4 milyon ABŞ dolları) üçüncü olub.

Bu il ölkənin bağçılıq təsərrüfatlarında bol məhsul yetişdirilməsi meyvə ixracına da müsbət təsir göstərib. Elə iyul ayında Azərbaycandan müxtəlif ölkələrə 23 milyon ABŞ dolları dəyərində şaftalı ixrac olunnması da bunu təsdiqləyir. Yeri gəlmişkən, adıçəkilən meyvə, həm də ay ərzində ixrac edilən qeyri-neft sektoruna aid məhsulların siyahısında birinci yeri tutub. Siyahıda sonrakı yerlər isə ilkin formalı propilen sopolimerləri (12,5 milyon ABŞ dolları) və qızıl (11,5 milyon ABŞ dolları) məxsus olub.

"İxrac İcmalı"nda qeyd olunub ki, 2023-cü ilin avqust ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 14,7 milyon ABŞ dolları təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi aylıq icmalda, həmçinin qeyri-neft sektoru üzrə cari ilin yanvar-iyul aylarında həyata keçirilmiş ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi təqdim olunub. İlin 7 ayı üzrə qeyri-dövlət ixracatçı subyektlərin reytinqində Şirinov Elvin Valeh oğlu, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" QSC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Best Logistik" MMC, "STP Global Cable" MMC, "P-Aqro" MMC, "Mega Fruit Az" MMC, "My Fruit" MMC, "Almeyvə" MMC təmsil olunublar.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə "Azərenerji" ASC başçılıq edir. ARDNŞ-nın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərbaycan Hava Yolları" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəripək" MMC, "ASK Tütün" MMC də ixrac əməliyyatlarında xüsusi fəallığı ilə seçiliblər.

İcmalda, həmçinin Azərbaycanın 2023-cü ilin yanvar-iyul aylarında peyk telekommunikasiya xidmətləri sahəsindəki uğurları ilə bağlı yığcam məlumat da yer alıb. Qeyd olunub ki, hesabat dövründə Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 45 ölkəsinə 11,1 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. İyul ayında isə "Azərkosmos" dünyanın 40 ölkəsinə 1,6 milyon ABŞ dolları dəyərində xidmət ixrac edib.

Qeyd edək ki, cari ilin yanvar-iyul ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 3,2 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 2,4 milyon ABŞ dolları ilə Lüksemburq, 983,6 min ABŞ dolları ilə Birləşmiş Ərəb Əmirlikləri, 613,8 min ABŞ dolları ilə Almaniya və 472,9 min ABŞ dolları ilə Nigeriya qərarlaşıb.

Nəşrin məlumatına görə, bu ilin 7 ayında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 1,2 milyard manat, iyul ayında isə 218,8 milyon manat dəyərində əməliyyat aparılıb.

Göründüyü kimi, son illər ölkəmizdə qəbul olunmuş məqsədli dövlət proqramları, əlverişli biznes mühiti, eləcə də uğurlu şaxələndirmə siyasəti qeyri-neft sektorunun inkişafını sürətləndirir. Bu da öz növbəsində ixracın strukturunda qeyri-neft mallarının payının getdikcə artmasına imkan yaradır.

***Mirbağır YAQUBZADƏ, XQ***



## İnkişaf strategiyasının icra hesabatı hazırlanıb

***İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasının 2023-cü ilin ilk yarısı üzrə aparılmış monitorinqinə dair ilkin hesabat hazırlayıb.***

Layihə sənədində, həmçinin adıçəkilən strategiyada nəzərdə tutulmuş 12 məqsəd üzrə "Tərəqqi hesabatları" yazılıb.

Qeyd edək ki, strategiya üzrə 5, prioritet üzrə 12 məqsədin icrası nəzərdə tutulub. Məqsədlər fəaliyyət istiqamətləri və tədbirlər üzrə indikatorların icrası ilə qiymətləndirilir.

***XQ***

## Bu il Azərbaycanda sığorta haqları 1 milyard manatı keçəcək

**"Azərbaycan Sığortaçılar Assosiasiyası" (ASA) İctimai Birliyi bu il Azərbaycanda sığorta haqlarının 1 milyard manatı keçəcəyini proqnozlaşdırır.**




Qurumun icraçı direktoru Elmar Mirsalayev bildirib ki, bu proqnozun reallaşacağına inamı cari ilin I yarısında sığorta bazarında artıma nail olunması yaradıb.

Xatırladaq ki, 2022-ci ildə Azərbaycandakı 20 sığorta şirkətinin xətti ilə 970 miyon 823 min manat sığorta haqqı toplanılıb. Bu, 2021-ci ilə nisbətən 15 faiz olub.

Bu ilin I yarısında isə sığorta haqları ötən ilin eyni dövrü ilə müqayisədə 32 faizdən çox – 648 milyon 945 milyon manat təşkil edib.

***XQ***

## Ölkəmiz Çin sərgisində

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" ("Tvitter") sosial şəbəkəsində verdiyi məlumata görə, Azərbaycan nümayəndə heyəti rəhbərliyi ilə Pekin şəhərində keçirilən Çin Beynəlxalq Xidmətlər Ticarəti Sərgisində (CIFTIS) iştirak edib.**




Nazir qeyd edib ki, qlobal xidmətlər ticarətini təşviq edən bu sərgi respublikamızın iqtisadi potensialının, investisiya imkanlarının və yerli məhsullarımızın tanıdılması üçün səmərəli platformadır.

***XQ***

# İranda “pantürkizm təhlükəsi” uydurması

## *Məqsəd milli-etnik problemləri pərdələməkdir*




**Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər çalması və öz ərazilərini düşmən işğalından azad etməsindən sonra İranın Azərbaycana qarşı düşmənçilik münasibətinin həqiqi mahiyyəti və məzmunu özünü əyani şəkildə göstərmişdir.**

İranlı alim və ekspertlərin bu ölkə mediasında yayılmış yazı və təhlillərində Azərbaycanın, guya, Zəngəzur dəhlizi vasitəsi ilə Şərqi Zəngəzuru Qərbi Zəngəzurla birləşdirməsi sahəsində siyasi, ideoloji və əməli fəaliyyət göstərməsi ilə bağlı həqiqətə uyğun olmayan mülahizələr geniş yer almışdır. Azərbaycanın, onun əməkdaşlıq etdikləri ölkələrin və dəhliz məsələsinin İranın ərazi bütövlüyü, milli birliyi, suverenliyi üçün yaratdığı və yarada biləcəyi təhlükə və təhdidlər haqqında reallıqdan uzaq, cəfəng ideya və fikirlər daim təkrarlanmışdır.

Yeri gəlmişkən, İranda çox hallarda olsa da, Zəngəzur dəhlizinin İranın iqtisadi, geoiqtisadi və geosiyasi maraqları üçün nəinki təhdid yaratmadığı, əksinə, onun həmin sahədə maraqlarına cavab verdiyi haqqında yazılara da rast gəlmək olurdu. Bu fakt İranda müəyyən qüvvələrin Azərbaycana qarşı düşmənçilik siyasətinin arxasında başqa səbəb və niyyətin gizləndiyini aşkar şəkildə göstərir.

Son vaxtlar İran təbliğatı əsas diqqətini Azərbaycan, Türkiyə, İsrail və digər dövlətlərin, guya, bu ölkədə separatizm və pantürkizm fəaliyyəti ilə məşğul olmalarına yönəldir, milli azadlıq hərəkatlarını pantürkizm təhlükəsi ilə pərdələməyə çalışır. İranı ən çox narahat edən ölkədə, guya, separatizm fəaliyyətləri olduğundan və pantürkizm onun mühüm bir ünsürü hesab edildiyindən əvvəlcə bu barədə bir neçə söz deyək.

İranda pantürkizm, xüsusən, Cənubi Azərbaycanda pantürkizm haqqında son 30 ildə son dərəcə geniş, müxtəlif səviyyəli, səpgili, həcmli yazılar meydana gəlmişdir. Həmin yazıların bir əsas cəhəti pantürkizmə verilən tərifdə özünü göstərir. İranda Cənubi azərbaycanlıları türk adlandıran və onların milli hüquqlara malik olduğunu müdafiə edən fikir cərəyanı pantürkizm və bunu bəyan edən istənilən şəxsi pantürkçü adlandıraraq daim təqib edirlər. Cənubi azərbaycanlıları Türkiyəyə, Şimali Azərbaycana birləşdirmək sahəsində elmi, ideoloji, siyasi, ictimai və sair fəaliyyətdə ittiham edirlər.

Bundan əlavə, İranda Cənubi və Şimali azərbaycanlıları vahid bir xalq və türk xalqlarından biri adlandıranları və həmin ideyanı dəstəkləyənləri də pantürkçü siyahısına daxil edirlər. Nəticədə türkdilli xalqları türk adlandıran, türk xalqlarının bütün sahələrdə əməkdaşlığının genişlənməsinin vacibliyini dəstəkləyən ideya cərəyanını pantürkizm adlandırırlar.

İranın millətçi alim və siyasiləri Cənubi azərbaycanlıların milli azadlıq hərəkatını pantürkizm hərəkatı kimi səciyyələndirir. Onlar azərbaycanlılara və Azərbaycana, eləcə də bütövlükdə, türk dövlətləri və türk xalqlarına qarşı mübarizə apardıqlarını nümayiş etdirərək öz cızma-qaralarında, çıxışlarında zahirən yaxın siyasi-iqtisadi əlaqələr qurmağa çalışdıqları bu dövlətlərə və xalqlara qarş, əslində, ikiüzlülük və hörmətsizlik nümayiş etdirirlər.

Qeyd edildiyi kimi, İranda pantürkizmi Cənubi azərbaycanlıların separatizm adlandırılan milli azadlıq hərəkatının mühüm ideya-mənəvi ünsürü hesab edirlər. İranda milli azadlıq hərəkatı Cənubi azərbaycanlılarla məhdudlaşmadığından pantürkizm İran miqyasında Cənubi azərbaycanlıların milli hüquqları uğrunda çıxış edən Cənubi Azərbaycan ideya-siyasi cərəyanlarına şamil edilir. Bu baxımdan, pantürkizm separatizmin bir ünsürü kimi qələmə verildiyindən daha məhdud anlayış kimi çıxış edir. Bunun müqabilində separatizm adlandırılan milli azadlıq hərəkatı İranda ən geniş yayılmış ideya, idoloji, ictimai, mədəni və siyasi bir hadisədir və bütün qeyri-fars xalqların ictimai-siyasi, mədəni həyatlarının ən mühüm hissəsini təşkil edir.

Azərbaycan və onunla yaxından əməkdaşlıq edən ölkələrin İranda separatizm adlandırılan milli-azadlıq hərəkatına təsir imkanları və həmin sahədə real və ya ehtimal olunan fəaliyyətləri əsas təhlükə hesab edilir. Həmin “təhlükə”nin aradan qaldırılmasının, məlum olduğu kimi, müasir, sivil dünyada çox sadə həll yolu vardır: İranda yaşayan etnik-milli və etnik-dini azlıqların müvafiq hüquqlarının tanınması və təmin edilməsi. Amma bir əsrdən çox müddətdə qeyri-fars xalqlara qarşı hakim millətçilik, zorakı assimilyasiya, etnosid siyasəti yeridən İran hakimyyəti bu xətdən əl çəkmədiyini əməldə nümayiş etdirərək gələcəkdə də onu davam etdirəcəyi mesajını verərək, guya, real və ehtimal olunan maneələri aradan qaldırmaq istəyir.

İran özünün bütün iranlılara qarşı anti-bəşəri, anti-demokratik və ədalətsiz, qeyri-fars xalqlara qarşı irqi, etnik, dini, linqvistik ayrı-seçkilik siyasəti qarşısında, nədənsə, çox mühüm manelərdən biri kimi Azərbaycan Respublikasını nəzərdə tutur. Həmin baxış hələ 1917–1918-ci illərdə meydana gəlsə də, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra yeni mərhələyə daxil olmuşdur. İran İslam Respublikası Cənubi azərbaycanlıların milli hüquqlarını təmin etmək əvəzinə, Azərbaycan Respublikasından düşmən obrazı yaradaraq İran əhalisi və xüsusən də Güneydə ölkəmizə qarşı düşmən və neqativ münasibət yaradır, güneylilərə qarşı isə etnosid siyasəti yeridir.

İran öz siyasətini əsaslandırmaq üçün Azərbaycanın İrandan fərqli olaraq dünyəvi dövlət olması, onun düşmənləri (İsrail, ABŞ) və rəqibləri (Türkiyə, Ərəb ölkələri) ilə yaxın əməkdaşlıq etməsi amilindən geniş istifadə etməyə çalışır. Həmin siyasət Azərbaycanın əleyhinə yönəlməkdən daha çox, İranda milli azlıqlara və ilk növbədə, Güney azərbaycanlılara qarşı yönəlib. Çünki İranın düşməninə və ya düşmən obrazına rəğbət göstərmək milli və dövləti xəyanət hesab edilə bilər. Bu amil Güney azərbaycanlıları nəinki Şimali Azərbaycana rəğbət göstərməkdən, həmçinin öz milli hüquqları uğrunda çıxış etməkdən çəkindirməlidir. Məhz buna görə Azərbaycanın müstəqilliyi və hətta nəqliyyat-kommunikasiya dəhlizi İranı separatizm yolu ilə parçalamaq amili kimi qələmə verilir və ona qarşı geniş təbliğat aparılır. Nəticədə Azərbaycan ideoloji qarşıdurma obyekti kimi nəzərdən keçirilir.

İran Güney azərbaycanlılara qarşı son yüz ildə həyata keçirdiyi milli zülm və etnik ayrı-seçkilik siyasətini əvvəlki kimi davam etdirmək üçün Azərbaycanı özünün düşməni elan edib ona qarşı ideolji mübarizəni genişləndirir, müxtəlif vasitələrlə, o cümlədən güc nümayişi, təzyiq göstərmək, Güney azərbaycanlıları həmin prosesə geniş şəkildə cəlb etməklə onları milli hüquqlar uğrunda dinc vasitələrlə mübarizədən yayındırmaq istəyir. Bundan əlavə, Azərbaycan Respublikasını Güney azərbaycanlıların ən bəsit milli hüquqlarını beynəlxalq müstəvidə müdafiə etmək imkanından məhrum etmək niyyəti güdürlər.

Amma tarixi təcrübə göstərir ki, polietnik dövlətdə hər hansı bir xalq (İranda fars xalqı) hakim etnos kimi digər xalqlara qarşı sonsuza qədər irqi ayrı-seçkilik, hakim millətçilik, etnosid və linqvosid siyasəti yeridə bilməz. Həmin siyasət son nəticədə dövlətin parçalanmasına və hakim xalqın qeyri-müəyyən perspektivlə üzləşməsinə səbəb ola bilər.

***Vidadi MUSTAFAYEV,***
***AMEA Şərqşünaslıq İnstitutu***
***İran şöbəsinin müdiri, professor***

# Urmiya gölü quruyur, Tehran buna göz yumur

**“Tehran məqsədyönlü şəkildə Urmiya gölünün ekoloji problemlərinin həlli məqsədilə beynəlxalq qurumların və ekspertlərin rəyini də qulaqardına vurur”. Bunu politoloq Elxan Şahinoğlu deyib.**



Ekspert Urmiya gölünün quruması nəticəsində bölgədə ekoloji fəlakət yaşandığını bildirib: “Güneydə Urmiya gölü sürətlə quruyur, əkinçiliyə və heyvandarlığa zərər dəyib. Quruma nəticəsində duz qasırğalarının ətraf mühitə, o cümlədən Türkiyə və Naxçıvana mənfi təsiri yaranır. Urmiya gölünün quruması İranın “dərin dövlət”inin vecinə deyil, əksinə, Güney Azərbaycana, Azərbaycana və Türkiyəyə ekoloji problemlərin yaranmasından faydalanmaq istəyirlər, ancaq axı bunun bir ucu özlərinə də toxunacaq”.

Politoloq daha sonra qeyd edib ki, müxtəlif hesablamalara görə, duz qasırğası gölün 500 kilometr radiusunda yaşayan on milyonlarla sakinə təsir edəcək: “İranda hər yeni gələn prezident Urmiya gölünün problemini həll edəcəyini vəd edir, bir az keçir, vədini yaddan çıxarır və ya “dərin dövlət” ona izah edir ki, bu məsələyə qarışma. Bu səbəbdən Tehran Urmiya gölünün ekoloji problemlərinin həlli məqsədilə beynəlxalq qurumların və ekspertlərin rəyini də qulaqardına vurur”.

Bəs, Urmiya gölü niyə quruyur? İranın “Mehr” xəbər agentliyi energetika nazirinin müavini Səttar Mahmudiyə istinadla bildirib ki,

Urmiya gölü 50 ildir ki, xüsusi beynəlxalq bataqlıq ərazisi hesab olunub və son 54 ildə UNESCO tərəfindən qorunan bir biosfer kimi qeydə alınıb. Gölün böyük bir hissəsinin qurumasının əsas səbəblərindən biri iqlim dəyişikliyidir: “Bu da gölün hazırkı vəziyyətinə gətirib çıxarıb. Ona görə də hövzəni əvvəlki vəziyyətinə geri qaytarmaq üçün bir sıra tədbirlərin görülməsinə ehtiyac var. Bu sahədə İran Energetika Nazirliyi mütəxəssislərinin rəyini almaq araşdırmaların aparılması işinin bir hissəsidir. İndiyədək bununla bağlı bir sıra yığıncaqlar keçirilib və Urmiya gölünün xilası üçün bir çox layihələr təklif edilib”.

İranın energetika nazirinin müavini, həmçinin vurğulayıb ki, Urmiya gölünün suyunun həddindən artıq çox buxarlanması və düzgün qidalanmama hövzənin qurumasının digər səbəblərindəndir: “Bundan başqa, Urmiya gölü ətrafında icazəli və icazəsiz xeyli artezian quyuları qazılıb. Eyni zamanda, fermerlərin yerüstü su ehtiyatlarından istifadə etməsi və bəndlərin inşası Urmiya gölünün qurumasına təsir göstərib”.

Göründüyü kimi, İranın səlahiyyətli şəxsi hansısa təcili tədbirlərin görülməsinin üstündən keçərək, gölün quruma səbəblərini sadalamağa üstünlük verib. Xatırladaq ki, Urmiya gölü İranın Şərqi və Qərbi Azərbaycan vilayətlərinin ortasında yerləşir. Sahəsi, təxminən, 6 min kv. km olan gölün 70 faizi 50 il ərzində tamamilə quruyub və şoranlığa çevrilib. Göldəki suyun səviyyəsi isə 1995-ci ildən azalmağa başlayıb. Artıq Urmiya gölünün ərazisi çox kiçilib və 5 adanın ətrafındakı su tamamilə quruyub.

Urmiya gölünün sahilləri Təbriz, Urmiya, Xoy, Marağa, Qoşaçay, Soyuqbulaq, Xana, Salmas, Uşnu və Sulduz kimi bölgələrini əhatə etməklə Güney Azərbaycanın torpaqlarının beşdə birini. Bölgə ən münbit və əkin üçün yararlı bölgələrdən sayılırdı.

***R.GƏNCƏLİ***

# Xalq şairi Süleyman Rüstəmin Güney xatirələri

**İkinci Dünya müharibəsi zamanı İran ərazisindən gözlənilə bilən “Almaniya təhlükəsini” önləmək üçün sovet qoşun birləşməsinin İranın şimalına daxil olması bir əsrdən artıq müddətdə iki yerə bölünmüş xalqımızın müxtəlif səviyyəli təmaslarına da yol açmışdı.**



Sovet qoşunlarının bu ölkədə müvəqqəti mövcudluğuna ideya-siyasi zəmin yaratmaq üçün Görkəmli dövlət xadimi Əziz Əliyevin rəhbərliyi ilə Güney Azərbaycan ərazisinə göndərilmiş geniştərkibli ziyalı missiyasının o dövrdəki fəaliyyəti Güneydə milli-demokratik hərəkatın növbəti mərhələsinin başlanmasına önəmli təsir göstərmişdi. Xalq şairi Süleyman Rüstəm həmin missiyanın fəal nümayəndələrindən biri kimi Təbrizdə və ətraf bölgələrdə mədəni-kütləvi tədbirlərin mərkəzində olmuşdu.

Ədibin Güneyin bəlalı taleyi ilə bağlı çoxsaylı poetik nümunələri və “Yada düşənlər” adlı xatirələri həmin dövrün ictimai-siyasi hadisələrinin bədii-sənədli təəssüratı kimi ərsəyə gəlib. Təbriz sevdalı şairin o tayla bağlı xatirələrindən bir parçanı təqdim edirik:

“1941-ci ildə İran ərazisinə daxil olan qoşunlarımızı xalq duz-çörəklə qarşıladı. Xan, mülkədar ailələrinə mənsub yüksək rütbəli zabitlərin qara niyyətləri puça çıxdı. Onların çoxu silahlarını kəndlilərə verib, əvəzində kəndli paltarı alaraq təğliyi-libasla Tehrana qədər qaçdılar.

O vaxt orduya çağırılmışlar sırasında mən də var idim. Hərbi şuranın üzvü Əziz Əliyev bizim rəhbərimiz idi. Əziz bizi bir yerə toplayaraq dedi: “Biz İranın daxili işlərinə qarışmırıq, lakin ölkədə sakitliyi qoruyub, hərc-mərcliyə yol verməməliyik. Biz bu ölkəyə müharibəylə gəlməmişik. Bütün əhaliyə açıq-aydın bildirməliyik ki, bizim xanla, tacirlə, mülkədarla və qeyriləri ilə işimiz yoxdur. Sovet ordusunun bir nəfərindən də İran əhalisi pislik görməyəcək. Hamımız özümüzü sovet vətəndaşına layiq aparmalıyıq”.

Təbriz və digər şəhərlərdə acınacaqlı bir məsələnin də şahidi olduq: azərbaycanlılar məktəblərdə öz ana dillərində deyil, fars dilində təhsil alırdılar. Öz doğma ana dilində danışmağa cürət edən uşaqlar məktəbdən xaric edilirdi. Daha əcaib bir məsələ də bu idi ki, kürdlərin dağlardan şəhərlərə gəlişi qadağan edilmişdi. Onları quldur, cani kimi qələmə verib, əhali arasında vahimələr yaratmışdılar. Kürd qızları Təbrizə gəldilər. Onları müşayiət edən bir dəstə oğlan da gəlmişdi. Qəribədir ki, Təbrizdə dərhal dükanlar, restoranlar, evlərin qapıları bağlandı. Əhali elə bildi ki, şəhərdə qətl-qarət başlanacaq. Yox, belə olmadı. Kökü olmayan təbliğat heçə döndü. Yenidən dükanlar, restoranlar, bağlı qapılar açıldı.

Əziz Əliyevin kürd və İran xalqları arasında belə yaxınlıq yaratması müsbət nəticə verdi. Təbrizdə Əziz Əliyevin kürd qızları və ruhaniləri ilə dostluq, qardaşlıq söhbətində Mehbalı Əmiraslanovla birlikdə mən də iştirak etmişəm. Onlar Rza şahın kürd xalqına etdiyi zülmlərdən, bütün hüquqlardan məhrum edildiklərindən danışırdılar. Onlar söz verdilər ki, nə qədər sovet qoşunları İrandadır, kürdlər tərəfindən kimsənin burnu belə qanamayacaqdır. Sonralar bizimlə görüşən kürd xalqının mərd oğullarını Məhəmməd Rza şah Tehranda dar ağacından asdırdı.

Təbrizdə konsert salonu, teatr binası və qeyri mədəni ocaqlar yox idi. Əziz Əliyevin təşəbbüsilə Mirzə Fətəli Axundov adına Dövlət Opera və Balet Teatrı Təbrizə qastrola gəldi. Opera teatrını qarşılamaq üçün vağzala bütün Təbriz getmişdi, desəm, yanılmaram. Əziz Əliyev kürdləri teatr artistləri tərəfindən verilən bir konsertə dəvət etdi. Kürdlər lojalarda oturmuşdular. Paltarları, çalmaları rəngarəng idi. Bellərində qəmələri, silahları var idi. Konsertdə müğənnimiz Sara Qədimova "Kürdün gözəli" mahnısını oxumağa başlayan kimi kürdlər cəld salondan çıxdılar. Tamaşaçıları heyrət bürüdü. Kürdlər birdən səhnədə göründülər. Bir-birilərinin qurşağından yapışıb kürdcə oxuyaraq yallı getdilər. Salonu arasıkəsilməyən alqışlar bürüdü. Bu, təbrizlilər və bizim üçün unudulmaz hadisə oldu.

Əziz Əliyev həkim olduğundan Təbriz əhalisinin vəziyyətini, ehtiyacını nəzərə alaraq adamlara pulsuz xidmət göstərən xəstəxana açdırdı. Bakıdan həkimlər çağırdı. Xəstəxananın müdiri, baş həkimi çox gözəl insan və həkim Qədimov oldu. O, tez bir zamanda Təbrizdə böyük hörmət və şöhrət qazandı. Əziz Əliyevin bir təşəbbüsü də alqışalayiq idi. O, indiyəcən ucuz, eybəcər Amerika filmləri görmüş əhaliyə “Azərfilmin”in çəkdiyi filmləri göstərməyi məsləhət bildi. Bakıdan “Kəndlilər”, “İsmət” və digər filmlər gətirildi. Yadımdadır, sərin bir payız axşamı Gülüstan bağında, açıq havada “Kəndlilər” filmi göstərilirdi. Hava getdikcə soyuyurdu, lakin əhali quru yerdə oturub həyəcanla filmə baxırdı. Azərbaycanımızın keçmiş həyatından, xalqımızın mübarizəsindən danışan bu film göstərildikcə, təbrizlilər əsərin qəhrəmanını şiddətli alqışlarla qarşılayırdılar.

Aşura günü Təbrizdə qəribə bir hadisənin şahidi oldum. Təbrizin mərkəzi küçəsində böyük bir izdiham göründü. Bunlar zəncir vuranlardan, başlarını yaranlardan, sinə vuranlardan ibarət idi. Təbriz ajanları bu izdihamın qarşısını kəsə bilmədi. Dəstənin qabağında adamlar ələmlər arasında Stalinin əksini aparırdı. İzdihamdan bu sözlər yüksəlirdi: “Məhv olsun zalimlər, qəhr olsun cəlladlar! Yaşasın hürriyyət, ədalət! Yaşasın şürəvilər!”.

Bir gün Əziz Əliyev məni və digər bir yoldaşı yanına çağırıb dedi:

– Düşmənlərimiz min vasitəylə çalışırlar ki, İranda sovet qoşunları olan yerlərdə normal həyat, şərait olmasın. Səbəblərini də bizim ayağımıza yazsınlar. Siz sabah Ərdəbilə yola düşün, amma ehtiyatla hərəkət edin. Özünüzü qoruyun. Sizə yaxşı yol!

Səhəri gün yola düşdük. İkimiz də silahlı idik. Belimdə parabellum, çiynimdə karabin var idi. Bu yol bizə tanış deyildi. Yolda gediş-gəliş yox idi. Qaranlıq düşdü. Külək əsirdi. Sərabda qalmalı olmadıq. Ərdəbilə yaxın Nir deyilən qəsəbədə gecələdik. Səhər Ərdəbilə çatdıq.

Çayxanaları gəzməyə başladım. Çayxanaların birində qəribə hadisə baş verdi: Vaxtilə Bakıda, keçmiş Spasskaya (indiki Qasım İsmayılov) küçəsində cənubi azərbaycanlı iki qardaş yaşayırdı. Onlar xırda alverlə məşğuldular. Kiçik qardaş Baba Novxanı kəndindən Zəhra adlı qızla evlənmişdi. Məhləmizdə atama və başqa adamlara İranı ağız dolusu tərifləyirdi. Guya, orda işləmə, əziyyət çəkmə, başına qızıl yağsın. Bəzən mənimlə də çürük mübahisəyə girişirdi.

Bəli, çayxanaya girdim. Göz-gözü görmürdü. Tüstü aləmi bürümüşdü. Çayxananın yeri palçıq idi. Ayaqyalın bir nəfər iri padnosdan müştərilərə çay paylayırdı. Bu adam mənə tərəf yaxınlaşanda lapdan padnos əlindən yerə düşdü, stəkanlar sındı. O, üstümə cumub məni bərk-bərk qucaqlayıb, hönkür-hönkür ağlamağa başladı. Bu, vaxtilə məhəlləmizdə yaşayan, İranı tərifləyən həmin Baba idi. Başına gələn müsibətlərdən danışdı...

Bir gün Əziz Əliyev məni və Həsən Şahgəldiyevi yanına çağırıb dedi ki: “Qubernator Fəhiminin dediyinə görə, Sərabın dağ kəndlərinin birində bizim adamlar, guya, ixtişaş salırlar. Bu, düşmən hiyləsidir. Sərabın dağ kəndində baş verən hadisəni Sərab əmniyyə nümayəndələrilə birlikdə yoxlamağı sizə tapşırıram. Ehtiyatlı olun, orada hər cür fitnə baş verə bilər”.

Maşınla Səraba gəldik. Dağlara atla getməli idik. Sərabın əmniyyə rəisi ilə görüşdük. Bizimlə görüşməkdən boyun qaçırdı: “Dağ kəndlərində bizi öldürə bilərlər. Bir neçə kənddə əmniyyələrimizin silahlarını alıblar” – dedi. Zamin olduq ki, bizimlə getsələr, onlara toxunmazlar. Mən at sürməyi bacarırdım.

Təhkim olunduğum süvari diviziyasının komandiri, polkovnik Alekseyevin tapşırığı ilə dağıstanlı bir mayor Təbriz düzənlərində, dağlarında mənə at çapmağı öyrətmişdi. Sən demə, Həsən Şahgəldiyev heç ata minməyibmiş. Mən əmniyyələrlə birlikdə atlarımızı dağlara doğru çapır və hərdən ara verib, bizdən çox geridə qalmış Həsəni gözləyirdim. Yolda əmniyyə rəisi məni qəribə bir vəziyyətə salmağa təşəbbüs etdi:

– Ağa, sol tərəfə baxın, canavardır. Bu yerlərdə çox canavar olur.

Diqqətlə baxdım. Canavara oxşayırdı. O, məni tələsdirdi:

– Ağa, canavardır. Tez nişan alın, qaça bilər!

Mən gözlərimi uzaqdakı nöqtəyə zilləmişdim. Çox çəkmədi ki, rəisin canavar dediyi kəndli ayağa qalxdı. Demə, namaz qılırmış. Rəis pərt oldu. Fitnəsi baş tutmamışdı.

Kəndə çatdıq. Əhali toplaşdı. Xanın evi qarət olunmuşdu. Namusuna toxunulmuş qızlar, xanın oğlu tərəfindən döyülmüş kənd cavanları və əzab, işgəncə çəkmiş qoca kişilər, qarılar bizə odlu şikayətlər etdilər. Xanın evindən aparılmış əşya geri qaytarıldı, lakin xanın və oğlunun harada olduğu aydınlaşmadı. Əmniyyə rəisinə dedim ki: “Hanı burda sovet adamları? Hanı sovet vətəndaşları? Siz niyə zülmünüzdən cana gəlmiş adamların sizə qarşı çıxışını bizim ünvanımıza yazırsınız?”.

***(ardı var)***

# Milli bədii sözün çağdaş həqiqət axtarışı

## *Ölkəmizdə Azərbaycan Dili və Ədəbiyyatı Forumu davam edir*

**Mədəniyyətin inkişafında əsas lokomotivin dil və ədəbiyyat olduğu danılmaz həqiqətdir. Filologiya və pedaqogika elmləri isə bu konsepsiyanı reallaşdıran başlıca sahələrdir. Geniş elmi və ədəbi ictimaiyyətin cəlb olunduğu Azərbaycan Dili və Ədəbiyyatı Forumunda aparılan müzakirələr məhz bu mövzuları əhatə edir.**



Qeyd edək ki, Heydər Əliyev Fondu ilə Mədəniyyət nazirliyinin təşkilatçılığı, Elm və Təhsil nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə keçirilən ilk forum sentyabrın 1-də qədim söz-sənət diyarı Şamaxıda başlanıb. Orada açılışa həsr olunan ədəbi-bədii proqram təqdim edildikdən sonra çıxışlarda tədbirin məram və məqsədləri açıqlanıb. Ardınca qloballaşma və zamanın çağırışları kontekstində ana dilimizin qorunması məsələləri ətraflı müzakirə edilib.

Dünən isə forum Bakıdakı "Gülüstan" sarayında davam edib. İlk panel iclası "Teatr və kinonun inkişafında ədəbiyyat faktoru: əsərdən səhnəyə, səhnədən ekrana" mövzusuna həsr olunub. Moderatoru kinodramaturq İlqar Fəhmi olan panel iclasda Əməkdar incəsənət xadimi Əli Əmirli, yazıçılar Elçin Hüseynbəyli, Varis Yolçuyev, ədəbi tənqidçi Əsəd Cahangir və "Ədəbiyyat" qəzetinin baş redaktoru Azər Turan iştirak ediblər.

Paneldə "Müasir Azərbaycan dramaturgiyası və onun problemləri", "Azərbaycan ədəbiyyatında teatr və kino platforması", "Kino sənətində dil və tərcümə problemləri", "Ədəbiyyatın cəmiyyətə çatdırılması metodikası: beynəlxalq təcrübədə bu istiqamətdə tətbiq olunan innovasiyalar" və sair mövzularda məruzələr dinlənilib, çıxışlar olub.

Forum çərçivəsində günün digər panel iclası "Uşaq və yeniyetmələr arasında mütaliənin təbliği. Azərbaycan uşaq ədəbiyyatının vəziyyəti" mövzusuna həsr olunub. Yazıçı Günel Əsgərovanın moderatorluğu ilə keçən iclasda Elm və Təhsil nazirliyinin şöbə müdiri Vəfa Yaqubova, yazarlar Zahid Xəlil, Rafiq Yusifoğlu, Reyhan Yusifqızı, Sevinc Nuruqızı, Qəşəm Nəcəfzadə və Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri Elnarə Akimova iştirak ediblər.

Paneldə "Ədəbiyyatın cəmiyyətə çatdırılması metodikası: beynəlxalq təcrübədə bu istiqamətdə tətbiq olunan innovasiyalar", "Uşaq ədəbiyyatının ideoloji mahiyyəti və müasir problemləri", "Mədəni və ədəbi qaynaqların müəyyənləşməsində uşaq ədəbiyyatı nə dərəcədə rola malikdir?", "Uşaqlarda mütaliə mədəniyyətinin formalaşdırılması üçün hansı maarifçi islahatlara ehtiyac var?", "Oxucu–naşir–müəllif vəhdəti gözlənilən nəticəni verirmi?", "Təhsildə ana dili və uşaq ədəbiyyatının rolu", həmçinin digər mövzularda məruzələr dinlənilib.

Panel başa çatandan sonra forumun iştirakçılarından qısa müsahibələr aldıq.

**İbrahim İlyaslı, AYB "Poeziya seksiyası"nın rəhbəri:**



– Ulu öndər Heydər Əliyevin dediyi kimi, hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dili və ədəbiyyatıdır. Bu mənada, ilk dəfə olaraq Azərbaycan dili və ədəbiyyatına həsr olunan forumun təşkili son dərəcə təqdirəlayiqdir. Panel iclasları yüksək səviyyədə keçir. Mən kinodramaturq İlqar Fəhminin moderatorluğu ilə müzakirəyə çıxarılan "Teatr və kinonun inkişafında ədəbiyyat faktoru: əsərdən səhnəyə, səhnədən ekrana" mövzusunda müzakirələri xüsusilə bəyəndim. Faydalı polemika oldu, fikir mübadilələri sayəsində perspektiv vəzifələrə konkret aydınlıq gətirildi. İnanıram ki, forumda söylənilən fikirlər, təkliflər diqqətə alınacaq və gələcəkdə ana dili və ədəbiyyatımızın daha da inkişafına kömək edəcək.

**Baba Vəziroğlu, şair, dramaturq, Əməkdar incəsənət xadimi:**



– Əvvəlcə Şamaxıda, sonra isə Bakıda yüksək səviyyədə təşkil olunan forumdan son dərəcə razıyam. Onu xüsusi olaraq vurğulayım ki, Mədəniyyət Nazirliyinin yeni rəhbərliyinin möhtərəm Prezidentimizin qarşıya qoyduğu konkret vəzifələrin icrası ilə bağlı atdığı addımlar sevindiricidir. Bu qurum öz birbaşa missiyalarını layiqincə yerinə yetirir. Bundan əvvəl iştirakçısı olduğum Kino forumu da, elə Azərbaycan dili və ədəbiyyatına həsr olunan bu forum da göstərir ki, hər şey öz məcrasında rəvan şəkildə getməkdədir. Müzakirə olunan məsələlərə gəlincə isə deyim ki, işgüzar ruh, konkretlik və tərəqqi əzmi təqdirəlayiqdir.

Söz bayramı sabah davam etdiriləcək. Mədəniyyətimizin yaşadılması, inkişafı və təbliğində Azərbaycan dili və ədəbiyyatının rolu, müasir ədəbi proseslər, milli kitab sənayesinin mövcud vəziyyəti bu sahəyə dövlət dəstəyi və digər istiqamətlərdə müzakirələr aparılacaq.

Qeyd edək ki, Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş forumda səsləndirilən fikir və təkliflər ümumiləşdirilərək, "Azərbaycan mədəniyyəti–2040" Dövlət Proqramına daxil ediləcək.

**Əli NƏCƏFXANLI,**
**XQ**

# Peşə seçimi – ictimai kimliyin özülü

**Təhsil almaq nə üçün önəmlidir? Peşə, ixtisas seçərkən nələrə diqqət etmək vacibdir? Əvvəlcə ondan başlayaq ki, təhsil insanın təməl hüququdur. Demək olar ki, hər kəs təhsilin vacibliyini qəbul edir. Roma filosofu P.Sirius deyib: "Təhsili ancaq cahillər inkar edər".**



**Şəhla ASLAN,**
**Təhsil araşdırmaları üzrə doktorant**

Ali təhsil müəssisələrinə qəbul olmuş tələbələrin ixtisas seçimi ərəfəsində bu mövzuya toxunmağımız təsadüfi deyil. Perspektivli, etibarlı gələcək üçün təhsil sahəsinin düzgün seçilməsi vacibdir.

Bu gün dünya iqtisadçıları "Çağımızda ən yaxşı kapital təhsilə qoyulan investisiyadır", – deyirlər. Sözsüz ki, təhsilə sərmayə yatırımı sosial məsuliyyət tələbi olaraq fərd, təşkilat və cəmiyyət üçün qoyulan investisiyadır. Təhsilin lazımsız investisiya və vaxt itkisi olduğu fikri artıq keçərli deyil.

Təhsilin verdiyi reputasiya həm də insanın özünə güvənməsinə şərait yaradır. Diqqət yetirin ki, qorxular, adətən, məlumatsızlıqdan, nadanlıqdan qaynaqlanır. Biz yeni bir şeyi öyrənəndə görürük ki, əslində, o qədər də çətin deyilmiş. Buna nail olmağın yeganə yolu yenə də oxumaqdır.

Digər tərəfdən, təhsil təkcə fərdi üstünlüklər demək deyil. Bu, həm də bir çox sosial faydaları təmin edir. Savadlı cəmiyyətlərdə problemlər daha asan həll olunur, həyat keyfiyyəti daha yüksək olur, sosial sülh daha asan əldə edilir. Savadlı cəmiyyətlərdə cinayət nisbəti də xeyli aşağıdır. İnsanlar sosial həyat tərzini, yaşadıqları mədəni və sosial dəyərləri o cəmiyyət üçün ideal şəkildə hazırlanmış bir təhsillə öyrənirlər.

Təhsil önəmli olduğu qədər, düzgün peşə–ixtisas seçimi də vacibdir. Yeri gəlmişkən, peşə ilə ixtisas fərqli anlayışlardır. Bunlar bəzən eyniləşdirilir. Azərbaycan dilinin izahlı lüğətində peşə–sənət, iş, məşğuliyyət kimi, ixtisas – elm, texnikanın, sənətin, yaxud incəsənətin ayrıca sahəsi, xüsusi hazırlıq nəticəsində əldə edilmiş bilik, sənət, peşə kimi xarakterizə edilir. Peşə daha geniş anlayışdır. İxtisas isə peşənin nisbətən dar, konkret bir sahəsi üzrə olan məşğuliyyət növünə deyilir.

Peşə seçərkən diqqət edilməsi vacib olan çox önəmli nüanslar var. Məsələn, seçilən peşə nüfuzlu və maraqlı olmalı, sahibini özünə cəlb etməli, əmək şəraiti, peşənin maaşı nəzərə alınmalı, seçim bazarın tələblərinə uyğun və gələcək karyera üçün təminatlı olmalıdır.

Təxmini hesablamalara görə, dünyada 3 mindən artıq peşə, 40 mindən çox ixtisas var. İqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq, yeni-yeni istehsal sahələri və bunlara müvafiq yeni peşələr, ixtisaslar yaranır. Təcrübə göstərir ki, müasir dövrdə peşələrin kəmiyyət və keyfiyyət etibarı ilə kifayət qədər çoxspektrli və rəngarəng olması bəzən yeniyetmələrin düzgün və zəruri seçim edə bilməmələrinə səbəb olur.

Təbii ki, peşə seçərkən valideynlərin və mütəxəssislərin fikirləri nəzərə alınmalıdır. Lakin abituriyentin öz istək və arzuları əsas olmalıdır. Təsirə düşüb peşə seçimi etmək şəxsin iş həyatında uğursuzluğuna səbəb ola bilər, ali təhsil aldığı sahədə işləməyə marağı azaldar. Ona görə də abituriyent peşə seçərkən bunun müsbət və mənfi cəhətləri və s. detallı şəkildə araşdırılmalıdır.

Ayrıca, sənayenin, texnologiyanın və digər sahələrin durmadan artan inkişaf səviyyəsi, İKT-nin həyatımızın bir çox sahələrinə nüfuzu, neft və qeyri-neft sektorunda yeni texnika və texnologiyaların tətbiqi, hərbi sənayenin inkişafı və digər bir sıra sahələrdə yeni peşə və ixtisaslara tələbatı artırır. Əmək bazarının hazırkı və gələcəyi nəzərə almaq, işsizlik, başqa sahələrdə işləmək məcburiyyəti ilə üzləşməmək üçün bu tələbləri nəzərə almaq lazımdır.

Çox təəssüf ki, bəzən valideynlər övladlarının peşə-ixtisas seçiminə ciddi yanaşmırlar. Çox vaxt bu seçimdə onların səhv etdikləri deyir, bəzən də səhv edəcəklərindən ehtiyatlanırlar. Əksər hallarda isə valideynlər övladlarını necə görmək istəyirlərsə, bu istəklərini də həyata keçirmək üçün onların seçimini özləri yerinə yetirməyə çalışırlar. Nəticədə də səhvlərə yol verilir ki, bunu da sonradan düzəltmək çox çətin olur. Bu baxımdan abituriyentlər seçəcəkləri peşə ilə bağlı onları inandırmağa çalışmalıdırlar.

Bizə yazırlar

# Bursa–Masallı qardaşlığı



**Son onilliklərin leksikonunda "Qardaşlaşmış şəhərlər" ifadəsinə tez-tez rast gəlinir. Bakının, Gəncənin, Sumqayıtın, Lənkəranın ayrı-ayrı ölkələrin şəhərləri ilə sıx dostluq əlaqələri buna misal ola bilər. Son vaxtlar isə Bursa-Masallı qardaşlığından bəhs edilməsi fərəh doğurur.**

Bu günlərdə Masallıda tanış olduğum bursalı ziyalılar – Türkiyə Qazilər və Şəhid Aileləri Vəqfi Bursa Başqanı, Kibris qazisi Fikri Özder və "Gələcəyin İnsanları Məkanı, Gələcəyin İmkanları Məkanı – Azərbaycan Deyincə" ("GİM AZDER") dərnəyinin sədri Hüseyn Vəliyevlə söhbətimiz bu barədə oldu. Azərbaycana ilk dəfə səfər etdiyini söyləyən Fikri Özdər dedi ki, Bakıda "Deportasiya qurbanlarının qayıdış imkanlarının reallaşdırılması istiqamətində beynəlxalq təcrübə" adlı konfransa dəvətli idi: "Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının Avropa Birliyi Şərq Tərəfdaşlığı ölkələri Vətəndaş Cəmiyyəti Platformasında təqdimatı və icmalarda təşviqi" adlı layihə çərçivəsində tədbirlərdə iştirak etdikdən sonra ilk olaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycan ordusunun rəşadəti sayəsində 44 günlük Vətən müharibəsində qazanılan Zəfərə gedən yolun təməlini qoymuş Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etdik. Səfər proqramımıza, həmçinin Bakı şəhərində Milli Qəhrəmanlar Polad Həşimov və Şirin Mirzəyevin, Masallı rayonunda Aprel döyüşləri qəhrəmanı Nurlan Əsgərli və Vətən Müharibəsi Qəhrəmanı İntiqam Əsgərli şəhid qardaşlarının, Tovuz döyüşləri şəhidi mayor Anar Novruzovun, Yardımlı rayonunda şəhid Mahmud Mayıllının ailə üzvləri ilə görüşlər, Masallı Qəhrəmanlar Parkındakı "Şəhidlər" abidə kompleksinin, ayrı-ayrı qəsəbə və kəndlərdə şəhidlərin məzarlarının ziyarəti daxil idi. Doğrusu, çox duyğulandıq".

"GİM AZDER" dərnəyinin sədri, soydaşımız Hüseyn Vəliyev əlavə etdi ki, onların təşəbbüsü və dəstəyi ilə Bursada yerli bələdiyyə Azərbaycanın Milli Qəhrəmanları Polad Həşimovun (Osmanqazi rayonunun Dəmirtaş bölgəsində) və Şirin Mirzəyevin (Karacabey rayonunda) adını daşıyan parklar açıb, Məzahir Rüstəmov adına parkın isə (Keles rayonunda) təməli qoyulub. "Bu, Türkiyə–Azərbaycan qardaşlıq və dostluq münasibətlərinin bariz nümunəsidir. İki qardaş ölkə ilə bağlı geniş layihələrin gerçəkləşməsindən ötrü əlimizdən gələni əsirgəmirik. Əminik ki, Azərbaycanın bir neçə rayon və şəhərləri kimi, Masallı da Bursa ilə qardaşlaşmış şəhərlər siyahısına daxil olacaq".

"Qardaş ölkələr, qardaş şəhərlər" devizini rəhbər tutub yola çıxan nəcib insanların iştirakı ilə Masallıda, şəhid Anar Novruzovun ruhuna ehsan süfrəsi açılıb və oraya şəhid ailələrinin üzvləri ilə qazilər dəvət edilibilər.

Onu da öyrəndik ki, bu yaxınlarda Bursada şəhid mayor Anar Novruzovun adına Mədəniyyət Evinin yaradılması və digər işlər də nəzərdə tutulub. Şəhidlərin və müharibə iştirakçılarının övladlarının Türkiyədə təhsil almasına dəstək olmaq, şəhid ailələrinin qarşılıqlı olaraq Türkiyəyə və Azərbaycana səfərləri təşkil etmək üçün də hazırlıqlar görülür.

Əsas məram milli-mədəni dəyərlərimizin, qəhrəmanlarımızın tanıdılmasıdır.

**Akif AĞAYEV,**
**Masallıda çıxan "Yeni həyat" qəzetinin əməkdaşı**

# "Tərs axın"ın susqun nəğmələri

**Yazıçı Vaqif Sultanlının "Tərs axın" hekayələr kitabı nəşr olunub. Azərbaycan Dövlət Nəşriyyatında yayımlanan kitaba müəllifin müxtəlif illərdə qələmə aldığı 30-dan çox hekayəsi daxil edilib. Kitabın redaktoru və "Ön söz"ün müəllifi Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Elnarə Akimovadır.**




Kitaba müəllifin tarixi və müasir mövzularda yazılmış "Yovşan ətri", "Ağ yol", "Yarpaqsız budaqların yaşıl nəğməsi", "Vətən", "Səhər dumanı", "Mağara", "Xurmayı saçlar", "Qütb gecəsi", "Kor düyün", "İlan əfsanəsi", "İlğım", "Kufi xətti", "Zolaqlı yuva", "Çarpaz kölgə", "Budda heykəli", "Nəvayi-Qumru", "Humayun", "Kulikovo döyüşü" və başqa hekayələri daxil edilmişdir. Bu əsərlərin əksəriyyəti Azərbaycan mətbuatında dərc edilib, bəziləri isə oxuculara ilk dəfə təqdim olunur. Hekayələrin əsas mövzusu çağdaş dünyanı və yaşadığımız cəmiyyəti rahatsız edən mənəvi aşınma, əxlaqi çöküş, özgələşmə kimi ciddi sosial problemlərə söykənir. Real və şərti-metaforik üslubun kəsişimində qələmə alınan yazılarda müəllif mənsub olduğu sosial mühitin girovuna çevrilən insanların duyğu, düşüncə, həyəcan, sarsıntı və iztirablarını əks etdirməyə çalışmışdır.

Müəllifin məqsədi hansısa ömür hekayətini anlatmaq deyil. O, təhkiyəsinin mənəvi, bədii, coğrafi sərhədlərini genişləndirərək insan obrazını ümumiləşdirir, onu hardasa lokal çərçivədən çıxarır, çağdaş dövrümüzün problemləri, gerçəkləri fonunda insan faktoru mövzusuna baxış edir: "Zaman və fərd qarşıdurmasının, həyat-ölüm problematikasının pafosdan uzaq bədii həllini verməyə çalışır".

Bütövlükdə, dil-üslub, forma-məzmun rəngarəngliyi ilə seçilən hekayələr müəllifin yaradıcılıq xronologiyasının real, gerçək mənzərəsinin canlandırılması baxımından maraq doğurur.

**XQ**

# Albaniyada Azərbaycan rüzgarı



**Albaniyanın paytaxtı Tirana şəhərində Azərbaycan Mədəniyyəti həftəsi davam edir. Dünən Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Tirananın mərkəzi İsgəndər Bəy meydanında Azərbaycan ritmlərini və rəqslərini özündə əks etdirən möhtəşəm konsert proqramı təqdim olunub.**

Konsertdə "Natiq" ritm qrupu, "Mirvari" rəqs ansamblı rəngarəng proqramla çıxış ediblər. "Qavaldaş", "Qarabağ", "Yanardağ", "Mehriban", "Sarı gəlin" və s. kompozisiyalar Albaniya tamaşaçılarının alqışları ilə qarşılanıb.

Musiqi və rəqslərimizin ecazkar çələngi ilə bərabər səhnədəki monitorda Azərbaycanın tarixi, coğrafiyası, milli xalçalarımız, şəbəkə sənəti, İçərişəhər, Şuşa və Cıdır düzünün görüntüləri də izləyicilərin böyük marağına səbəb olub.

Konsertin sonunda UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil olan milli rəqsimiz – "Yallı" sədaları altında bütün auditoriya rəqs edib və konsert tamaşaçıları "Qarabağ Azərbaycandır!" şüarı ilə yekunlaşıb.

Eyni gündə Tiranada yerləşən Albaniya Milli Kitabxanasında ölkəmiz, eləcə də Qarabağ, Ulu öndər Heydər Əliyev, mədəniyyətimiz barədə kitablardan ibarət sərgi təşkil olunub. Bununla yanaşı, VR virtual reallıq qurğuları istifadə edərək Azərbaycanla virtual tanışlıq yaradılıb.

**XQ**

# Neftin qiyməti nədən asılı olacaq?

**Londonun ICE birjasında keçirilən hərraclarda Brent markalı neftin bir barelinin qiyməti 84,29 dollara düşüb. İki gün əvvəl isə bu markadan olan neft 88,09 dollara satılmışdı. Ekspertlər etiraf ediblər ki, payızda neftin bir barelinin qiyməti 85 dollar səviyyəsində dayana bilər.**

Bəs, yanacağın qiymətinin aşağı düşməsinə səbəb nədir? Bu ilk növbədə Çinlə bağlıdır. Dünyada yanacaq sərfiyyatına görə ABŞ və Avropadan sonra üçüncü yerdə Çin qərarlaşıb. Bu ölkənin iqtisadiyyatı ilə bağlı məlumatlar bazara təsir edib. Belə ki, iyul ayında Çində sənaye istehsalı ötən ilin eyni ayı ilə müqayisədə 3,7 faiz artıb. Proqnoza görə isə sənaye istehsalı 4,4 faiz artmalı idi. Yəni, nəzərdə tutulmuş artım qeydə alınmayıb. Məlumatın dərcindən sonra neft ucuzlaşmağa başlayıb. Amma bunu təhlükəli hesab etmək olmaz. Neftin bir barelinin qiyməti 60-70 dollara düşsəydi, o zaman bu, çox narahatlıq yaradardı.



## Ekspert rəyi

**Əhməd TALIBOV, professor**



OPEC+ 2024-cü ildən etibarən gündəlik neft hasilatını daha 1,4 milyon barel azaldacaq. Nəticədə gündəlik neft hasilatı 40,46 milyon barel olacaq. Alyansa Rusiya, Azərbaycan, Bəhreyn, Bruney, Qazaxıstan, Malayziya, Meksika, Oman, Sudan, Cənubi Sudan daxildir. Bu qərar neft bazarında sabitliyə nail olmaq məqsədilə qəbul edilib.

Azərbaycan da bu alyansın üzvüdür və əsas valyuta gəliri neft satışından əldə olunur. Ona görə də stabil qiymət ölkəmizin maraqlarına xidmət edir. Dünya bazarında Azərbaycan nefti öz keyfiyyətilə fərqlənir və Brend markalı neftdən baha satılır. Ötən birjada "Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,65 dollar artaraq 89,86 dollar olub.

Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 60 ABŞ dollarından hesablanıb. Neftin qiymətinin yüksəlməsi Azərbaycan iqtisadiyyatının inkişafı üçün çox böyük təkandır. Xaricdən investisiya yox, daxili imkanlar hesabına iqtisadiyyatımızı gücləndirə bilərik. Qiymət artımı büdcəyə əlavə pulun daxil olması deməkdir. Düzdür, neftin qiyməti bəzi hallarda yüksəlir, bəzən azalır. Buna əsasən münaqişələr səbəb olur. Mənim fikrimcə, neftin qiyməti ilin sonunda 86-90 dollar olacaq. Bu da o deməkdir ki, Azərbaycan büdcəsinə əlavə pul gələcək.

Xatırladım ki "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

Bu ilin yanvar-mart aylarında Azərbaycan 179 401,11 min ABŞ dolları dəyərində 300 328,53 ton neft məhsulları ixrac edib. Azərbaycanın ixrac etdiyi neft məhsullarının dəyəri 2022-ci ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 97 faiz, həcmi isə 89,2 faiz artıb.

Payızda qiymət necə dəyişə bilər? İki məsələ diqqət mərkəzində olacaq. Birincisi,

ABŞ Federal Ehtiyat Sistemi çox güman ki, əsas faiz dərəcəsini artırmayacaq. OPEC+ alyansı çərçivəsində isə neft hasilatının parametrləri əvvəllər açıqlanmışdı. Bildirilmişdi ki, kotirovkalar bir barel üçün 80-86 dollar arasında dəyişə bilər, lakin ümumilikdə, ən çox ehtimal olunan diapazon 80-85 dollardır.

Milli Enerji Təhlükəsizliyi Fondunun aparıcı analitiki İqor Yuşkov bildirib ki, ABŞ Federal Ehtiyat Sisteminin uçot dərəcəsini artırması səmərəli deyil. Çünki bu halda iqtisadiyyat ləngiyir: müəssisələr bahalı kreditlər almır, sənaye inkişaf etmir. Bundan əlavə, iqtisadiyyatda pul azdır və birjaya daha az pul daxil olur. Əmtəələrə, o cümlədən neft fyuçerslərinə tələbat da azalır. Müvafiq olaraq, onlar ucuzlaşır. Neftə də tələbat azalır. Deməli, uçot dərəcəsinin artırılması gözlənilən deyil.

İkincisi, payızda neft kotirovkalarının səviyyəsi həm də Çindəki neftə tələbatdan və digər OPEC+ ölkələri ilə yanaşı Səudiyyə Ərəbistanının mövqeyindən asılı olacaq. İndi Çin az-çox koronavirus pandemiyasından sağaldığını, neftə tələbatının artdığını açıqlayıb. Deməli, Çin sənayesinin inkişafı bərpa olunacaq, hava nəqliyyatının həcmi artacaq və bu amil neftin qiymətinin artmasına səbəb ola bilər.

Əsas intriqa səudiyyəlilərin və OPEC+ alyansının üzv ölkələrinin neft hasilatının azaldılmasını oktyabr ayına qədər uzadıb-uzadmayacağıdır. Bu amil qiymətə təsir edəcək.

Xatırladaq ki, Səudiyyə Ərəbistanı neft hasilatını gündəlik 1 milyon barel azaltmışdı. Bunu yalnız iyul ayı üçün qəbul edildiyini, sonra avqust və sentyabr aylarına qədər uzatdığını açıqlamışdı. Sentyabrda Brent markalı neftin bir barreli üçün qiymət 85 dollardan yuxarı qalarsa, Ər-Riyadın hasilat həcmini artırmağa başlaması mümkündür. Lakin OPEC+ kvotalarının eyni səviyyədə qalacağı ehtimalı var. Deməli, istənilən halda neftin ucuzlaşması gözlənən deyil.

**Pünhan ƏFƏNDİYEV, XQ**



# Polşa silahlı qüvvələrinin sayını 300 minə çatdıracaq

**Polşa 2035-ci ilə qədər peşəkar hərbçilər və könüllülərlə silahlı qüvvələrinin sayını 300 minə çatdırmağı planlaşdırır. Belə ki, Rusiyanın qonşu Ukraynaya genişmiqyaslı hərbi müdaxiləsi cəmiyyətin bütün təbəqələrindən olan polyakları könüllü kimi qeydiyyatdan keçməyə sövq edib.**

5-ci Mazovets Ərazi Müdafiə Briqadasının komandir müavini, polkovnik-leytenant Qjeqorj Podolşanski deyir ki, onun briqadasında təlimlərə tələb artıb. "Bu il 800 əsgər cəlb etməyi və təlim keçməyi planlaşdırırdıq. Amma iyun ayına qədər 200 könüllü divarlarımızın arxasında gözləyəndə və eyni zamanda, şərq sərhədinin o tayında nə baş verdiyini bildiyimiz üçün biz təlimlərdə olan əsgərlərin sayını iki yüz nəfər artırdıq və hədəfimiz 1100-ə çatmaqdır".

Ərazi müdafiəsinə qoşulmaq üçün əsas tələblər, ən azı, 18 yaş və Polşa vətəndaşı olmaqdır. Sebastyan Nikityukun 19 yaşı var, o, yayın bir hissəsini təlimlərdə keçirmək qərarına gəlib. "Mən indi tətildəyəm. Məktəbi bitirməyimə daha bir il var. Məzun olduqdan sonra kiber-təhlükəsizlik üzrə təhsil alaraq, peşəkar hərbçi olmağı planlaşdırıram".

Nikityuk 5-ci Mazoviya Ərazi Müdafiəsi Briqadası üçün 16 günlük əsas təlimdən sonra yekun imtahan verən 80 nəfərdən biridir. Testlər atış və ilk yardımdan tutmuş, taktiki məşqlərə kimi doqquz hissədən ibarətdir.

İşə qəbul edilənlərdən biri də yük maşını sürücüsü Kamil Strzalkovskidir. O, testlərin hamısını keçəcəyinə əmindir. "Fiziki cəhətdən bu məşqlər çətindir. Xüsusilə də kimsə formada deyilsə. Amma 35 yaşıma baxmayaraq, bunun öhdəsindən yaxşı gələ bilərəm".

İşə qəbul edilənlərin heç biri öz işini tərk etməməlidir. Ərazi müdafiə xidməti insanlara mülki və hərbi həyatlarını birlikdə idarə etməyə imkan verir. Əsgərin tam və ya yarım ştatlı əsgər olmaq seçimi var. Olqa Kravçuk-Maxeran: "Onlar hər ayın bir həftə sonu iki gün ərzində bölməyə gəlmək və məşq etmək məcburiyyətindədirlər. Amma qalan vaxt əsasən öz mülki həyatlarını istədikləri kimi yaşaya bilərlər. Və biz hər zaman tapşırılan hər şeyi etməyə hazır olmalıyıq".

Kravçuk-Maxeran ordu vəzifələrini son dörd ildə televiziyadakı işi ilə birləşdirib. O, Polşa-Belarus sərhədindəki mövcud vəziyyəti və Ukraynadakı müharibəni nəzərə alaraq, Ərazi Müdafiə Qüvvələrinə qoşulmağın düzgün qərarı olduğunu deyir. "Özümü hazır hiss edirəm, məndə özümü daha təhlükəsiz hiss edəcəyim hərbi keçmişim var. Hazırkı vəziyyətin öhdəsindən gələ biləcəyimi hiss etmək mənim üçün vacibdir".

Hazırda burada 37 min əsgər xidmət edir. Onların 90 faizi yarımştatdır. Rəsmilər qarşıdakı bir neçə ildə bu rəqəmi 50 minə çatdırmağı düşündüklərini deyirlər. Ümumilikdə, Polşa 2035-ci ilə qədər silahlı qüvvələrini iki dəfə artıraraq, 300 minə çatdırmağı planlaşdırır.

**XQ**

# Hirudoterapiya – zəliqoyma kompleks təbii müalicə üsuludur

## *Onunla bədən təmizlənir, güclənir və cavanlaşır*

**Hələ lap qədimlərdən ənənəvi tibblə bərabər alternativ tibbə müraciət etməklə insanlar müxtəlif dərdlərinə çarə arayıblar. Alternativ tibb deyəndə öncə bioenerji, fitoterapiya, iynəbatırma, hicama, arısancma, zəli ilə müalicə yada düşür.**



Bu müalicə üsullarını bir zamanlar ictimai səhiyyəyə yaxın buraxmasalar da, hazırda həkimlər alternativ tibbə müraciət etməyi də məsləhət görürlər. Bir sıra tibb mərkəzləri və müəssisələri alternativ müalicə üsullarından uğurla istifadə edir. Həmsöhbətimiz türkəçarə deyilən qədim müalicə üsullarından hirudoterapiya mütəxəssisi, Moskva Hirudoterapevtlər Alyansının üzvü, yüksək ixtisaslı akupunktura (iynəbatırma) həkimi Şahmar Məmmədovdur. Qeyd edim ki, soydaşımız Azərbaycan Tibb Universitetini bitirdikdən sonra 12 il Rusiya klinikalarında kardioloq kimi çalışıb. 1990-cı ildən isə Bakıdakı 8 saylı poliklinikada fəaliyyət göstərir. Akupunktura və hirudoterapiya ilə məşğul olan 80-ə yaxın həkim özünü onun şagirdi hesab edir. Şahmar Məmmədovun "Akupunktura", "Hirudoterapiya" adlı kitabları ölkəmizdə bu sahədə ilk nəşrlər sayılır. O, həm də şair qəlbli, publisist düşüncəli yazardır. Yaradıcılığı "Qızıl qələm" mükafatına layiq görülüb. Söhbətimizə hirudoterapiyanın tarixindən başlayan Şahmar həkim bildirdi:

– Hirudoterapiya zəli ilə müalicə haqqında elm deməkdir. Dünyada elə xalq yoxdur ki, zəli ilə müalicədən istifadə etməsin. Son 20–25 ildə Avropada, Asiya və Amerikada geniş yayılmağa başlasa da, eramızdan əvvəl Hindistanda və Misirdə bu müalicə üsulundan istifadə edildiyini sübut edən faktlar var. İtaliyanın cənubunda qazıntılar zamanı geyim əşyalarının üstündə zəli şəklinin olması, Romada zəli müalicəsindən istifadə edildiyinə dair sübutlar onu göstərir ki, eramızdan əvvəl xəstə insanlar bu müalicə ilə sağalıblar. O dövrdə təbiblər üç müalicə üsulundan – zəli ilə qan çəkmək, venaseksiya– damardan qan almaq və bədəndə kiçik kəsik açıb onun üzərinə küpə çevirib qan çəkməkdən geniş istifadə ediblər. Ən önəmlisi və təhlükəsizi zəli ilə qan çəkmək olub. Amma o vaxtın həkimləri bilmirdilər ki, zəli bədəndən yalnız qan çəkmir. Sən demə, o, eyni vaxtda bədənə ağız suyu vsitəsilə çoxlu sayda bioloji aktiv maddələr ötürür.

Roma imperiyasının süqutundan sonra Avropada zəli ilə müalicədə durğunluq yaransa da, orta əsrlərdə Kralların hakimiyyəti zamanı qədim yunan tibb elmi dirçəldi. XIX əsrdə bu müalicə üsulu inkişaf etməyə başladı. Fransız bioloqu, mikrobiologiya və immunologiyanın banisi Lui Paster yoluxucu xəstəlikərin mikroblar tərəfindən törədildiyini sübut etdikdən sonra zəli müalicəsi zamanı orqanizmə infeksiya keçmək ehtimalı yarandı və bu müalicə üsulu dayandırıldı. Amma L.Paster insult olarkən həkimlər onun boynuna zəli qoyaraq həyatını xilas etdikdən sonra o, 9 il bu elmlə məşğul olaraq, Paster institutunu yaratdı. XX əsrdə zəli ilə müalicənin yeni dövrü başladı.

**– Doktor, sizdə zəli müalicəsini öyrənmək həvəsi nədən qaynaqlanıb?**

– Ağdamın Mahrızlı kəndindənəm. Uşaq vaxtı kəndin aşağısındakı kəhrizdə yuyunar, çimərdik. Bir dəfə sudan çıxanda ayağıma 3- 4 zəli yapışdığını gördüm. Mən nənəmin başı ağrıyanda boynunun arxasına zəli qoyulduğunu görmüşdüm. Ona görə qorxmadım və zəliləri qoparıb suya atdıqdan sonra ayağımın qanı axa-axa evə gəldim. Mən həmişə payız-qış aylarında zökəm olardım. Amma o hadisədən sonra xəstəliyim keçib getdi. İllər ötdü. Tibb institutunda da axtardığım suallara cavab tapmadım. Rusiyada işləyəndə isə xüsusi kurslarda akupunktura elminə yiyələndim. Sonra öyrəndim ki, zəli ayağımı dişləyəndə onun üfürdüyü 250-dən çox fermentin ayağıma müalicəvi təsiri olub.

**– Müalicə məqsədilə hər növ zəlidən istifadə etmək olarmı?**

– Zəlinin dünyada 400-dən çox (bəzi məlumata görə, 600) növü var. O, 1984-cü ildə "Qırmızı kitab"a daxil edilib. Tibbdə onların yalnız 3 növündən – müalicəvi (tibb zəlisi), aptek və şərq zəlisindən istifadə edilir. Tibbi zəli qara, qonur, yaşıl, qırmızı rənglərdə olur. Belində sarı, qırmızı zolaq və nöqtələr, qarnında alabəzək, tünd sarı ləkələr var. Aptek zəlisinə Macarıstan zəlisi də deyirlər. Rəngi tünd yaşıldır, zolağı var, amma nöqtələr, ləkələr yoxdur. Şərq zəlisinin isə o birilərinə nisbətən rəngi daha parlaqdır. Beli narıncı zolaqlar, qara ləkələrlə örtülüb. Azərbaycanda çox yayılmış bu növ zəli aqressiv və çox hərəkətlidir, amma müalicəvi təsiri də yüksəkdir.

Qeyd edim ki, zəli onurğasızdır, 3 çənəsi var və hərəsində 90 diş mövcuddur. Zəli qan sorduqda dərini 1,5–2 mm dərinlikdə kəsir və sonra dəridə üçbucağa oxşar iz qalır. Maraqlıdır ki, zəlinin 5 cüt gözü, 2 ürəyi, 10 cüt mədə cibciyi var. İybilmə, dadbilmə, isti-soyuğu fərqləndirmə qabiliyyəti var. Azərbaycanda zəlinin 17 növü var. Tibbi məqsəd üçün istifadə edilən zəlilərin rəsmi lisenziyası var, müalicə yalnız özəl klinikalarda aparılır.

**– Zəli müalicəsi nə qədər çəkir? Hər kəs bu işlə evdə məşğul ola bilərmi?**

– Seanslar 3 gündən bir və ya həftədə iki dəfə aparılır. Xəstəliyin gedişindən, müalicənin təsirindən asılı olaraq müalicə kursu 5-10 seans olur. Kurslararası fasilə 1-3 aydır. Bir seansda 2–10 arası zəli qoyulur. Xəstənin çəkisindən asılı olaraq bu say 15-ə çatdırıla bilər. Zəli ilə müalicəni xüsusi hazırlıq kursu keçən hirudoterapevt, yaxud akupunktura ilə məşğul olan həkim apara bilər. Orta tibb işçisinin zəli qoymaq səlahiyyəti yoxdur. O, yalnız həkimin nəzarəti altında işləyə bilər. Onu da deyim ki, müalicədə hər zəlidən yox, yalnız sertifikatı olan apteklərdə satılan zəlidən istifadə edilməlidir.

**– Hansı hallarda və xəstəliklərdə zəli müalicəsi tətbiq edilir?**

– Zəlidən demək olar ki, əksər xəstəliklərin müalicəsində istifadə edilir. Sinir (üz sinirinin nevralgiyası, atereskleroz, osteoxondroz və fəsadları, miqren, parkinson, bexterev, reyno və s.), dayaq-hərəkət aparatı (artroz, revmatoid artrid, podaqra, mahmız və s. ), ginekoloji (xroniki iltihabi, bitişmə, klimaks, hipotalamo və s.), burun-boğaz-qulaq (haymorit, frontit, otit, laringit, rinit, eşitmə sinirinin nefriti və s.), göz (qlaukoma, makulyar ödem, gözün torlu qişasının, görmə sinirinin xəstəlikləri və s.), endokrin (şəkərli diabet, piylənmə, qalxanvari vəz, və s.), travmatoloji (hematoma, sınıq, çıxıq, kontrakturalar və s.), dəri (psoriaz, ekzema. neyrodermit, allergik xəstəliklər və s.), uroloji (prostat vəz, xroniki sistit, sistalgiya və s.), stomatoloji (stomatit, parodontoz), daxili (stenokardiya, kardioskleroz, hipertoniya, bronxit, bronxial astma, kəskin və xroniki qastrit və s.) xəstəliklərdə zəli müalicəsinin aparılması yaxşı nəticələr verir.

**– Zəli qoyulmasına əks-göstəriş varmı, fəsadları nədir?**

– Qanla bağlı problemlərdə zəli qoyulmasına iczə verilmir. Anadangəlmə qan laxtalanmaması (hemofiliya), bədəndə qanaxma zamanı, cərrahi əməliyyatdan bir həftə əvvəl və sonra, vərəm, aşağı hemoqlobin, qrip, anginadan sonra, qandurulducu dərman qəbul etdikdə və bəzi digər hallarda, eləcə də südverən analara zəli proseduruna icazə verilmir. Zəli qoyulduqdan sonra qaşınma, dişləmə yerlərində ödem, limfa vəzlərinin böyüməsi kimi hallar müşahidə edilir. Bununla yanaşı, yaraya düzgün qulluq edilməyəndə absesləşmə, güclənən qanaxma kimi fəsadlar ortaya çıxa bilər. Bəzən ilk seansda allergiya baş verir, belə olanda müalicə dayandırılmalıdır.

**– Zəli müalicəsi ilə bağlı uzun illər ərzində əldə etdiyiniz tibbi təcrübələri, tətbiq etdiyiniz üsulları kitabınızda elmi-populyar üslubda müvafiq oxuculara çatdırmısınız.**

– Kitab hirudoterapiya haqqında Azərbaycan dilində yazılmış ilk elmi-təcrübi əsərdir. Kitabda son illərdə edilən kəşflər, çakralar haqqında məlumat vermişəm. Bu nəşrdə zəli istifadə olunan xəstəliklərin klinikasını, zəli qoyulan nahiyələri, aparılacaq seansların sayını göstərmişəm. Kitab geniş oxucu kütləsi üçün yox, hirudoterapevtlər, akupunktura ilə məşğul olan həkimlər, təbabətlə əlaqəli mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

**– Çakralar dediniz. Onların rolu nədir?**

– Orqanizm kainatdan gələn güclü enerjinin birbaşa təzyiqinə dözə bilməz. Bu enerjinin kiçik zərrəsi insan bədəninə düşsə, bütün orqan və sistemlərdə problem yaradar. Orqanizmin enerji mərkəzləri – çakralar, sanki, işıq transformatoru rolunu oynayıb yüksək enerjini qəbul edir və onun tezliyini azaldaraq bədən üçün ziyansız halda içəri ötürür. Şərq elmində çakra dairə deməkdir. Bu sahələr ətraf mühitdən alınan enerji və informasiyanı bədənə ötürən və onu çıxaran xüsusi enerji mərkəzləridir. Fiziki bədəndə olan konusvari 7 çakra horizontal və vertikal rejimdə işləyir. İnsan biosahəsinin kosmos enerjisi ilə əlaqəsi çakralar vasitəsilə həyata keçirilir.

**– Həcəmət və hirudoterapiya – hansı üstündür?**

– Həcəmət və zəliqoyma prinsipcə bir-birinə yaxın olub uzun əsrlər insanlara xidmət edib. Hər iki müalicənin əsasında kapilyar qanburaxma durur. Həcəmət zamanı dərin toxumalardan limfa və toxumaarası maye dəri səthinə çıxarılaraq axıdılır. Zəli qoyanda isə bədənə üfürülən bioloji aktiv maddələrin təsirindən qan durulaşır, tromblar əriyir, mikrosirkulyasiya yaxşılaşır, zəhərli limfa drenaj olunur, immunitet yüksəlir.

Hər iki müalicə müxtəlif iltihabi xəstəliklərdə, travmalarda, artritlərdə, osteoxondrozlarda, daxili orqanların durğunluğunda və digər xəstəlikərdə istifadə olunur. Amma nəzərə almaq lazımdır ki, kəskin iltihablarda, təzə travmalarda ödemi götürmək üçün həcəmət daha təsirlidir. Hirudoterapiya isə orqanizmin geniş sahələrinə təsir etdiyinə görə ona xüsusi ehtiyac var. Bu barədə kitabımda geniş məlumat var.

**– Kitabınızda zəlinin kosmetologiyada istifadəsi barədə də maraqlı təklifləriniz var.**

– Bəli. Zəli müalicəsinin təbii cavanlaşdırıcı təsiri var. Kosmetologiyada üz qırışlarını götürmək üçün botoksdan istifadə edirlər. Botoks görməni zəiflədir, dəridə səpkilər yaradır, əzələ atrofiyalaşır və təkrar ediləndə müqəvva sifəti yaranır. Zəli isə üzdəki bütün qüsurları götürməklə dərini cavanlaşdırır, ona parlaqlıq gətirir, qocalma əlamətləri aradan qalxır, saç tökülməsi dayanır, ən başlıcası, heç bir fəsad yaranmır.

**– Kitabda 100 suala verilən 100 cavabın hər biri diqqət çəkir...**

– O suallara verilən cavabların əksəriyyəti tibbi təcrübəmə əsaslanır. Amma hər xəstəyə probleminə uygun fərdi yanaşılmalıdır. Kitabdakı məlumatlardan və reseptlərdən istifadə edən həkimlər buna xüsusi diqqət etməlidirlər.

– Ətraflı öyrənilməyən bu sahə ilə bağlı geniş və dolğun məlumat üçün sizə təşəkkür edirik, işlərinizdə uğurlar arzulayırıq.

**Müsahibəni qələmə aldı: Zərifə BƏŞİRQIZI, XQ**

Gənc Tamaşaçılar Teatrı – 95

# Mövzu və janr əlvanlığı

**(1991 – 2023)**

**2-ci məqalə**

**(əvvəli XQ-nin 2 sentyabr nömrəsində)**

Azərbaycan Respublikası ikinci dəfə müstəqilliyinə 1991-ci ilin sonlarında qovuşsa da, teatrın yaradıcılıq konsepsiyasında, repertuar yeniləşməsində, poetikasının yeni estetikada formalaşmasına 1992-ci ildən başlandı. Vətənpərvərlik ruhlu, mənəvi-əxlaqi dəyərlərin ülviyyətindən, insanlarda yeni optimal şüurun formalaşmasından, eləcə də sosial-ictimai tərəqqiyə mane olan, vacib məişət problemlərinə insan mənəviyyatı prizmasından yanaşan pyeslərin tamaşaya qoyulmasına maraq gücləndi. İnsan psixologiyasının mürəkkəbliyi, emosional lirizm, poetik dramatizm tamaşaların ruhunda daha fəal estetik təcəssüm tapırdı.



Mövzu genişliyi teatrda janr əlvanlığına meydan açdı və rejissorlar cəsarətli addımlar atdılar. Teatr bir az qəmli komediya, romantik komediya, gop-komediya, qaravəlli, məzəli oyun, uydurulmuş məzəli hadisə, ekssentrik komediya, qəhrəmanlıq komediyası, qanlı faciə, publisistik faciə, mistik faciə, sənədli fəci dram, lirik-faciəvi məhəbbət hekayəti, kövrək etiraf, nağıl-müzikl, alleqorik nağıl, poetik-pupblisist dram, bir həyatın xronikası, publisistik qrotesk, ibrətamiz tövsiyə, ibrətamiz rəvayət, sənədli elegiya, macəra-hekayət, məhəbbət balladası, monotamaşa, tragifars, dramatik məhəbbət dastanı, psixoloji həqiqətlər dramı, əyləncəli macəra, treller, tək ifa üçün lirik dram janrlarında tamaşalar oynayıb

Müstəqillik illərində Gənc Tamaşaçılar Teatrı ilə yeni dramaturqlar, rəssamlar, bəstəkarlar yaradıcılıq əlaqələri qurublar. Elçinin, Əli Əmirlinin, Əhməd Orucoğlunun, Kamal Abdullanın, Hidayətin, Marat Haqverdiyevin, Tamara Vəliyevanın, Hüseybala Mirələmovun, Aqşin Babayevin, Firuz Mustafanın, Dilsuz Mustafayevin, Rövşən Ağayevin, Aygün Həsənzadənin, Əjdər Olun, Rəvan Tohidoğlunun, Sevinc Elsevərin, Pərvin Nurəliyevanın, Ülviyyə Heydərovanın pyesləri müxtəlif rejissor estetikasında tamaşaya qoyulub. Bu tamaşalar teatra çağdaş zamanla səsləşən fəlsəfi ideyalar, psixoloji fikirlər aşılayıb. Eyni zamanda, tamaşaçılar maraqlı rejissor işiləri, cazibəli aktyor ifaları ilə tanış olublar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 mart 2009-cu ildə verdiyi 41 saylı qərarda göstərilirdi ki, Dövlət Gənclər Teatrı Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına birləşdirilsin. Bu qərarın icrası ilə bağlı Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin 9 aprel 2009-cu ildə 130 saylı əmri verildi. Teatr bütün yaradıcı kollektivi ilə GTT-yə keçdi. Xalq artisti Cənnət Səlimova kollektivə baş rejissor təyin edildi. Cənnət xanımın yaratdığı və rəhbəri olduğu Bakı Kamera Teatrı ləğv edildi və onun aktyorları da GTT-nin truppasına qəbul olundular. Truppaya yeni daxil olan aktyorlar arasında xeyli səriştəli və təcrübəli, həmçinin istedadlı gənc aktyorlar vardı.

1992 – 2023-cü illərdə rejissorlardan Ağakişi Kazımovun "Kiçik təpə" (Nəbi Xəzri), "Ağ div, qara div" (Əli Səmədli), Bəhram Osmanovun "Cəza" (Əli Əmirli), "Hacı Qara" (Mirzə Fətəli Axundzadə), "Yaddaş ağrısı" (Hüseynbala Mirələmov), "Mehmanxana sahibəsi" (Karlo Qoldoni, Vaqif İbrahimoğlunun "Unutmağa kimsə yox" (Kamal Abdulla), Vaqif Əsədovun "Ana laylası" (İsgəndər Coşqun), "Oliver Tvistin macəraları" (Çarlz Dikkens), Möhsün Mürsəlovun "Danışan gəlincik" (Abdulla Şaiq), Rafiq Əliyevin "Nəsrəddin" (Yusif Əzimzadə), Loğman Kərimovun "Qaraca qız" (Abdulla Şaiq), "Mənim ağ göyərçinim" (Tamara Vəliyeva), "Ölüm hökmü" (Elçin), Nicat Kazımovun "Ana qaz" (Rəsul Rza), "Pəri cadu" (Əbdürrəhim bəy Haqverdiyev), Fikrət Sultanovun "Yağış, yağmur və daldan atılan daş" (Nəcəf bəy Vəsirov), Ağaxan Salmanlının "Açarını itirənlər" (Əhməd Orucoğlu), Ağalar İdrisoğlunun "Əcəl atı" (Vaqif Əlixanlı), "Pələng ili" (Firuz Mustafa), Cənnət Səlimovanın "Buzovna kəndinin əhvalatları" (Elçin), "Əlincə qalası" (Dilsuz Mustafayev), Gülnar Hacıyevanın "Bir gecənin nağılı" (Rövşən Ağayev), Mehriban Ələkbərzadənin öz əsəri əsasında "Kod adı: "V.X.A.", Elşad Rəhimzadənin "Qar kraliçası" (Hans Xristian Andersen), Nofəl Əliyevin "Sonluğun sonu" (Rövşən Ağayev), Alya Osmanovanın "Mən öləndə ağlama" (Pərvin Nurəliyeva) pyeslərinə verdikləri quruluşlar müəyyən janr əlvanlığı yaradıb.

## Teatrın fəaliyyət məkanları

Kollektiv yeni yarananda onun binası yox idi və 1929 – 1930-cu illərdə əsasən 33 saylı məktəbdə fəaliyyət göstərib. 1933 – 1935-ci ildə teatr Opera və Balet Teatrı ilə üzbəüz olan "Kolizey" adlı yararsız binaya köçüb. Sonralar bu bina "Temp" adı ilə kinoteatr kimi fəaliyyət göstərib və qırxıncı illərin ikinci yarısında sökülüb. 1935 – 1936-cı il teatr mövsümündə kollektiv 9 Yanvar (Malakanskaya) küçəsindəki 8 nömrəli ünvanda teatra uyğunlaşdırılmış binada fəaliyyət göstərib. Hazırda haqqında söhbət gedən küçə klassik Azərbaycan şairi Xaqaninin adını daşıyır. Həmin yerdə isə Teatr Xadimləri İttifaqı üçün dördmərtəbəli inzibati bina, Aktyor evi tikilib və 1971-ci ildən fəaliyyətə başlayıb. Ünvan isə Xaqani küçəsi, ev 10-dur. 1938-ci ildə Bakıda müstəqil Musiqili Komediya Teatrı yaradılıb. Bir il sonra Xalq Komissarları Sovetinin qərarı ilə Gənc Tamaşaçılar Teatrının binası Muskomediyanın kollektivinə verilib. Gənc Tamaşaçılar Teatrı isə Xalq Komissarlar Soveti yanında İdman Komitəsinin yerləşdiyi binaya köçürülüb. 1939-cu ilin son günlərində Musiqili Komediya Teatrı hazırda Rəşid Behbudov adına Mahnı Teatrı yerləşən binaya köçüb. GTT yenidən 9 Yanvar küçəsindəki ünvana qayıdıb və 1951-ci ilədək həmin binada yerləşib. 1956-cı ildən 1963-cü ilədək isə burada Musiqili Komediya Teatrı fəaliyyət göstərib. Gənc Tamaşaçılar Teatrı 1951-ci ilin sonlarında Nizami küçəsi, 72 ünvanda tikilmiş yeni binaya köçüb. Təntənəli açılış isə 30 dekabrda olub. Binanın tamaşaçı salonu 450 nəfərlik idi. Salonun yarısından sonra oturacaqlar antik teatr üslublu pilləvari qurumda yerləşdirilmişdi. Kollektiv yaradıcılq yolunu 1980-ci ilədək bu binada davam etdirib. 1980-ci ildə qəza vəziyyətində olan bina sökülüb. Səkkiz il ərzində GTT Aktyor evində məskunlaşıb və tamaşalarını da orada göstərib. Memarlar Sənan Salamzadə və Rəhim Seyfullayevin layihəsi əsasında tikilən bina 1988-ci ilin sonunda təhvil verilib. Teatrın kolektivi 1989-cu ilin əvvəlindən başlayaraq, təzə binaya köçüb. Teatr pərdələrini aprel ayında bu binada açıb. 1989-cu ilin aprel ayında açılışı olan yeni binada teatr sənətinin estetik prinsiplərinə və texniki tələblərinə cavab verməyən ciddi qüsurlar vardı. Buna baxmayaraq teatr 18 il bu şəraitdə fəaliyyət göstərib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 fevral 2007-ci il tarixli sərəncamı ilə teatrın binası əsaslı təmir və yenidənqurma üçün bağlanıb. 2009-cu ildə təmir-bərpa işləri başa çatıb.

## Salnamə faktları

Gənc Tamaşaçılar Teatrının direktorları: Vasili Şneybax (1928 – 1935), Məmməd Səlim Tahirli (1936 – 1939), Məhərrəm Haşımov (1939 – 1940), Məmmədsadıq Allahverdiyev (1941 – 1949), Atamoğlan Rzayev (1949 – 1954), Əli İsmayılov (1954 – 1964), Bala Qasımov (1964 – 1973), Eldar İlyasov (1973 – 1975), Məmməd Mərdanov (1976 – 1986), Aydın Teymurbəyov (1987 – 1988), Kamal Əzizov (1988 – 2006), Mübariz Həmidov (2006 – 2018), Naidə İsmayılzadə (1 iyun 2018-cı ildən).

Gənc Tamaşaçılar Teatrı Azərbaycan bölməsinin baş rejissorları: Pavel Velski (1928 – 1932), Soltan Dadaşov (1932 – 1937), Məhərrəm Haşımov (1937 – 1946), Kazım Ziya (1946 – 1947), Həsən Əliyev (1947 – 1951), Tofiq Kazımov (1951 – 1952), Kərim Həsənov (1949 – 1952, 1953 – 1954), Ağəli Dadaşov (1952 – 1953), Zəfər Neymətov (1954 – 1969), Hüseyn Sultanov (1969 – 1972), Ulduz Əliyeva-Rəfili (1973 – 1975), Ağakişi Kazımov (1976 – 1983, 1988 – 2002), Azər



Paşa Nemətov (1983 – 1988), Loğman Kərimov (2002 – 2009), Cənnət Səlimova (2009 – 2012), Bəhram Osmanov (2012 – 2022), Mehriban Ələkbərzadə (1 mart 2022 – 12 may 2023).

*Rəhbərlik*

Direktor: Naidə İsmayılzadə (1 iyun 2018-cı ildən).

Direktor müavini: Gülnarə İbrahimova.

Baş rejissor: Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə 15 may 2023-cü ildə Akademik Milli Dram Teatrına bədii rəhbər təyin olunduğu üçün hələlik baş rejissor yoxdur.

Quruluşçu rejissorlar: Xalq artistləri Cənnət Səlimova, Əməkdar incəsənət xadimi Ağalar Mehdiyev (İdrisoğlu), Əməkdar artist Nicat Kazımov, Elşad Rəhimzadə. Rejissor: Gülnar Hacıyeva. Rejissor assistentləri: Günay Qasımova, Sona Mustafayeva, Gülnar Əliyeva, Fuad Cavadzadə.

Teatrın baş rəssamı Mustafa Mustafayev; quruluşçu rəssam Telman Şıxıyev; dekorçu-rəssam Elnur Babayev.

Truppa müdiri Ələsgər Muradxanlı; Ədəbi-dram müdiri Əməkdar mədəniyyət işçisi Rafiq Rəhimli; musiqi hissə müdiri Şamxal Novruzlu, pedaqoq-təşkilatçı Yeganə Məhərrəmova; baş inzibatçı Bəhmən Hüseynov; quruluş hissə müdiri Zəminə Elbir; quraşdırma sexinin rəisi Zaur Abbasov.

Hazırda Gənc Tamaşaçılar Teatrının truppasında 85 aktyor var.

**Xalq artistləri:** Yasin Qarayev, Qurban İsmayılov, Naibə Allahverdiyeva, Nübar Novruzova.

**Əməkdar artistlər:** Kəmalə Müzəffər (Hüseynova), Vahid Əliyev, Nəsibə Eldarova, Güşvər Şərifova, Şəfəq Əliyeva, Qəmər Məmmədova, Zemfira Əbdülsəmədova, Mehriban Abdullayeva, Şövqi Hüseynov, Elnur Bəhramxan (Hüseynov), Elşən Rüstəmov, Elnur Kərimov, İlham Əsədov, Rasim Cəfərov, Gülər Nəbiyeva, Leyli Vəliyeva, Nofəl Əliyev.

**Aktyorlar:** Manaf Dadaşov, Elşən Hacıbabayev, Ədalət Əbdülsəməd, Xalidə Əliməmmədova, İlqarə Tosova, Natiq Fərzəliyev, Xalidə Şərifova, Simuzər Atakişiyeva, Yasəmən Malik (Məmmədova), Asya Atakişiyeva, Aygün Fətullayeva, Hüsniyyə Əhmədova, Günel Məmmədova, Ceyhun Məmmədov, Yusif Dadaşov, Nuriyyə Əliyeva, Aydın Dəmirov, Anar Seyfullayev, Anar Səfiyev, Şəbnəm Hüseynova, Kərəm Hadızadə, Rövşən Abbasov, İradə Rəşidova, Vüqar Məmmədəliyev, Dilarə Fərəcullayeva, Mehriban Hüseynova, Elşən Şıxəliyev, Zülfiyyə Alhüseynova, Zümrüd Quliyeva, Ramil Məmmədov, Vahid Orucoğlu, Sevinc Mehrəliyeva, Eyvaz İbrahimov, Təhminə Məmmədova, Aybəniz Heydərova, Bəhram Əliheydər (Həsənov), Müşfiq Əliyev, Elgün Yəhyayev, Səbinə Məmmədzadə, Araz Pirimov, Hilal Dəmirov, Rəşad Səfərov, Mirzə Ağa Mirzəyev, Xəyalə Qasımova, Gülbəniz Lətifova, Nuranə Hüseynova, Mirsənan Kazımlı, Könül Əbilova, Xalid Bəkirov, Venera Abbasova, Eldar İmanov, Nurlan Süleymanlı, Ümman Budaqov, Ramiq Nəsirov, Tahir İsmayılov, İmran Qurbanov, İlahə Əmirxanova, Hökümə Rəhimzadə, Fəridə Qurbanova, İmdad Tofiqoğlu (Səfiyev), Mətləb Abuşov.

***

Gənc Tamaşaçılar Teatrı özünün 95 illik yubileyinə hazırlaşır. Teatrın çağdaş repertuarında, kiçik səhnə da daxil olmaqla, 50-dən çox tamaşa var. Onlardan 21-i məktəblilər üçündür. Böyüklər üçün əsas tamaşalar: "Leyli və Məcnun" (Məhəmməd Füzuli), "Lənkəran xanının vəziri", "Müsyö Jordan və dərviş Məstəli şah", "Xırs quldurbasan" (Mirzə Fətəli Axundzadə), "Dəli yığıncağı" (Cəlil Məmmədquluzadə), "Pəri cadu", (Əbdürrəhim bəy Haqverdiyev), "Şeyx Sənan" (Hüseyn Cavid), "Oqtay Eloğlu" (Cəfər Cabbarlı), "Sarıköynəklə Valehin nağılı" (İlyas Əfəndiyev), "Şəhərin qış gecələri" (Anar), "Hasarın o üzü" (Əli Əmirli), "Mənim ağ göyərçinim" (Tamara Vəliyeva), "Kod adı: "V.X.A." (Mehriban Ələkbərzadə), "Romeo və Cülyetta", "III Riçard" (Vilyam Şekspir), "Mehmanxana sahibəsi" (Karlo Qoldoni), "Mən gəldim, qızlar" (Las Nuren), "Qağayı" (Anton Çexov), "Don Kixot" (Migel de Servantes), "Dəlixanada qətl" (Fridrix Dürrenmatt), "Tanrıya on dörd məktub" (Erik Emmanuel Şmitt).

***İlham RƏHİMLİ,***
***professor***

Unudulmaz simalar

**Çoxlarınız, xüsusən də Azərbaycan idmanının yaşlı pərəstişkarları dərhal deyəcəksiniz ki, belə böyük şərəfə layiq görülmüş məşhur insan oyunçu kimi də, məşqçi kimi də ömrünün sonunadək futbola sədaqətlə xidmət etmiş SSRİ idman ustası Əhməd Lətif oğlu Ələsgərovdur. Haqlısınız. O, həyatı Azərbaycan, Ukrayna, Tacikistan və Moldova respublikalarının Əməkdar məşqçisi kimi tərk etmişdir. Baş məşqçi Ə. Ələsgərovun 1966-cı ildə "Neftçi"yə, 1974-cü ildə isə Odessanın "Çernomorets" komandasına Sovet İttifaqı çempionatının bürünc medallarını qazandırdığını da unutmamışıq.**

# Dörd respublikanın Əməkdar məşqçisi

Bildiyimiz kimi, "Neftçi" SSRİ çempionatlarında çıxış etdiyi illər ərzində yalnız bir dəfə, 28-ci turnirin birinci dövrəsindən sonra komandanın "sükanı arxasında" moskvalı mütəxəssis Vasili Sokolovu öz futbolumuzun yetirməsi Ə. Ələsgərov əvəz etdikdən sonra medal qazanmışdır. Nə həmin "bürünc" 66-cı ilədək, nə də ondan sonra komandamız SSRİ çempionatının mükafatçısı ola bilməyib.

Əvəzində Əhməd müəllim özü məşqçi kimi ölkə birinciliyində bir daha təbrikləri qəbul edib. Bu dəfə 1974-cü ildə Odessanın "Çernomorets" komandası-



nın baş məşqçisi rolunda. Maraqlıdır ki, azərbaycanlı mütəxəssis Ukrayna klubuna 1973-cü ildə dəvət olunmuşdu, bundan cəmi bir il sonra isə Odessanın fəxri olan komandanı Sovet İttifaqı çempionatında bürünc zirvəyə yüksəltdi.

Həmyerlimiz bu kollektivi çalışdırdığı dörd-beş il ərzində ona verdiyi töhfələrə görə təkcə yerli futbol həvəskarlarının deyil, bütün odessalıların böyük hörmətini qazanmışdı. Ona Odessa şəhərinin fəxri vətəndaşı, Ukrayna SSR-in Əməkdar məşqçisi adı təsadüfən verilməmişdi. Ötən əsrin yetmişinci illərinin ortalarında azərbaycanlı baş məşqçi Əhməd Ələsgərov Odessada ən sevimli insanlardan biri idi.

Tacikistan və Moldovada da onun məşqçi bacarığına biganə qalmadılar. Düşənbənin "Pamir", Kişinyovun "Nistru və Tiraspolun "Şerif" komandaları Ə.Ələsgərovun başçılığı ilə 1970–1990-cı illərdə müəyyən uğurlara nail olmuşdular. Həmin kollektivlərdə yüksəlişin əsas səbəbkarı məşqçi idi.

Statistikaya görə, Ə.Ələsgərov 1960–1965-ci illərdə "Neftçi"nin heyətində SSRİ çempionatının güclülər dəstəsində 115 oyunun iştirakçısı olmuş və bu görüşlərdə rəqiblərin qapısından 6 top keçirmişdir. O, "bürünc" mövsümdən sonra, 1967–1970-ci illərdə də Anatoli Banişevski, Kazbek Tuayev, Adil və Yaşar Babayevlər, Sergey Kramarenko, Mübariz Zeynalov, Valeri Hacıyev, Vyaçeslav Semiqlazov, Aleksandr Trofimov, Anatoli Qryazev kimi usta futbolçularla birlikdə respublikanın 1 nömrəli komandasında fəaliyyətini davam etdirmişdir. Bundan əlavə, dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan milli komandası beynəlxalq meydanda özünün ilk görüşünü məhz Ə.Ələsgərovun rəhbərliyi ilə keçirmişdir. Bu oyun 1992-ci ildə Gürcaani şəhərində Gürcüstan yığması ilə olmuşdur.

Ə.Ələsgərov Azərbaycan milli komandasının baş məşqçisi olarkən ən uğurlu oyunlarından biri 1999-cu ilin payızına təsadüf etmişdir. Həmin ilin baharında yığmamız Avropa çempionatının seçmə mərhələsi çərçivəsində səfərdə Portuqaliya ilə görüşdə ağır məğlubiyyətə uğramışdı (0:7). Cavab matçı isə sentyabrın 3-nə təyin edilmişdi. Lakin həmin gün rəqiblər yalnız bir hissə oynaya bildilər. İlk 45 dəqiqədə hesab açılmadı. Fasilədə isə gözlənilmədən stadionda işıqlar söndü. Nəticədə, iki ölkənin futbol federasiyaları arasında qarşılıqlı razılıq əsasında və UEFA-nın icazəsi ilə komandalar ertəsi gün yenidən üz-üzə gəl-



dilər. Oyunda bizim üçün qələbəyə bərabər heç-heçə qeydə alındı— 1:1. Hesabı Zaur Tağızadə açdı, portuqaliyalı Luiş Fiqu isə komandasını yalnız sonuncu dəqiqədə məğlubiyyətdən xilas edə bildi.

Azərbaycan futbolu tarixində unudulmaz sima kimi yaşayan Əhməd Ələsgərov 1935-ci il oktyabrın 5-də Bakıda doğulmuşdu. Həyatla 2015-ci il mayın 19-da, ömrünün səksəninci ilində Odessada vidalaşmışdır. Məzarı da həmin şəhərdədir. Cənazəsi isə "Çernomorets" stadionundan götürülmüşdür. Stadionda vida mərasimində Odessa Şəhər Şurasının yaydığı məlumatda bildirilmişdi: "Bu insan bir çoxları üçün futbol karyerasına vəsiqə verib. Əhməd Ələsgərovun istedadı və rəhbərliyi sayəsində "Çernomorets" klubu 1974-cü ildə SSRİ çempionatının bürünc mükafatçısı olub və ilk dəfə Avropa yarışlarında çıxış edib".

Ruhu şad olsun!

**P.S.** O uzaq illərdən yadımda kimdənsə eşitdiyimmi, hardasa oxuduğummu iki misra da qalıb:

***Eylə ki, işlər azacıq bəd gələr,***
***Dostların imdadına Əhməd gələr.***

**Oqtay BAYRAMOV,**
**Əməkdar jurnalist**

# "Qaraca qız" Şuşa Teatrı səhnəsinə qayıdır

**Şuşa Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivi yeni teatr mövsümündə – sentyabrın 16-da Süleyman Sani Axundovun "Qaraca qız" hekayəsi əsasında hazırlanmış eyniadlı tamaşa ilə yenidən balaca tamaşaçıların görüşünə gələcək.**

Teatrdan verilən məlumata görə, tamaşanın quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimov, quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Asyaxanım Heydərovadır.

Xatırladaq ki, 1948-ci ildə Azərbaycan uşaq dramaturgiyasının klassiki Abdulla Şaiq bu hekayə əsasında eyniadlı pyes yazıb. Həmin vaxtdan əsər ölkənin bir çox teatrlarında tamaşaya qoyulub. Uşaqların mənəvi dünyası, həyatı, insanlığı sevmək və qiymətləndirməyi bacarmaq qabiliyyəti bu səhnə əsərində yüksək bədiiliklə əks olunub.

***XQ***

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 189 (30305) 3 sentyabr 2023-cü il, bazar

veb-sayt: www.xalqqazeti.az


İdman xəbərləri

## Avarçəkənimiz Avropa çempionatının qalibi olub

**Azərbaycan təmsilçisi Diana Dımçenko Fransada təşkil edilən sahil avarçəkməsi üzrə Avropa çempionatında qızıl medal qazanıb.**



İdmançı birnəfərlik qayıqda həm Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası, həm də Bakı Avarçəkmə Kanoe İdman klubu (BAKİ) adından çıxış edib.

Dımçenko hər iki kateqoriyada çıxışda ən yüksək mükafata sahib çıxıb. Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası adı altında mübarizədə idmançımız təsnifat və yarımfinal mərhələsində finişə birinci çataraq A finalına vəsiqə qazanıb.

O, 6 km məsafəyə həlledici yürüşdə ən yaxın rəqibi, irlandiyalı Monika Dukarskanı 16 saniyə qabaqlayaraq (30:14.56 - 30:30.28) Azərbaycan bayrağını Fransada qaldırıb.

Bakı Avarçəkmə və Kanoe İdman Klubu adından çıxışlarda da Diana A finalına vəsiqəni təmin edib. Final yürüşündə də finişə hamıdan birinci çatan Dımçenko fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq himnimizi səsləndirib.

Qeyd edək ki, Diana Dımçenko ötən il İspaniyanın San Sebastian şəhərində keçirilən sahil avarçəkməsi üzrə Avropa çempionatında qızıl medala sahib olub.

## "Neftçi" Fransada 2-ci yeri tutub



**"Neftçi" Fransada təşkil olunan 3x3 basketbolu üzrə Dünya Qadın Seriyasının Pon du Qar mərhələsində ikinci yeri tutub.**

"Ağ-qaralar" finalda Niderland millisinə 16:21 hesabı ilə uduzub. Paytaxt təmsilçisi qrup mərhələsində Misir (21:12) və Niderland (19:12), 1/4 finalda Monqolustan (22:16), yarımfinalda isə Fransa (19:14) yığmalarını üstələyib.

## Mingəçevir – "Kürü keçək"

**Mingəçevirdə Gənclər və İdman Nazirliyi, Azərbaycan Üzgüçülük Federasiyası və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin birgə təşkilatçılığı ilə "Kürü keçək" adlı açıq suda kütləvi üzgüçülük yarışı təşkil edilib.**



Kür çayının iki sahili arasında, 300 metr məsafədə təşkil edilən yarışda Azərbaycanın bütün rayon və şəhərlərindən üzməyi bacaran 300-dək iştirakçı mübarizə aparıb. Yarış başa çatdıqdan sonra qaliblər mükafatlandırılıb.

Mükafatları gənclər və idman naziri Fərid Qayıbov, üzgüçülük üzrə milli komandamızın baş məşqçisi Rəşad Əbdürrəhmanov və Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov təqdim ediblər.

*L.SABİRQIZI, XQ*

Texnologiya yenilikləri



## Planetlər Günəşə yerləşə bilər

Saturn çox aşağı sıxlığa malikdir və çox yüngül planetdir. Əgər onu suya salmaq mümkün olsaydı, batmazdı.

Günəş sistemindəki bütün planetlər arasında Yupiter ən böyüyüdür. Təəccüblüdür ki, Günəş ətrafında fırlanan bütün planetlər onun çevrəsinə sığa bilər.

İlk ulduz kataloqu eramızdan əvvəl II əsrdə yaşamış alim Hipparx tərəfindən tərtib edilib.

1980-ci ildə Ay ərazilərinin satışı ilə məşğul olan "Ay səfirliyi" yaradılıb. Yeri gəlmişkən, bu gün Ay səthinin, təxminən, 8 faizi artıq satılıb.

Amerikalılar kosmosda yaza bilən xüsusi qələmin hazırlanmasına külli miqdarda pul xərcləyiblər. Həqiqətən, çəkisizlik vəziyyətində mürəkkəb yer üzündə olduğu kimi qələmdən axmır.

*XQ*

## Avropanın öz süni intellekti...

**Amerikanın "OpenAI" proqramından sonra Avropa da öz süni intellekt nəhəngini yaradıb.**

ALEPH ALPHA

"Aleph Alpha" adlanan süni intellekt dil modellərindən istifadə edərək mətnlər yaradır və çoxlu sayda sənədləri eyni zamanda təhlil edir. Bundan əlavə, hazırlanmış modelin təklif etdiyi imkanlara yüzlərlə səhifənin ümumiləşdirilməsi və xüsusi ekspert çatbotların yaradılması daxildir.

Həmçinin süni zəka tərəfindən hazırlanmış Almaniyadakı "Lumi" proqramı vətəndaşlara müxtəlif işlərdə məsləhətlər verərək kömək edir. Bu layihə rəqəmsal idarəetmə yolunda mühüm mərhələ hesab olunur.

*Əfsanə ƏHƏDLİ, XQ*

Maraq dünyamız

## Onlayn tənqidə görə edam

**Səudiyyə Ərəbistanında "X"də (keçmiş "Twitter") hökuməti tənqid edən yazılar paylaşan Mohammad Alghamdi adlı istifadəçi ölüm cəzasına məhkum edilib. Tarixdə ilk dəfə bir şəxsin sosial şəbəkədəki paylaşımlarına görə ölüm cəzasına məhkum edildiyi qeydə alınıb.**



Təqaüdçü müəllimdən başqa, digər şəxslər də hökuməti onlayn tənqid etdiyinə görə 20 ildən 45 ilə qədər həbs cəzasına məhkum ediliblər. Səudiyyə hökumətinin "X"dəki istifadəçilərin məlumatlarını necə əldə etdiyi məlum deyil. Bununla belə, FTB-nin şikayəti və ABŞ-da federal araşdırma nəticəsində keçmiş "X" əməkdaşının rüşvət qarşılığında istifadəçilərin məxfi məlumatlarını Səudiyyə hökumətinə satmaqda təqsirli bilinib.

*Aytən NƏCƏFOVA, XQ*

## Alla Puqaçova qaz pulunu ödəməyib

**"Qazprom Mejregionqaz Moskva" şirkəti rusiyalı məşhur müğənni Alla Puqaçovaya qarşı iddia ərizəsini geri götürüb.**



Bu barədə TASS məlumat yayıb. Bildirilib ki, məhkəmə iddianın geri götürülməsinin səbəbini açıqlamayıb.

Qeyd edək ki, "Qazprom Mejregionqaz Moskva" Alla Puqaçovanı Moskvadakı obyektlərinin birində qaz təchizatı xidmətinin haqqını ödəmədiyinə görə məhkəməyə vermişdi.

*XQ*

Hadisə

## Şahzadə Dinanın sevgilisinin atası vəfat edib

**Misir əsilli milyarder Məhəmməd Əl-Fayed 94 yaşında dünyasını dəyişib. İş adamının qohumları onun avqustun 30-da "qocalıqdan dinc şəkildə dünyasını dəyişdiyini" bildiriblər. Dəfn mərasimi sentyabrın 1-də Londonun Mərkəzi Məscidində baş tutub.**



Məhəmməd Əl-Fayed Britaniya kralı III Çarlzdan (o zaman Şahzadə Çarlz) boşandıqdan sonra şahzadə Diana ilə görüşən oğlu, kinoprodüser Dodi Əl-Fayedin ölümünün 26-cı ildönümündə vəfat edib.

Xatırladaq ki, Doddi və Diana 31 avqust 1997-ci ildə Parisdə qəzada ölüblər. Onların ölümündən sonra Məhəmməd Əl-Fayed avtomobil qəzasının Britaniya kəşfiyyat orqanları tərəfindən təşkil edildiyini iddia edib və bununla bağlı uzun bir kampaniya aparıb. Lakin Fransa polisi belə qənaətə gəlib ki, qəza sürücünün qanında spirtin çox olması və onun sürət həddini aşması səbəbindən baş verib.

Əl-Fayed 1929-cu ildə İsgəndəriyyədə anadan olub. 1960-cı illərdə Londona köçdükdən sonra Al-Fayed Britaniya kral ailəsinin üzvləri ilə yaxınlaşıb. Parisdəki "Ritz Hotel"in və Britaniyanın ən böyük univermaqlarından biri olan "Harrods"un sahibi olub.

*XQ*

İdman

## Futbol transferində yeni rekord

**Futbol öz rekordları ilə təkcə azarkeşləri deyil, bütün dünyanı heyrətə salmaqdadır. Dövri mətbuat "Transfermarket"ə istinadən xəbər verir ki, 2023-cü ilin yay transfer pəncərəsi məcmu klub xərclərinə görə futbol tarixində xərclər rekordunu yeniləyib.**



Avqustun 30-na olan məlumata görə, klubların ümumi xərcləri 7,631 milyard avro təşkil edib. Bundan əvvəlki transfer xərcləri rekordu 2019-cu ilin yay transfer pəncərəsində yenilənmişdi və o zaman futbol klubları möcüzəli oyunun cazibədarlığına xidmət məqsədilə 7,568 milyard avro xərcə düşmüşdülər.

BBC-yə istinadən verilən məlumatda bildirilir ki, bu yay transfer pəncərəsində ən çox pul xərcləyən İngiltərə Premyer Liqasının klubları olub. Dünyanın ən populyar futbol liqası sayılan bu liqa nümayəndələri yeni futbolçuların alınmasına 2,75 milyard avro xərcləyib. Onların bundan əvvəlki dünya rekordu ötən ilin yayında qeydə alınıb və həmin mövsümdə, İngiltərə klubları transferlərə 2,24 milyard avro ayırıblar.

Yeni rekordun qeydə alınmasında ikinci yerdə Səudiyyə Ərəbistanının klubları qərarlaşıb. Onlar builki transfer pəncərəsində futbolçuların satın alınmasına 846 milyon avro xərcləyiblər. Siyahıda üçüncü yeri İtaliya A seriyasının futbol klubları tutur.

*Leyla HADİ, tələbə-jurnalist*

Sağlamlıq

## Xərçəngin də peyvəndi yaradıldı

**Böyük Britaniyanın Milli Sağlamlıq Xidməti onkoloji xəstələrin müalicəsinə 75 faizə qədər kömək edən peyvəndin formulunu tapıb və artıq istehsala başlayıb. Bu, dünyada ilk xərçəng peyvəndi istehsalıdır.**



Xidmətin əməkdaşlarının fikrincə, cəmi 7 dəqiqəyə vurulan xərçəng əleyhinə peyvəndlə bəzi onkoloji xəstələr üçün dərman müalicəsinin müddəti dörddəüçə qədər qısalacaq.

Qeyd edilir ki, peyvənd Dərman və Sağlamlıq Məhsullarını Tənzimləmə Təşkilatı (MHRA) tərəfindən təsdiqləndikdən sonra İngiltərədəki yüzlərlə xəstəyə tətbiq ediləcək.

İlk növbədə bu peyvənd dərman transfuziyası alan xəstələrə vurulacaq.

Hesab olunur ki, yeni peyvənd xərçəng hüceyrələrini tapmaq və məhv etmək üçün xəstənin öz immun sistemini gücləndirən immunoterapiya dərmanıdır. Müalicə hazırda ağciyər, döş, qaraciyər və sidik kisəsi də daxil olmaqla, müxtəlif növ xərçəngdən əziyyət çəkən xəstələrə tətbiq olunacaq.

*Z.HÜSEYNLİ, XQ*

Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, sentyabrın 3-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 20-24°, gündüz 27-32° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 27-32°, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

*Q. QASIMOV, XQ*

Mədəniyyət

## "Otelloya xəyanət" səhnəyə gəlir

**Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının yaradıcı kollektivi tərəfindən yeni teatr mövsümündə Xalq yazıçısı Elçinin pyesi əsasında hazırlanmış "Otelloya xəyanət" tamaşası növbəti dəfə teatrsevərlərə təqdim olunacaq.**

Tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı İlqar Safat, quruluşçu rəssamı Umay Həsənova, dekor üzrə rəssamı Əməkdar mədəniyyət işçisi Aleksandr Fyodorov, geyim üzrə rəssamı Səmra Axundova, xoreoqrafı Raulya Türkkandır.

Səhnə əsərində Xalq artistləri Lyudmila Duxovnaya, Məbud Məhərrəmov, Əməkdar artistlər Salman Bayramov, Natavan Hacıyeva, İnna İmranova, aktyorlar Yaroslav Trifonov, Gövhər Şabanova, Rüfət Əliyev, Ruslan Pavlov, İoanna Ferştandt, Səbinə Asim, Cəhər Abdullayev, Tamerlan Abdullayev, Səma Vəliyeva, Samirə Rüstəmova və Dilarə Nəzərova iştirak edirlər.

*XQ*


✓ 2020-ci il iyulun 21-də DƏDRX-nin 9 nömrəli Qəbələ ərazi idarəsi tərəfindən Rəsulov Arif Rəsul oğlunun adına verilmiş torpaq sahəsinin AA525423 nömrəli planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.



BAŞ REDAKTOR

ƏFLATUN AMAŞOV

TELEFONLAR:

Reklam və elanlar: 493-82-21

Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64

Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az

+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:

AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4899
SİFARİŞ 2186
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00